**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**AZAD HƏMKARLAR İTTİFAQI**

# ƏMƏK MÜHAFİZƏSİ XİDMƏTİ ƏMƏKDAŞININ

# MƏLUMAT KİTABI

**Bakı–2020**

**MÜƏLLİF VƏ TƏRTİBATÇILAR:**

**Habil Surxay oğlu Qurbanov**
*AMEA Azad Həmkarlar İttifaqının sədri,*
*hüquq üzrə elmlər doktoru, professor*

**Həsənqulu Rəcəb oğlu Qurbanov**
*AMEA Azad Həmkarlar İttifaqının Əməyin texniki müfəttişi*

**MƏSLƏHƏTÇİ VƏ İDEYA RƏHBƏRİ:**

**Səttar Suliddin oğlu Möhbalıyev**
*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,*
*iqtisad üzrə elmlər doktoru, professor, millət vəkili*

ƏMƏK MÜHAFİZƏSİ XİDMƏTİ ƏMƏKDAŞININ MƏLUMAT KİTABI. Bakı: 2020,– 144 səh.

*Bu vəsait Azərbaycan Milli Elmlər Akademiyası strukturuna daxil olan bütün subyektlər üçün, həmçinin mülkiyyət formasından və təsərrüfat fəaliyyətindən asılı olmayaraq bütün dövlət və özəl strukturlarda çalışan fəhlə və qulluqçuların Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası Norma və Qaydaları haqqında qısa, lakin bu sahədə mövcud olan bütün Normativ Hüquqi Aktlara istinad olunmuş bir sənəddir. Bu sahədə normativ ədəbiyyat çatışmazlığını nəzərə alaraq kitab praktiki fəaliyyətlə məşğul olan hüquqşünasların, həmkarlar ittifaqları və əmək hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış QHT-lərin, idarə və müəssisələrdə çalışan "Əmək mühafizəsi xidməti" işçilərinin, həmçinin iş ustaları və iş icraçılarının, sahə rəislərinin, şöbə müdirlərinin, laboratoriya rəhbərlərinin, qurğu və sex rəislərinin istifadəsi üçün nəzərdə tutulur.*

*Veriləcək rəy və təkliflərinizə görə öncədən minnətdarlıq bildiririk.*

**ISBN** 978-9952-475-48-7

© AMEA AHİ, 2020

# ÖN SÖZ

Bu gün Respublikamızda gedən islahatlar və ondan irəli gələn Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası problemləri həmkarlar təşkilatlarının qarşısında daha ciddi vəzifələr qoyur. Bu vəzifələrin uğurla yerinə yetirilməsi işçilərin təhlükəsiz və sağlam iş şəraitinin təmin edilməsində onların təhlükəsiz əməyə və istehsalat intizamına riayət etmələri həmkarlar təşkilatları orqanlarında çalışan kadrların təşəbbüskarlığından, prinsipiallığından, iqtisadi və hüquqi savadından çox asılıdır. Çünki bu keyfiyyətlərə malik olmayan həmkarlar təşkilatı işçisi işçilərin əmək hüququnu və qanuni mənafelərini müdafiə edə bilməz.

Beynəlxalq Əmək Təşkilatının 2019-cu il tarixli rəsmi açıqlamasına əsasən dünyada hər gün 7 min nəfər insan istehsalatda baş vermiş bədbəxt hadisələr nəticəsində dünyasını dəyişir. Əlil olanlar və sonradan bu xəsarətlər nəticəsində dünyasını dəyişənlər buraya daxil deyildir. Bu hesabata əsasən il ərzində istehsalatda Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası Norma və Qaydalarının pozulması üzündən baş vermiş istehsalat qəzaları nəticəsində iki milyondan artıq insan həyatını itirir. İstehsalatda baş vermiş ölüm hadisələrinin 83,5%-i istehsalatda Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası Norma və Qaydalarının pozulması nəticəsində baş vermişdir.

Məsələyə tibb statistikası nöqteyi nəzərindən yanaşılarsa istehsalatda bədbəxt hadisələr nəticəsində baş vermiş ölüm hadisələrinin sayı il ərzində ciddi xəstəliklər nəticəsində baş vermiş ölüm sayı ilə müqayisə olunacaq dərəcədə ciddi olduğu açıq-aydın görünür və bu sahəyə strateji düşüncə tərzi ilə yanaşmaq tələb olunur.

Azərbaycan Respublikası (AR) müstəqillik qazandıqdan sonra öz iqtisadi bazasını yaratmaq məqsədi ilə iqtisa-

diyyatın bütün sahələrini əhatə edən çoxlu özəl təşkilatlar, birgə müəssisələr, səhmdar cəmiyyətlər və digər sənaye və kənd təsərrüfatı təyinatlı müəssisələrin yaradılması üçün şərait yaratdı. Bu heç kim üçün sirr deyil ki, qısa müddət ərzində ölkədə yaradılmış özəl strukturlar insan əməyi və əməyin mühafizəsi və təhlükəsizliyi kimi çox mühüm hesab olunan bir sahənin yaranmasını zəruri etdi. Bu sahədə normativ ədəbiyyat və mütəxəssis çatışmazlığı üzündən müəyyən çətinliklər yaranırdı. Bütün sahələrdə olduğu kimi bu sahədə də dövlət təşəbbüsü öz üzərinə götürərək qısa bir zaman ərzində müvafiq qanun və qərarlar qəbul etdi:

1. "Azərbaycan Respublikasının Əmək Məcəlləsi" 01.02.1999-cu il;

2. "Texniki Təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanunu" 02.11.1999-cu il;

3. "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikası" Qanunu 30.12.1999-cu il;

4. "Regional və Dövlətlərarası Standartların, Normaların, Qaydaların və Tövsiyələrin ölkə ərazisində tanınması və Tətbiqi Qaydaları" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 22.12.1998-ci ildə təsdiq edilmişdir.

Bu sənədlərin qəbul edilməsi sayəsində yaranmış çətinliklərin aradan qaldırılması istiqamətində lazım olan normativ-hüquqi baza yaradıldı.

Mövcud normativ-hüquqi bazaya istinad edərək Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və bu naziriyin nəzdində yaradılmış "Dövlət Əmək Müfəttişliyi" tərəfindən bir çox taleyüklü məsələlər qısa müddət ərzində öz həllini tapdı.

Həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə bir sıra metodiki və tövsiyə xarakterli sənədlər ayrıca kitab şəklində çap etdirilərək istifadə olunması üçün buraxıldı.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsa-

sən Əməyin mühafizəsi üzrə qanunvericiliyə əməl edilməsinə ictimai nəzarət Həmkarlar İttifaqları təşkilatları tərəfindən həyata keçirilir.

Ümumiyyətlə, istehsalatda baş vermiş bütün bədbəxt hadisələr və irimiqyaslı istehsalat qəzaları zamanı istər mülkiyyət sahibinə, istərsə də həmin müəssisədə çalışan müxtəlif kateqoiyalı işçilərə, həmçinin ərazidən kənarda olan adi vətəndaşlara dəymiş zərərin müəyyən edilməsi və bu sahəyə cavabdeh olan ayrı-ayrı vəzifəli şəxslərin konkret müəyyən edilməsi tələb olunur. Zərərçəkmiş şəxslərə istər birdəfəlik ödənişlərin, istərsə də müvəqqəti və ya həmişəlik əmək qabiliyyətinin itirilməsinə görə pensiya və təqaüdlərin təyin olunması üçün tərəflərin məsuliyyətinin müəyyən olunması kimi mühüm olan aspektlərin müəyyənləşdirilməsi bəzən müəyyən çətinliklər yaradır. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bu sahədə mövcud olan bəzi boşluqların aradan qaldırılması məqsədi ilə qısa müddət ərzində təqdirəlayiq işlər görmüşdür. Belə ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, iqtisad üzrə elmlər doktoru, professor S.Möhbalıyev, həmçinin C.Alxasov, V.Arqutkin, Ə.Mədətov, N.Muradov və başqalarının müəllifi olduqları istər elmi, istərsə də praktiki və metodiki əhəmiyyət kəsb edən dəyərli “Normativ Ədəbiyyat” nümunələri çap etdirilib istifadəyə verilmişldir.”

**Habil QURBANOV**
*hüquq üzrə elmlər doktoru,*
*professor*

# I FƏSİL

## ƏMƏK MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASI

Azərbaycan Respublikasının Konstitusiyası “Hər bir vətəndaşın təhlükəsiz və sağlam şəraitdə işləmək” hüququnu özündə təsbit edir. Hər bir müəssisə, idarə və təşkilat mülkiyyət formasından asılı olmayaraq ölkənin müvafiq qanunvericilik və normativ aktlarında əks olunmuş Əməyin Mühafizəsi, Texniki Təhlükəsizliyin Normaları, Qaydaları və Prinsiplərinə əməl etməyə borcludur. Qanunvericilik işəgötürənlər və mülkiyyətçilər üzərində müəyyən vəzifələr qoyur.

Azərbaycan Respublikasının ərazisində yerləşən hər hansı bir müəssisədə milli qanunvericiliyin tələblərinə uyğun olaraq Əməyin Mühafizəsinin idarəedilməsi sisteminin qurulmasının nümunəvi variantı barədə söhbət açmazdan əvvəl bir daha qeyd edək ki, mülkiyyət formasından və növündən asılı olmayaraq istehsalatda baş vermiş bədbəxt hadisələr üçün yalnız işəgötürən məsuliyyət daşıyır.

Müəssisələrin mülkiyyətçiləri və işəgötürənlər iş yerlərində Azərbaycan Respublikasının Əmək Məcəlləsi (ƏM) ilə səlahiyyətləri daxilində Azərbaycan Respublikası Nazirlər Kabinetinin (NK) qəbul etdiyi Qərarların, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) təsdiqlədiyi Qaydaların, Təlimatların və digər normativlərin və standartların, həmçinin, Azərbaycan Respublikasının qoşulduğu və tərəfdar olduğu beynəlxalq müqavilələrdən irəli gələn tələblərin yerinə yetirilməsinə bilavasitə cavabdehdirlər.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin “Əməyin Mühafizəsi” bölməsinin otuz dördüncü fəslinin 215 və 216-cı maddələrində əməyin mühafizəsi sahəsində mülkiyyətçinin və işəgötürənlərin vəzifələri aşağıdakı kimi

müəyyən edilmişdir:

**Maddə 215.** Müəssisənin mülkiyyətçisi və işəgötürəni işçilərin iş yerlərində əməyin mühafizəsi normalarının və qaydalarının yerinə yetirilməsinə bilavasitə cavabdehdirlər və aşağıdakı tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər:

1. Əməyin mühafizəsi üzrə mövcud standartların, normaların və qaydaların bütün tələblərinə əməl edilməsini;
2. Binaların, qurğuların, texnoloji proseslərin və avadanlıqların təhlükəsizliyinə riayət edilməsini;
3. Bilavasitə iş yerlərinin sağlam sanitariya-gigiyena şəraitinin və əməyin mühafizəsinin qüvvədə olan normativlərə uyğunlaşdırılmasını;
4. İşçilərə lazımi sanitariya-məişət və müalicə-profilaktik xidmətlərin təşkilini;
5. Əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə pulsuz müalicəvi profilaktiki yeməklər, süd və ona bərabər tutulan digər məhsulların verilməsini;
6. Normal əmək və istirahət rejiminə əməl olunmasını;
7. İşçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin verilməsini;
8. İşçilərin əməyin mühafizəsi normaları və qaydaları üzrə təhsilinin, təlimatlandırılmasının, biliklərinin yoxlanılmasının təşkil ediməsini və əməyin mühafizəsinin təbliğ edilməsini;
9. Kollektiv müqaviləyə əməyin mühafizəsi üzrə qaydaları daxil etməyi və orada nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsini təmin etmək;
10. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəyyən etdiyi müddətdə və müvafiq formada əməyin mühafizəsi və təhlükəsizlik texni-

kası, əmək şəraiti və onların qüvvədə olan normalara uyğunlaşdırılması üçün görülən tədbirlərin nəticələri haqqında statistik hesabatların verilməsini təmin etmək.

**Maddə 216.** Əməyin mühafizəsi üzrə işçilərin vəzifələri.

Əməyin mühafizəsi üzrə işçilərin vəzifələrinə aşağıdakılar daxildir:

- Əməyin mühafizəsi üzrə müvafiq normativ aktlarda nəzərdə tutulmuş əməyin təhlükəsizliyi, gigiyenası və yanğına qarşı mühafizə tələblərini öyrənmək, mənimsəmək və onlara əməl etmək;

- Əmək funksiyasını özünü və başqa işçiləri təhlükəyə məruz qoymamaq şərti ilə icra etmək, şəxsi buraxılışı (icazəsi) olmadan qurğularda, dəzgahlarda, partlayış və həyat üçün təhlükəli digər mənbələrdə iş görməmək;

- Verilmiş xüsusi geyimdə və ayaqqabıda işləmək, texnoloji prosesdə, əməyin mühafizəsi üzrə normalarda, qaydalarda və təlimatlarda nəzərdə tutulmuş fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etmək;

- Əməyin mühafizəsi qaydalarının bütün pozuntuları haqqında, həmçinin baş vermiş qəzalar və bədbəxt hadisələr haqqında işəgötürənin nümayəndələrinə dərhal məlumat vermək;

- Müntəzəm olaraq əməyin mühafizəsi normaları və qaydaları barədə biliklərini artırmaq;

- Əməyin mühafizəsi məsələləri ilə əlaqədar işəgötürənin, iş yeri üzrə rəhbərinin, mütəxəssislərin tapşırıqlarına, məsləhətlərinə, tövsiyələrinə əməl etmək.

## Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası Normaları, Qaydaları, Standartları və Prinsipləri nədir?

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi Qərarlar, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təsdiqlədiyi Qaydalar, Təlimatlar və digər nazirlik və dövlət komitələrinin öz səlahiyyətləri çərçivəsində müəyyən etdikləri norma və prinsiplər, həmçinin, tərəfdar çıxdığımız beynəlxalq konvensiyalarla müəyyən edilir.

22 noyabr 1998-ci il tarixində Beynəlxalq (Regional) və Dövlətlərarası Standartların, Normaların, Qaydaların və Tövsiyələrin Azərbaycan Respublikası Ərazisində Tanınması və Tətbiq Edilməsi Qaydaları Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmişdir. 30 dekabr 1999-cu il tarixində imzalanmış "Normativ Hüquqi Aktlar Haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində göstərilmişdir ki, "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi elan edilənədək qüvvədə olmuş, sonradan ləğv edilməmiş və Azərbaycan Respublikasının Konstitusiyasına zidd olmayan bütün normativ sənədlər və aktlar Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır."

Azərbaycan Respublikası Əmək Məcəlləsinin otuz üçüncü fəslinin 207-ci maddəsinin 3-cü bəndində deyildiyinə görə "Əməyin mühafizəsi üzrə normativ-hüquqi aktların tələbləri, Əməyin mühafizəsi normaları, standartları, qaydaları, əmək münasibətlərinin tərəfləri, digər fiziki və hüquqi şəxslər üçün məcburidir."

Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikasının Norma və Qaydalarının tələblərinin yerinə yetirilməsinə dövlət nəzarətini Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 1997-ci il tarixli 544 saylı Fərmanına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında yaradılmış **Dövlət Əmək Müfəttişliyi** həyata keçirir.

***Binaların, qurğuların, iş yerlərinin, texnoloji proseslərin, təcrübələrin, sınaqların və avadanlıqların təhlükəsizliyinə riayət olunmasına*** hər bir müəssisə mülkiyyətçisi və işəgötürən bilavasitə məsuliyyət daşıyır. Belə ki, hər bir müəssisə rəhbəri müəssisədə yerinə yetiriləcək aşağıdakı əsas məsələlərə xüsusi diqqət ayırmalıdır:

1. İcra olunacaq bütün işlərin dəqiq layihə-smeta sənədlərinin hazırlanması;
2. Avadanlıq, qurğu, mexanizmlər və axın xətlərinin düzgün layihəyə müvafiq quraşdırılması;
3. Texnoloji proseslərin düzgün aparılması;
4. Avadanlıqların, mexanizmlərin və axın xətlərinin saz vəziyyətdə saxlanılması;
5. Avadanlığın istismarı, yaxud təmiri zamanı istifadə olunan alətlər, tərtibatlar və digər köməkçi vasitələrin saz vəziyyətdə saxlanılması;
6. Təcridedici, çəpərləyici və qoruyucu vasitələrin əl altında olması;
7. Qurğu və avadanlıq yerləşdiriləcək sahələrin və ərazilərin onların müvafiq olaraq istismar şərtlərinə uyğun olaraq ayrılması;
8. Yeni avadanlıqların, qurğuların və tərtibatların işə salınması zamanı bu sahədə kifayət qədər elmi biliklərə və təcrübəyə malik işçilərin cəlb olunması və s.

İdarə və müəssisə rəhbərlərinin yuxarıda göstərilənlərə bir daha əmin olması məqsədi ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 218-ci maddəsinin 2-ci bəndində göstərildiyi kimi “Müəssisələrin, istehsal vasitələrinin, təcrübə və sınaq avadanlıqlarının və müxtəlif tərtibatların layihələri, konstruktor bürolarının hazırladığı eskiz cizgiləri və digər rəsmi sənədlər Dövlət ekspertizasından keçirilməlidir.”

İstehsal vasitələrinin təcrübə-sınaq nümunələri isə “Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Norma və

Qaydaları"nın tələblərinə uyğunluğunun yoxlanılması üçün dövlət sınaqlarından çıxarılmalıdır.

## İş yerlərinin sağlam sanitariya və gigiyena şəraitinin və əməyin mühafizəsinin qüvvədə olan normativlərə uyğunlaşdırılması

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin Əməyin Mühafizəsi bölməsinin doqquzuncu fəslinin 64-cü maddəsində qeyd edildiyi kimi, bilavasitə iş yerlərinin sağlam sanitariya–gigiyena şəraitinin və əməyin mühafizəsinin qüvvədə olan normativlərə uyğunlaşdırılmasını təmin etmək üçün müəssisələrin mülkiyyətçiləri və işəgötürənləri tərəfindən iş yerlərinin attestasiyasının keçirilməsi təmin olunmalıdır.

1. Bu maddənin ikinci hissəsində nəzərdə tutulan məqsədlə əmək şəraitindən asılı olmayaraq işəgötürən müvafiq normativ hüquqi aktla müəyyən edilmiş qaydada iş yerlərinin attestasiyasının keçirilməsini təmin etməlidir.

2. İşəgötürən müvafiq iş yerlərində əməyin mühafizəsi tədbirlərinin təmin olunması və ya istehsal sanitariyasının, gigiyenasının, vəziyyətini müəyyən etmək və yaxşılaşdırmaq məqsədi ilə, habelə əmək məhsuldarlığının və işin səmərəliliyinin artırılması, əməyin təşkilində ən mütərəqqi üsulların, o cümlədən yeni texnikanın və ya texnologiyanın tətbiqi zamanı iş yerlərinin attestasiyasını keçirməlidir. Bu məqsədlə həmkarlar ittifaqı təşkilatının nümayəndələrindən, əməyin mühafizəsi xidmətlərinin və əməyin təşkili üzrə peşəkar mütəxəssislərdən ibarət İş Yerlərinin Attestasiyası Komissiyası yaradılır.

3. İş yerlərinin attestasiyasının keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən qəbul edilən normativ hüquqi aktla tənzimlənir.

İşəgötürən və ya müəssisə rəhbəri yuxarıda qeyd olunanlara əsasən iş yerində aşağıda göstərilən şəraitin yaradılmasına məsuliyyət daşıyır:

1. Havanın temperaturunun, nəmliyinin, təzyiqinin və axın sürətinin, normalara uyğun olmasına;
2. Havada zəhərli buxarların, qazların və tozların olmamasına;
3. İş yerlərinin təbii və süni işıqlanma normalarına uyğun olmasına;
4. Radioaktiv, Rentgen, ultrabənövşəyi şüalanmanın, telemetrik dalğaların və elektrik-maqnit sahəsinin normadan artıq olmamasına;
5. Səs-küyün və titrəyişin normadan artıq olmamasına;
6. Sanitariya və gigiyena qaydalarına əməl olunmasına;
7. İstehsalat mədəniyyəti mühitinin yaradılmasına.

## Əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə pulsuz müalicəvi profilaktiki yeməklər, süd və ona bərabər tutulan digər məhsulların verilməsi

Mülkiyyət formasından və təsərrüfat fəaliyyətindən asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində yerləşən müəssisələrdə əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərin xəstəliklərdən qorunması məqsədi ilə onlara süd və digər eyni keyfiyyətli yeyinti məhsulları (əvəzində pul və ya başqa mal verilə bilməz, başqa heç nə ilə kompensasiya edilə bilməz) verilməlidir.

Süd yalnız bufetlərdə, yeməkxanalarda və ya sanitariya-gigiyena tələblərinə müvafiq surətdə xüsusi avadanlıqla təchiz edilmiş otaqlarda paylanılmalı və içilməlidir.

## Normal əmək və istirahət rejiminə riayət olunması qaydaları

**1. Tam iş vaxtı və onun müddəti.**

a) Tam iş vaxtı-müddəti bu məcəllədə nəzərdə tutulmuş həftəlik və gündəlik iş saatları ərzində işçilərin əmək funksiyalarını yerinə yetirmək üçün müəyyən edilmiş zamandır.

b) Gündəlik normal iş vaxtının müddəti 8 saatdan artıq ola bilməz.

c) Gündəlik normal iş vaxtına uyğun olan həftəlik normal iş vaxtının müddəti 40 saatdan artıq müəyyən edilə bilməz.

**2. Həftəlik tam iş vaxtının müəyyən edilməsi.**

a) Bir qayda olaraq iki istirahət günü olan beşgünlük iş həftəsi müəyyən edilir.

b) İstehsalın, işin, xidmətin və əmək şəraitinin xarakterindən asılı olaraq işəgötürən və ya müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) həftəlik tam iş vaxtının müddəti çərçivəsində altıgünlük iş həftəsi müəyyən edə bilər.

c) Altıgünlük iş həftəsində həftəlik norma 40 saat olduqda gündəlik iş vaxtının müddəti 7 saatdan, həftəlik norma 36 saat olduqda gündəlik iş vaxtının müddəti 6 saatdan və həftəlik norma 24 saat olduqda gündəlik iş vaxtının müddəti 4 saatdan çox ola bilməz.

Bundan başqa, mövcud qanunda

- Qısaldılmış iş vaxtı;
- Əmək şəraiti zərərli olan işlərdə çalışan işçilər üçün iş vaxtının qısaldılmış müddəti;
- Xüsusi xarakterli işlərdə çalışan işçilərin qısaldılmış iş vaxtı;
- Natamam iş vaxtı və sair barədə Azərbaycan Res-

publikası Əmək Məcəlləsinin 91, 92, 93 və 94-cü maddələrində ətraflı məlumat verilmişdir.

Bundan başqa həmin məcəllənin aşağıda adları çəkilən müvafiq maddələrində "İş vaxtının rejimi və iş vaxtından artıq vaxtda işin tənzimlənməsi qaydaları" öz əksini tapmışdır:

**Maddə 95.** İş vaxtının rejimi;

**Maddə 96.** İş vaxtının cəmlənmiş uçotu;

**Maddə 97.** Gecə vaxtı işin müddəti;

**Maddə 98.** Gecə vaxtı işlərinə cəlb edilməsinə yol verilməyən işçilər.

**Maddə 99.** İş vaxtından artıq iş;

**Maddə 100.** İş vaxtından artıq işlərin son həddi;

**Maddə 101.** İş vaxtından artıq işlərə yol verilən müstəsna hallar;

**Maddə 102.** İş vaxtının uçotu**.**

Bütün idarə və müəssisələrdə onların mülkiyyət formasından asılı olmayaraq iş günü ərzində işçilərə istirahət və nahar üçün fasilələr verilməlidir. Qüvvədə olan normativ sənədlərə əsasən işçinin bir iş günü ilə növbəti iş günü arasındakı sutkalıq (24 saat) istirahət vaxtı ən azı 12 saat olmalıdır.

Həmçinin işçinin yuxarıda sadalanan iş rejimlərindən asılı olmayaraq həftəlik istirahət vaxtı 42 saatdan az olmamalıdır.

Müstəsna hal kimi istirahət, bayram günlərində işə çağırılmış işçilərin əməyi tərəflərin qarşılıqlı razılığı ilə "əvəz-gün"lə və yaxud əməyin ikiqat ödənişi ilə əvəz edilməlidir.

Ümumiyyətlə, işçilərin iş və istirahət rejimləri barədə ətraflı məlumat Azərbaycan Respublikasının Əmək Məcəlləsinin IV və V bölmələrində öz əksini tapmışdır.

## İşçilərə müəyyən olunmuş müddətdə və lazımi çeşidlərdə pulsuz olaraq xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi və ümumi mühafizə vasitələrinin verilməsi qaydaları

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 222-ci maddəsinin müvafiq bəndlərindəki müddəalara uyğun olaraq əmək şəraiti zərərli və təhlükəli olan istehsalat və digər sahələrdə, həmçinin xüsusi temperatur şəraitində aparılan və ya çirklənmə ilə bağlı işlərdə çalışan işçilər müəyyən edilmiş normalara müvafiq olaraq pulsuz geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri, yuyucu, həmçinin dezinfeksiyaedici vasitələr, onların xidmət və yararlılıq müddətlərinə müvafiq olaraq mütəmadi təchiz edilməlidir.

Bu geyim və fərdi mühafizə vasitələri işin növü və xarakterindən asılı olaraq təqribən aşağıdakı prinsiplər əsasında təmin edilir:

**Xüsusi geyimlər:** Kombinezonlar, yarımkombinezonlar, şalvarlar, kostyumlar, yarımşubalar, tulublar, döşlüklər, jiletlər, qolçaqlar;

**Xüsusi ayaqqabılar:** Çəkmələr, yarımçəkmələr, qaloşlar;

**Baş mühafizəsi vasitələri:** Dəbilqələr, şapkalar, şilemlər;

**Nəfəs orqanlarının mühafizəsi vasitələri:** Əleyhiqazlar, müxtəlif respiratorlar, müxtəlif təyinatlı maskalar;

**Üzün mühafizəsi vasitələri:** Mühafizə şiti, orqanik şüşə şitlər, üz maskaları;

**Gözün mühafizəsi vasitələri:** Müxtəlif çeşidli təyinata uyğun olan mühafizə eynəkləri;

**Eşitmə orqanlarının mühafizə vasitələri:** Səs-küy əleyhinə şlemlər, xüsusi qulaqlıqlar;

**Xilasedici vasitələr:** xilasedici kəmər, dielektrik xalçalar, əl tutacaqları, dizliklər, dirsəkliklər, çiyinliklər;

**Əllərin mühafizəsi vasitələri:** Müxtəlif iş əlcəkləri, soyuğa qarşı əlcəklər;

**Xəbərdaredici vasitələr:** Müxtəlif rəngli işıq fanarları, müxtəlif səs svistokları;

**Əlaqə vasitələri:** Müxtəlif təyinatlı telefonlar;

**Çirklənməyə qarşı mühafizə vasitələri:** Yuyucu paraşoklar, pastalar, kremlər, gigiyenik vasitələr.

## İşçilərin əməyin mühafizəsi və təhlükəsizlik texnikası norma və qaydaları üzrə təhsilinin və təlimatlandırılmasının təşkili

Mülkiyyət formasından və təsərrüfat fəaliyyətindən asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində yerləşən bütün idarə və müəssisələrin müdiriyyətinin əsas vəzifələrindən biri də fəhlələrə, qulluqçulara və mühəndis-texniki işçilərə bilavasitə iş yerlərində və ya xüsusi kurslarda təhlükəsiz iş üsullarının öyrədilməsini təmin etməkdir. Bunun üçün müəssisə müdiriyyəti tərəfindən aşağıdakı işlər həyata keçirilməlidir:

1. Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə təlimatların işlənib hazırlanması və təsdiq edilməsi;
2. Təlimatların proqramlarının işlənib hazırlanması və təsdiq edilməsi;
3. İşçiləri öyrətmək üçün bütün mühəndis-texniki işçilərin lazım olan təlimatlarla, proqramlarla və digər əyani vəsaitlərlə təmin edilməsi.

Bütün işçilər işlərin təhlükəsiz görülməsi üzrə nəzərdə tutulmuş təlimat keçdikdən, xüsusi proqramlar üzrə istehsalat təcrübəsi əldə etdikdən və bilikləri yoxlanıldıqdan sonra sərbəst işə buraxılırlar.

Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası Normaları, Qaydaları, Standartları və Prinsiplərini əldə rəhbər tutaraq tərtib edilmiş bütün təlimatlar, normalar, qaydalar, texniki şərtlər və digər təlimat predmeti olan tədris material-

ları tərtib olunub müvafiq qaydada təsdiq edildikdən sonra azərbaycan Respublikası Əmək və Əhalinin Sosual Müdafiəsi Nazirliyinin və Təhsil Nazirliyinin müvafiq strukturları ilə razılaşdırıldıqdan sonra işçilərə tədris oluna bilər. Başqa sözlə bu tədris materiallarında çoxlu sosial cəhətlər olduğu üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi strukturları ilə razılaşdırılmalı və digər tərəfdən bu təlimatlar işçilər arasında tədris olunacaq material kimi tədris yükünün paylaşdırılması və mənimsənilməsi nöqteyi nəzərdən Təhsil Nazirliyinin müvafiq strukturu ilə razılaşdırılmalıdır.

## Fəhlə və qulluqçuların öyrədilməsinin və biliklərinin yoxlanılmasının təşkili

Bütün aidiyyəti işçilərin avadanlıqların, qurğuların, tərtibatların, aparatların, texnoloji avadanlıqların işlədilməsi, sınaqdan keçirilməsi, təmir olunması, texnoloji proseslərin aparılması, həmçinin işdə xüsusi ilə təhlükəli və zərərli maddələrin tətbiqi ilə əlaqədar olan bütün işçilərə, o cümlədən fəhlələrlə, texniki işçilərlə, operatorlarla, laborantlarla və elmi işçilərlə iş yerində ilkin təlimat keçirildikdən sonra, sərbəst işə buraxılmazdan öncə müəyyən edilmiş qaydada Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikasının iş üsulları öyrədilməli və onların bilikləri yoxlanılmalıdır.

Fəhlələrə, operatorlara, laborantlara, elmi və digər texniki işçilərə təhlükəsiz iş üsulları xüsusi proqram əsasında nəzəri və təcrübi biliklər öyrədilməlidir.

Nəzəri və təcrübi proqramlar yeni texnoloji proseslərin, avadanlığın, qabaqcıl iş təcrübəsinin və əmək mühafizəsi sahəsində digər nailiyyətlərin istehsalatda tətbiqi zamanı təhlükəsizlik tələblərinə dair tədris materialları və təcrübi materiallar ilə müntəzəm surətdə yenilənməlidir. Eyni zamanda köhnəlmiş materiallar tədris proqramlarından çıxarılmalıdır.

Tədris proqramlarına vaxtaşırı olaraq 3 ildə bir dəfədən az olmayaraq baxılmalıdır. Peşəsi olmayan və ya aşağı ixtisas dərəcəsinə malik olan fəhlə və digər kateqoriyalı işçilər sərbəst işə buraxılmazdan öncə, ixtisaslı fəhlənin və ya digər kateqoriyadan olan təcrübəli işçinin rəhbərliyi altında müvafiq qaydada təlim keçməsi üçün sex rəisi, şöbə rəisi, sahə rəisi yazılı sərəncam verir. Təlim müddətini və təlimə daim nəzarət etməli olan məsul şəxsi (iş ustasını, iş icraçısını, iş rəhbərini) sərəncamda göstərir. İşçilərin biliklərinin yoxlanılması öz xarakterinə və keçirilmə vaxtlarına görə **ilkin, vaxtaşırı** və **növbədənkənar** olur.

Bütün işçilər iş yerində təlimat və müvafiq təlim keçdikdən sonra sərbəst işə buraxılmazdan əvvəl və ya bir işdən başqa işə keçirilən zaman onların Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası tələblərinə dair bilikləri **ilkin** olaraq yoxlanılmalıdır. İşçilərin biliklərini müəssisə rəhbərinin sərəncamı ilə yaradılmış və sex, bölmə, şöbə və sahə rəhbərlərindən birinin sədr olduğu mütəxəssislərdən ibarət və sayı ən azı 3, 5, 7 nəfərdən ibarət olan komissiya yoxlayır.

Biliklərin yoxlanılmasını həyata keçirən komissiya üzvlərinin bilikləri yoxlanılmış olmalıdır.

İşçilərin bilikləri fərdi qaydada mövcud təlimatlara əsasən işlənib hazırlanmış və təsdiq edilmiş biletlər əsasında yoxlanılır. Biletlərdə bütün iş növlərinin yerinə yetirilməsində əmək təhlükəsizliyinin tələbləri əks etdirilməlidir. İşçilərin biliklərinin yoxlanılmasının nəticələri yerində tərtib edilmiş protokol əsasında rəsmiləşdirilir. Protokolda yoxlamadan keçən şəxsin biliklərinə verilən qiymət (yaxşı, kafi, qeyri-kafi) yazılmaqla işçinin sərbəst işə buraxılmasının mümkünlüyü barədə rəy verilir. Keçirilmiş yoxlamadan qeyri-kafi qiymət almış fəhlələr, sənətkarlar, texniklər və digər kateqoriyadan olan işçilər bundan sonra sərbəst işləmək üçün işə buraxılmırlar. Onlar üçün əlavə vaxt ayrılmaqla yenidən təlim keçirilir və 15 gün ərzində təkrar ola-

raq bilikləri yoxlanılır. Əgər növbəti yoxlamalardan sonra həmin işçilərin bilikləri qeyri-kafi olaraq qiymətləndirilərsə, o halda həmin işçilər öz işlərindən kənar edilməlidirlər. İşçilərin Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası tələblərinə dair biliklərinin yoxlanılmasının **“vaxtaşırı yoxlama”** mərhələsi ildə bir dəfədən gec olmayaraq idarə rəhbərinin təsdiq etdiyi qrafik əsasında işçilərin bilikləri **“ilkin yoxlama”**da olduğu kimi eyni komissiya tərəfindən öz təyinatına uyğun olaraq, həmin biletlər əsasında keçirilir. İmtahanın nəticələri əvvəl olduğu kimi dərhal yerində protokollaşdırılır.

Biliklərin yoxlanılacağı gün ən azı 15 gün əvvəldən aidiyyəti işçilərə xəbər verilməli və onlar biletlərdəki suallarla tanış edilməli, lazımi ədəbiyyatla təchiz olunmalıdırlar.

**“Növbədənkənar yoxlama”** aşağıdakı şərtlər daxilində aparılmalıdır:

1. İstehsal prosesi (texnologiya) dəyişildikdə;
2. Yeni avadanlıqlar, mexanizmlər, vasitələr və tərtibatlar tətbiq olunduğu halda;
3. Əmək mühafizəsi və Təhlükəsizlik Texnikası ilə bağlı yeni norma və qaydaların, təlimatların, standartların, həmçinin prinsiplərin tətbiq edilməsi zamanı;
4. İşçilər tərəfindən təhlükəsizlik texnikası norma və qaydalarının kobud şəkildə pozulması nəticəsində baş vermiş bədbəxt hadisələr, insan tələfatı və istehsalat qəzalarına səbəb olduğu hallarda;
5. İdarə və müəssisə rəhbərlərinin əmr və sərəncamları, müvafiq icra hakimiyyəti orqanının və nəzarətedici orqanların göstərişləri əsasında;
6. Əsaslı təmir və yenidənqurma işləri aparıldıqdan sonra;
7. İşçilər başqa işə keçirildiyi hallarda və ya 6 aydan artıq fasiləyə yol verildiyi zaman;

8. Bir və ya bir neçə işçinin iştirakı ilə bilərəkdən (və ya bilmədən) əmək təhlükəsizliyi qaydalarını pozaraq törətdikləri istehsalat qəzalarından sonra.

Adları yuxarıda sadalanan bütün hallarda müvafiq yoxlamalardan keçirilmiş bütün işçilərə imtahan komissiyası sədrinin imzası ilə və müəssisənin möhürü ilə təsdiq olunmuş müvafiq “vəsiqə” verilir.

***İclas protokolunun tərtib olunması nümunəsi və təqdim olunacaq vəsiqənin hər iki üzünün yazılışı forması aşağıda ayrı-ayrılıqda göstərlilmişdir:***

**Üz qabığı**

Azərbaycan Milli Elmlər Akademiyası

______________________________________________

*müəssisənin adı (tam)*

Əməyin mühafizəsi üzrə biliyin yoxlanılması haqqında

**VƏSİQƏ**

**Vəsiqənin sol tərəfi içərisi**

**VƏSİQƏ №**

______________________________________________

*(müəssisənin, təşkilatın adı)*

verilir: ______________________________________

*(adı, atasının adı, soyadı)*

______________________________ vəzifəsində işləyən ondan ötəri ki, onun vəzifə borclarına uyğun olaraq əməyin mühafizəsi üzrə bilikləri yoxlanılmışdır.

“      ”                    202  -ci il tarixli              №-li Protokol.

Komissiyanın sədri: ______________________________

*(adı, soyadı, atasının adı, imzası)*

## Vəsiqənin içərisi sağ tərəfi

Biliklərin təkrar yoxlanması haqqında məlumat

______________________________________________

*(idarə, müəssisə, təşkilatın adı)*

Vəzifə borclarına uyğun olaraq əməyin mühafizəsi üzrə bilikləri təkrar yoxlanılmışdır.

"____" ____________ 202 -ci il tarixli ______ №-li Protokol.

Komissiyanın sədri: ________________________________

*(adı, soyadı, atasının adı, imzası)*

Biliklərin təkrar yoxlanılması haqqında məlumat

______________________________________________

*(idarə, müəssisə, təşkilatın adı)*

vəzifə borclarına uyğun olaraq əməyin mühafizəsi üzrə bilikləri yoxlanılmışdır.

"____" ________ 202__-ci il tarixli ____№-li Protokol.

Komissiyanın sədri:______________________________

*(adı, soyadı, imzası)*

## Azərbaycan Milli Elmlər Akademiyası

_______________________________________________

*(müəssisənin adı)*

İşçilərin əməyin mühafizəsi üzrə biliklərinin yoxlama komissiyasının    №-li iclas PROTOKOLU

Müəssisə rəhbərinin "______"___________202___-ci il tarixli_______№-li əmrinə uyğun olaraq aşağıdakı tərkibdə komissiya

Sədr: _______________________________________________

*adı, soyadı, atasının adı, vəzifəsi*

Üzvlər: _______________________________________________

*adı, soyadı, atasının adı, vəzifələri*

İşçilərin vəzifə borclarına uyğun olaraq əməyin mühafizəsi üzrə biliklərini yoxlayıb:

| Sıra № | Soyadı, adı, atasının adı | Vəzifəsi | Bölmənin adı: sex, sahə, laboratoriya, emalatxana və s. | Yoxlamanın nəticəsi: cavab verilib, verilməyib | Biliklərin yoxlanılmasının səbəbi (növbəti, növbədənkənar) və s. | Yoxlama aparanın imzası |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |

Komissiyanın sədri:_______________________________________

*(adı, soyadı, imzası)*

Komissiyanın üzvləri:_____________________________________

*( adı, soyadı, imzaları)*

"_____" ___________ 202_____ -ci il

# Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə görülmüş işlərin uçotu jurnalı

| Sıra №-si | Görülmə tarixi | Görülmüş işlər, həyata keçirilmiş tədbirlər | Nəzarət edənin imzası (adı, soyadı, atasının adı) | Qeyd |
|---|---|---|---|---|
| **1** | 01.02.2020 | COVİD-19 ilə bağlı işçilərin maarifləndirilməsi | | |
| **2** | 05.03.2020 | Havalandırma sistemi təmir edildi | | |
| **3** | 10.03.2020 | İşçilərə gigiyena haqda məlumat vermək üçün mütəxəssislərin dəvət olunması | | |
| **4** | 18.03.2020 | Tibbi maska və dezinfektantlardan istifadə qaydaları | | |
| **5** | 01.06.2020 | Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə əyani vasitələrin və plakatların hazırlanması | | |

# II FƏSİL

## ƏMƏK MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASININ ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

### Təhlükəsizlik texnikası prinsipləri

- İş yerləri və istehsalat sahələrində baş verə biləcək təhlükələr, bədbəxt hadisələr və qəzaların qarşısının alınması yolları:
- Bədbəxt hadisələrin qarşısını alan əsas üsullar və texniki vasitələr;
- İstehsalat proseslərinə və avadanlıqlarına qoyulmuş texniki şərtlər və standartlar;
- Mühafizəedici, qoruyucu və xəbərdaredici qurğu və vasitələr;
- Xəbərdaredici rənglər, nişanlar və əlamətlər;
- Elektrik təhlükəsizliyi haqqında əsas məlumatlar;
- Elektrik avadanlıqlarının, qurğularının və tərtibatlarının istismarı zamanı təhlükəsizlik tədbirləri;
- İş yerlərinin, sahələrin, obyektlərin və iş otaqlarının təhlükəsiz şəkildə təşkil olunması;
- İş alətləri və yardımçı vasitələrə olan tələblər;
- Yükləmə, boşaltma işləri və yüklərin daşınmasına olan tələblər;
- Təhlükəli mayelərin, turşuların, qələvilərin, tezalışan maddələrin, güclü təsirə malik zəhərli maddələrin istifadəsi zamanı təhlükəsizlik tələbləri;
- Tezalışan, zəhərləyici və güclü zəhərləyici qazların istifadəsi və saxlanılması zamanı təhlükəsizlik tələbləri;
- Qoruyucu, xilasedici vasitələrə qoyulan təhlükəsizlik tələbələri;

- Maşın və mexanizmlərə, aqreqatlara, yük qaldıran qurğulara, təzyiq (yüksək təzyiq) altında işləyən qablara xidmət göstərilməsi üçün xüsusi tələblər;
- Təlimatlandırılan işçilərin peşəsindən asılı olaraq işlərin və proseslərin xarakterinə müvafiq qaydada təhlükəsizlik tələbləri;
- Xüsusilə yüksək dərəcədə təhlükəli şəraitdə icra olunan işlər üçün təhlükəsizlik tələbləri və sair.

## İstehsalat sanitariyası

- İstehsalat mühitində əsas sanitar-gigiyenik amillər;
- İstehsalatın əsas zərərli amilləri və onların xüsusiyyətləri;
- Zərərli istehsalat amillərinin yol verilə bilən son həddi haqqında əsas normativ məlumatlar;
- Əmək şəraitini yaxşılaşdıran əsas tədbirlər;
- Sənaye ventilyasiyası, onun vəzifəsi və üsulları;
- Təbii və mexaniki (məcburi) ventilyasiya və onun istismarı;
- Qəza ventilyasiyası və onun işləmə prinsipi;
- Sənaye işıqlandırılması, onun vəzifəsi (süni, təbii) növləri və normaları;
- İşıqlandırıcı qurğuların növləri və istismarı;
- Səs-küy və titrəmə, onlarla mübarizə üsulları, yol verilən son həddi və normaları. Səsin və titrəmənin insan orqanizminə zərərli təsirinin azaldılması tədbirləri;
- Şəxsi və istehsalat gigiyenasına olan tələblər;
- İş yerinin saxlanılması və təmizlənilməsi qaydası;
- Sanitar-gigiyena, məişət otaqları və onların saxlanılması qaydaları;
- Süd və ona bərabər tutulan yeməklər, həmçinin sabun və digər yuyucu vasitələrinin verilməsi qaydası.

## İşçilərin fərdi mühafizə vasitələri

- "Onların təyinatı və növləri, dəyişdirilməsi və xidmət müddətləri" haqqında qayda;
- Müxtəlif işlərin görülməsi üçün mühafizə vasitələrinə tələblər;
- Mühafizə vasitələrindən istifadə qaydaları;
- İş paltarlarının geyilməsində ümumi təhlükəsizlik qaydaları;
- Fərdi mühafizə vasitələrinin saxlanılması qaydası və yeri (daimi istifadə üçün və qəza baş verdikdə);

## Yanğın təhlükəsizliyinin əsasları

- Müəssisədə yanğın təhlükəsizliyi işinin təşkili;
- İstehsalatın və ya müəssisələrin yanğın təhlükəsi dərəcəsinə görə növlərə ayrılması;
- Yanğınların və alışmaların baş verməsinin əsas səbəbləri;
- Yanğından mühafizənin ümumi tədbirləri (ənənəvi) (papiros çəkmək üçün xüsusi yerlər, tezalışan və yanan materialların saxlanılması, bina, keçid və qurğuların saxlanılması, açıq oddan itifadəyə qadağa) və s.
- Yanğın haqda xəbərdarlıq edilmə üsulları, vasitələri, yanğın söndürənlərin çağırılması, insanların yanğın yerindən çıxarılması planları (sxemləri);
- Yanğınsöndürən vasitələrdən, avadanlıqlardan və alətlərdən istifadə etmək qaydası;
- Neft məhsullarının, elektrik qurğularının və meşə materiallarının (taxta ağac) söndürülməsi üçün vasitələr və üsullar;

## Bədbəxt hadisələr və xəstələnmələr zamanı ilkin (həkimə qədər) yardımın üsulları

- Müəssisədə tibbi xidmətin təşkili;
- Suya düşənə yardımın edilməsi;
- Bədbəxt hadisə və zəhərlənmə zamanı vaxtında ilkin yardımın göstərilməsinin əhəmiyyəti;
- İstehsalatda baş vermiş bədbəxt hadisələr barəsində xəbər verilməsi qaydası;
- Obyektlərə təcili tibbi yardımın çağırılması üsulları və vasitələri;
- Bədbəxt hadisələr və zəhərlənmələr zamanı zərərçəkmişlərə ilkin yardım göstərilməsinin üsulları (elektrik cərəyanı vurması, termiki və kimyəvi yanıq, günvurma, yaralanma, sınıqlar, görmə orqanlarının zədələnməsi, neft və qaz məhsulları ilə zəhərlənmələr, həşərat və ilan sancması halları və sair).

## İdarə və müəssisələrin ərazisində, istehsalat və yardımçı binalarda özünü aparma qaydaları

- Piyadaların və nəqliyyat vasitələrinin hərəkət qaydaları;
- İşçilərin məhdud daxilolma sahəsi, iş yerində hərəkət etməsi və orada olması qaydası;
- Təhlükəli hallar barədə xəbərdarlıq və siqnallar;
- Siqnal rənglərinin, təhlükəsizlik nişanlarının, səs və işıq (svistok və fənər) siqnalizasiyasının əhəmiyyəti;
- Kənar şəxslərin iş yerinə buraxılmasının qadağan edilməsi, tapşırıqda nəzərdə tutulmayan işlərin görülməsinin qadağan olunması;
- Fəhlə və qulluqçuların aşkar edilmiş pozuntu halları, qəzalar, bədbəxt hadisələr haqqında xəbər vermələri və onların vaxtında qarşısının alınması üçün borclu ol-

duqları;

- Qazların və buxarların toplana biləcəyi yerlər və həmin yerlərin aşkar edilməsi üsulları.

### İşçilərin daşınma qaydaları

- Avtomobil nəqliyyatı ilə;
- Hava nəqliyyatı ilə;
- Su nəqliyyatı ilə;
- Dəmir yolu nəqliyyatı ilə;
- Digər uyğunlaşdırılmış nəqliyyat vasitələri ilə.

### Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə təlimatlar və onların keçirilməsi qaydaları

İdarə, müəssisə və təşkilatlarda fəhlə və qulluqçulara keçirilən təlimatlar öz xüsusiyyətlərinə və keçirilmə qaydalarına görə **giriş** və **iş yerində təlimatlara** ayrılır. İşə daxil olan bütün fəhlə və qulluqçulara onların təhsilindən, ixtisasından, elmi dərəcəsindən, peşə və vəzifə üzrə iş stajından asılı olmayaraq **giriş təlimatı** keçirilməlidir. O cümlədən,

- Müəssisəyə ezam olunmuş bütün kateqoriyadan olan işçilərə;
- Müəssisənin ərazisində ayrıca sahədə iş aparan digər təşkilatların işçilərinə;
- Müəssisədə istehsalat təcrübəsi keçən ayrı-ayrı təhsil müəssisələrinin tələbələrinə;
- Müəssisənin istehsal və elmi fəaliyyətində iştirak edən digər şəxslərə də bu təlimat keçirilməlidir;
- İşçiləri təhlükələr və zərərləri olan istehsalat, sınaq və təcrübə işləri zamanı baş verə biləcək faktorlarla tanış etmək;
- Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikasının tələbləri ilə tanış olmaq;

- İşlərin təhlükəsiz yerinə yetirilməsinin üsulları və qaydaları ilə tanış olmaq.

**Azərbaycan Respublikasının Əmək Məcəlləsində göstərildiyi kimi Azərbaycan Respublikası iqtisadiyyatının bütün sahələrinin müəssisələrində Əməyin Mühafizəsi Normaları və Qaydalarına nəzarət etmək üçün müvafiq səlahiyyətlər verilən və bu işin öhdəsindən gələ bilən kadrlardan ibarət "Əməyin Mühafizəsi Xidməti" yaradılmalıdır.**

Qüvvədə olan qanunvericiliyə uyğun olaraq, əgər müəssisə böyük deyilsə, yəni işçilərin ümumi sayı 50-ə qədər olarsa, bu halda **"Əmək Mühafizəsi Xidməti"** üzrə ayrıca ştat vahidinə malik işçiyə ehtiyac yoxdur. Bu vəzifə kifayət qədər bilik və bacarığa malik hər hansı bir işçiyə müəssisə rəhbərinin yazılı əmrinə əsasən həvalə edilir.

**Giriş təlimatı** "Əmək Mühafizəsi xidməti" işçisi tərəfindən keçirilir və "**Giriş təlimatı**" keçirilməsinin qeydə alındığı ayrıca qaytanlı jurnalda rəsmiləşdirilir və işəgirmə ərizəsində qeydə alınır.

**Giriş təlimatı** müəssisənin müvafiq xidmət və şöbələri, eləcə də hüquq işçiləri tərəfindən hazırlanmış və həmkarlar ittifaqı ilə razılaşdırılaraq, müəssisə rəhbərliyi tərəfindən təsdiq olunmuş, müvafiq proqram əsasında keçirilir.

## Giriş təlimatının keçirilməsi üçün nümunəvi proqram forması

1. Müəssisə haqqında ümumi məlumat;
2. Müəssisənin və onun ayrı-ayrı bölmələrinin vəzifələri, strukturu və xüsusiyyətləri;
3. Müəssisənin iqtisadiyyatın hansı sahəsi olması haqda məlumat;
4. Müəssisənin, onun sexlərinin sahələrinin, emalatxanalarının, laboratoriyalarının, obyektlərinin yerləşdiyi sahələr;

5. Müəssisənin idarəetmə üsulu və mülkiyyət forması;
6. Müəssisənin və onun bölmələrinin iş vaxtı;
7. Müəssisədə ümumi təhlükəsizlik texnikası tələbləri;
8. Müəssisədə ümumi yanğın təhlükəsizliyi tələbləri.
9. Müəssisədə ümumi sanitariya və gigiyena qaydalarına qoyulmuş tələblər.

**Giriş təlimatının** keçirilməsinin qeydə alındığı qaytanlı jurnal bu təlimatı keçirən "Əmək Mühafizəsi Xidməti" şöbəsində, əgər belə şöbə yoxdursa bu sahəyə əmrlə təyin olunmuş cavabdeh şəxsdə saxlanılır.

## "İş yerində təlimat"ın keçirilmə qaydaları

"İş yerində təlimat"ın aşağıdakı növləri vardır:
- ilkin təlimat;
- vaxtaşırı təlimat, (təkrar);
- növbədənkənar təlimat;
- birdəfəlik təlimat;

Bu təlimat bütün fəhlə və qulluqçulara onların təhsilindən, ixtisasından, elmi dərəcəsindən, peşə və vəzifə üzrə iş stajından asılı olmayaraq müvafiq qanunlara uyğun şəkildə keçirilməlidir.

## İlkin təlimat

Fəhlə və qulluqçular bilavasitə iş yerində ilkin təlimatı onlar sərbəst işləməyə buraxılmazdan qabaq, bir işdən digər işə, ya da ayrı xüsusiyyətli iş sahəsinə keçirilərkən və istehsalat şəraiti dəyişilərkən keçirilir. İş yerində təlimatın fəhlələr üçün keçirilməsi bilavasitə iş yeri üzrə rəhbərə, qulluqçularla keçirilməsi isə sex, bölmə, laboratoriya, qurğu rəhbərinə tapşırılır. Burada məqsəd hər bir işçini təhlükəsiz iş üsullarının əsas qaydaları ilə tanış etmək, işlərin təhlükəsiz yerinə yetirilməsi üçün işçilərin biliklərini artırmaq,

yada salmaq və möhkəmləndirməkdir. Həmçinin bu təlimat əmək müqaviləsi ilə çalışan (2 aylıq və çox), mövsümi işçilərlə, mal-materiallar müəssisə tərəfindən verilməklə evdə çalışan, müəssisəyə ezam olunmuş, müəssisədə istehsalat təcrübəsi keçən bütün işçilər üçün də keçirilməlidir.

## Vaxtaşırı təlimat (təkrar)

Bütün fəhlələrlə və bəzi qulluqçularla onların təhsilindən, ixtisas dərəcəsindən, peşə və vəzifə üzrə iş stajından və tutduğu vəzifəsindən asılı olmayaraq hər 6 aydan bir vaxtaşırı təlimat keçirilməlidir.

Vaxtaşırı təlimatın keçirilməsində məqsəd işçilərin əsas və daha tez-tez yerinə yetirdikləri digər işlər, əməliyyatlar zamanı təhlükəsizliyin tələblərinə aid biliklərini təkrar etmək, dərinləşdirmək və möhkəmləndirməkdir. Vaxtaşırı təlimatı bilavasitə işin rəhbəri (usta, iş icraçısı, sex rəisi, sahə və qurğu rəisi və s.) iş yerində müvafiq proqram əsasında keçirir. Bu zaman ilkin təlimatdan sonrakı dövrdə uğurlu və uğursuz işlər nəzərə alınmaqla, alınmış əmrlər, sərəncamlar, məktublar barədə izahatlar verilir.

## Növbədənkənar təlimat

İstehsalat zərurətindən asılı olaraq xüsusi hallarda fəhlə və qulluqçulara işlərin təhlükəsiz görülməsinə dair növbədənkənar təlimat keçirilməlidir və bu aşağıdakı hallarda keçirilir:

- İstehsal prosesi dəyişdikdə;
- Avadanlıq və alətlərin yeniləşdirilməsi ilə əmək şəraiti dəyişdikdə;
- Müəssisədə bədbəxt hadisə və ya qəza baş verdikdə;
- Yüksək dərəcədə təhlükəsizlik tələbləri olan işlərdə (sahələrdə) 30 təqvim günündən artıq fasilələr olduqda,

qalmış hallarda 60 təqvim günündən artıq fasilələr olduqda.

- İşçilər tərəfindən təhlükəsizlik qaydalarının kobud şəkildə pozulduğu hallarda;
- Əmək təhlükəsizliyi ilə bağlı yeni qaydaların, təlimatların və standartların qüvvəyə minməsi zamanı;
- Müəssisə rəhbərliyinin əmr və sərəncamları, yuxarı təşkilatların və nəzarət orqanlarının göstərişləri və digər hallarda;

Növbədənkənar təlimat əvvəlcədən aidiyyatı şöbələrin və vəzifəli şəxslərin hazırladığı və müəssisə rəhbərinin təsdiq etdiyi xüsusi proqram əsasında keçirilir.

Fəhlə və qulluqçulara növbədənkənar təlimatı (ilkin və vaxtaşırı təlimatlarda olduğu kimi) işlərin bilavasitə rəhbərləri keçirlər.

## Birdəfəlik təlimat

Yuxarıda deyilənlərlə yanaşı olaraq, bütün fəhlə və qulluqçular, onların vəzifələrinə aid olmayan birdəfəlik işləri yerinə yetirmək, yüksək dərəcədə təhlükəli şəraitdə işləmək üçün tapşırıq (tapşırıq-icazə) alan, qəza və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında iştirak edən, müəssisədə kütləvi tədbirlərin keçirilməsində iştirak edən, ezamiyyətə göndərilən və sair hallarda mütləq keçirilməlidir.

Birdəfəlik təlimatı işin məsul rəhbəri (iş ustası, iş icraçısı, sahə rəisi, sex rəisi və s.) keçməli və tapşırıq-icazə vərəqəsində qeyd olunmalıdır.

**Diqqət: İş yerlərində keçirilən təlimatların dördü də (ilkin, vaxtaşırı, növbədənkənar və birdəfəlik) Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə işçilərə "İş yerində" keçirilən təlimatın qeydiyyatı və uçotu jurnalında rəsmiləşdirilir. Bu jurnallar bilavasitə bu tə-**

**limatları keçirən ayrı-ayrı vəzifəli şəxslərdə (şöbə müdirlərində, sex rəislərində, iş icraçılarında, sahə və qurğu rəislərində) saxlanılmalıdır.**

Aşağıda bu jurnalların üz qabığının tərtibatı və təlimatların növlərinə müvafiq olaraq keçirildiyi rəsmiləşdirilən və qeydə alınan jurnalların tərtibatı nümunələri ayrı-ayrılıqda verilmişdir. Bu nümunələr əsasında jurnallar hamı tərəfindən hazırlana bilər və rəsmiləşdirilməsi üçün mütləq qaytanlanmalıdır.

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

______________________________________________________
(müəssisənin adı)
______________________________________________________

**Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə işə götürülən işçilərlə keçirilən "Giriş Təlimatının" qeydiyyatı**

# JURNALI

**Başlama vaxtı "    " "                    " 2020-ci il**

**Qurtarma vaxtı "    " "                    " 202  -ci il**

**Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə işə götürülən işçilərlə keçirilən "Giriş Təlimatının" qeydiyyatı Jurnalının tərtibatı nümunəsi**

| Sıra №-si | Təlimatlandırılanların soyadı, adı və atasının adı | Peşəsi, vəzifəsi | Təlimatlandırılanlar istehsalatın hansı sahəsində işləməyə göndərilir | Təlimatın keçirildiyi tarix | İmzalar | | QEYDLƏR |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Təlimat alan | Təlimatı keçirən (vəzifəsi və soyadı) | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

________________________________________________

(müəssisənin adı)

________________________________________________

________________________________________________

(sex və ya laboratoriyanın adı)

**Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası**
**üzrə işçilərə "İş Yerində"**
**keçirilən təlimatın qeydiyyatı və uçotu**

**JURNALI**

**Başlama vaxtı " " " " 2020-ci il**

**Qurtarma vaxtı " " " " 202 -ci il**

**Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə işçilərə iş yerində keçirilən təlimatın qeydiyyatı və uçotu Jurnalının tərtibatı nümunəsi**

| Sıra №-si | Təlimatlandırılanların soyadı, adı və atasının adı | Peşəsi, vəzifəsi | Təlimatın keçirildiyi tarix | Təlimatın növü<br>-ilkin<br>-vaxtaşırı<br>-növbədənkənar<br>-birdəfəlik | Təlimatın mövzusu | Təlimatı keçirənin vəzifəsi, soyadı, adı, atasının adı | İmzalar | | QEYDLƏR |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Təlimat alan | Təlimatı keçirən | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

## İşçilər üçün "İş yerində təlimat"ın hazırlanması qaydaları

İşçilərin peşələr və ayrı-ayrı iş növləri üzrə təlimatları bölmə rəhbərlərinin, baş mütəxəssislərin (baş texnoloq, baş mexanik, baş energetik, baş metallurq, baş konstruktor və sair) əmək və əmək haqqı üzrə mütəxəssislərin iştirakı ilə "Əməyin Mühafizəsi Xidməti" şöbəsinin işçiləri tərəfindən müvafiq siyahı əsasında hazırlanır.

Xüsusi siyahı, əsas etibarı ilə, müəssisə tərəfindən işlərin və peşələrin Vahid Tarif dərəcələri barədə olan məlumat kitabçalarını, eyni zamanda müvafiq qaydada təsdiq edilmiş xidməti vəzifələr barədə olan məlumat kitabçalarına uyğun olaraq təsdiq edilmiş işçilərin ştat cədvəlinə əsasən tərtib edilir. Siyahı müəssisə rəhbərliyi tərəfindən təsdiq olunur və müəssisənin bütün struktur bölmələrinə göndərilir.

**Diqqət: Müəssisənin sex, sahə, şöbə, laboratoriya və digər bölmələrinin işçiləri üçün təlimat onların rəhbərləri tərəfindən işlənib hazırlanır.**

Müəssisənin "**Əməyin mühafizəsi xidməti**" işçilər üçün təlimatların vaxtlı-vaxtında işlənib hazırlanmasına, onun yoxlanılmasına, yenidən baxılmasına daim nəzarət etməklə yanaşı təlimatı hazırlayanlara lazım olan vəsaitlərlə, standartlarla və əməyin mühafizəsi üzrə digər normativ aktları əldə etməyə yardımçı olmaqla onlara metodiki köməklik göstərməlidir.

***Təlimatların hazırlanması üçün aşağıda göstərilən amillər əsas götürülməlidir:***

- Texnoloji prosesin öyrənilməsi, onun normal iş vəziyyətindən və optimal iş rejimindən kənarlaşma hallarında əmələ gələn təhlükələr;

- İstifadə olunacaq avadanlıq, dəzgah, alət və qurğuların təhlükəsizlik tədbirlərinə uyğunluğunu müəyyənləşdirmək;

- Təlimatların işlənib hazırlanmasında istifadə etmək üçün əməyin mühafizəsinə aid lazımi sənədlərin seçilib toplanılmasını təşkil etmək;

- Müvafiq işlərin yerinə yetirilməsində istifadə ediləcək qoruyucu vasitələrin səmərəliliyinin və konstruktiv xüsusiyyətlərinin öyrənilməsi;

- Müəsisələrdə qəza və bədbəxt hadisələrin nəticələri ilə əlaqədar mərkəzi icra hakimiyyəti orqanları tərəfindən verilmiş müvafiq əmrlərin, informasiya xarakterli məktubların və sərəncamların öyrənilməsi.

- Peşələr və iş növləri üzrə qəza vəziyyətinin, istehsalat xəsarətlərinin və peşə xəstəliklərinin baş vermə səbəblərinin öyrənilməsi;

- Təhlükəsiz iş metodlarının və üsullarının, onların ardıcıllığının, eyni zamanda texniki və təşkilati tədbirlərin hazırlanacaq təlimata daxil edilməsinin müəyyənləşdirilməsi;

- Təsdiq edilmiş normalara əsasən iş və əmək rejiminin müəyyənləşdirilməsi;

- Təlimatlara daxil edilən əməyin mühafizəsi üzrə normativ aktların tələbləri, əsas etibarı ilə işçilərin konkret iş yeri və iş şəraitinə uyğun olaraq göstərilməlidir.

**Qeyd: Bütün növ təlimatlar keçirildikdən sonra həmin təlimatı alan işçilər arasında materialın necə mənimsənilməsi haqda interaktiv sorğu-sual (şifahi) keçirildikdən sonra başa çatmış hesab olunur və bundan sonra hər iki tərəfin imzaları ilə rəsmiləşdirilir.**

## Yeni tikilmiş istehsal sahələri, əsaslı və yenidənqurma işlərindən sonra istifadəyə verilmiş sahələrdə çalışan işçilər üçün müvəqqəti təlimatların hazırlanması

- Müvəqqəti təlimatlarda texnoloji proseslərin təhlükəsiz gedişi və avadanlıqların təhlükəsiz istismarı təmin olunmalıdır;
- İşçilər üçün müvəqqəti təlimatların işlənib hazırlanmasına da eyni qaydada, daimi təlimatların hazırlanmasında olduğu kimi tələblər qoyulur;
- Müvəqqəti təlimatlar əsasən həm peşələr üzrə, həm də iş növünə görə hazırlanaraq istehsal, sınaq, elmi və sair sahələrdə müvəqqəti olaraq tətbiq oluna bilər;
- İşçilər üçün hazırlanmış təlimatlar müəssisənin həmkarlar təşkilatları və "Əməyin Mühafizəsi Xidməti", lazım gələrsə digər maraqlı tərəflərlə də ilkin məsləhətləşmələr aparıldıqdan sonra müəssisənin rəhbərliyi tərəfindən təsdiq olunur.

## Təlimatların tərtibatının forması və əsas məzmunu

Ümumiyyətlə hazırlanmış bütün təlimatların üstündə onun adı (növü) və qısa olaraq hansı peşəyə aid olduğu qeyd olunmalıdır. Nümunəvi təlimatlar aşağıdakı kimi adlandırıla bilər. Məsələn: "Laboratoriyalarda sulfat, xlorid, nitrat və s. turşularla işləyən işçilərin əmək mühafizəsi və təhlükəsizlik texnikası üzrə təlimatı", "Torpaq işləri aparılarkən işçilərin əmək mühafizəsi və təhlükəsizlik texnikası üzrə təlimatı", "Pesdisidlərlə işləyən işçilərin əmək mühafizəsi və təhlükəsizlik texnikası üzrə təlimatı", "Texnoloji avadanlıqlar üzrə təmir çilingərinin əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə təlimatı" və s.

Təlimatdakı tələblər əsas etibarı ilə texnoloji proseslərə və icra olunan iş şəraitinə uyğun olaraq ardıcıl düzül-

məlidir.

İşçilər üçün tərtib olunmuş təlimatlarda əsasən aşağıdakı bölmələr olmalıdır:

1. Ümumi təhlükəsizlik texnikası tələbləri;
2. İş öncəsi təhlükəsizlik tələbləri;
3. İş vaxtı ərzində təhlükəsizlik tələbləri;
4. Qəza və hadisələr vəziyyətində təhlükəsizlik tələbləri;
5. İş vaxtı başa çatdıqda görülməli olan təhlükəsizlik tələbləri.

## Ümumi təhlükəsizlik texnikası tələbləri

Ümumi təhlükəsizlik texnikası tələbləri əsasən aşağıdakı kimi olmalıdır:

İşçilərin peşəsi üzrə işi sərbəst olaraq yerinə yetirmək üçün işə buraxılma şərtləri (yaşı,cinsi, sağlıq durumu, almış olduğu təlimatlar və s.);

- Daxili intizam qaydalarının sözsüz yerinə yetirilməsi, iş və istirahət rejiminə əməl edilməsi;
- İşçilərin həyatı üçün təhlükəli və zərərli olan istehsalat amillərinin xüsusiyyətləri;
- Dövlət, həmçinin sahələr üzrə standartlara və texniki şərtlərə uyğun olan işarələrin qoyulması və hər bir peşə üçün xüsusi geyim, ayaqqabı və lazım olan digər şəxsi mühafizə vasitələrinin verilmə normaları;
- Yanğın və partlayış təhlükəsizliyi tələblərinin təmin olunması;
- İşçilərin iş vaxtı xəsarət almaları və dəzgahların, alətlərin, avadanlıqların, nasazlığı barədə rəhbərliyin xəbərdar olunması qaydaları;
- İlk tibbi yardımın göstərilməsi (həkimə qədər);
- Hər bir işçi iş vaxtı şəxsi gigiyena qaydalarını bilməli və ona əməl etməlidir;

- Təlimatların tələblərinə əməl etməyən işçilərin iş məsuliyyəti.

## İş öncəsi təhlükəsizlik tələbləri

- İş yerinin və şəxsi mühafizə vasitələrinin işə hazırlanması;
- Təbii və süni işıqlanmanın, havalandırma sisteminin, torpaqlama konturlarının, avadanlıqların, dəzgahların, alətlərin, qoruyucu baryerlərin saz olmasının yoxlanılması qaydaları;
- İlkin və xam materialların tədarükünün yoxlanılması qaydaları;
- Fasiləsiz istehsalat prosesləri zamanı növbənin qəbul edilməsi qaydaları;
- İstehsalat sanitariyası tələbləri;
- İstehsalat mədəniyyəti tələbləri.

## İş vaxtı ərzində təhlükəsizlik tələbləri

- Texnoloji avadanlıqların, qurğuların, alətlərin istifadə qaydaları və işlərin təhlükəsiz görülməsi üsulları və metodları;
- Xam materiallarla, yarımfabrikatlarla, tədarüklə təhlükəsiz davranmaq tələbləri;
- Qaldırıcı maşın və mexanizmlərin, qurğuların və nəqliyyat vasitələrinin təhlükəsiz istismar edilməsi tələbləri;
- İş yerinin təmiz və təhlükəsiz saxlanılması üçün tələblər;
- Normativ texnoloji iş rejimindən yayınmalar və onun aradan qaldırılmasının üsulları;
- Qəza vəziyyətinin aradan qaldırılması zamanı görülən işlər;

- İşçilərin qoruyucu vasitələrdən istifadə qaydalarına olan tələblər.

## Qəza və hadisələr vəziyyətində təhlükəsizlik tələbləri

- Qəza ağır nəticələr verə biləcək hallarda işçilərin görəcəkləri tədbirlər və işlər;
- Qəflətən xəstələnmə, zəhərlənmə və travma halları baş verdikdə zərərçəkmişlərə ilk tibbi yardımın göstərilməsi (həkimə qədər);
- İmkan olduğu hallarda təhlükə yaradan amili oradan (sahədən) uzaqlaşdırmaq, alov mənbəyini təcrid etmək, elektrik verilişini dayandırmaq və s.

## İş vaxtı başa çatdıqda görülməli olan təhlükəsizlik tələbləri

- Maşın və mexanizmlərin, aparatların, avadanlıqların, qurğuların, alətlərin, tıhlükəsiz dayandırılması, təmizlənməsi, yağlanması və əgər fasiləsiz iş rejimi (prosesi) varsa növbənin təhvil verilməsi;
- İş yerlərinin təhvil verilməsi;
- İş yerinin istehsal və digər tullantılardan, həmçinin boş taralardan təmizlənməsi;İstehsalat sanitariyası və şəxsi gigiyena tələblərinə əməl olunması;
- İş vaxtı aşkar olunan nöqsanlar və çatışmazlıqlar barədə rəhbərliyə müvafiq məlumat vermə qaydaları;

**Qeyd: Əgər sadalanan işlərin təhlükəsiz görülməsi müəyyən edilmiş xüsusi normalar əsasında nəzərdə tutulursa, o halda həmin normalar bu təlimatda mütləq göstərilməlidir. Məsələn: Zaman ölçüsü, məsafə ölçüsü, temperatur ölçüsü, kütlə ölçüsü, həcm ölçüsü və sair.**

## Fors-major və ya ehtiyac yarandığı hallarda təlimatlara əlavə bölmələrin daxil edilməsi halları

Nümunəvi təlimatların tərtib olunmasında istifadə edilən əsasnamələr, müvafiq İcra Hakimiyyəti orqanının göstərişləri, baş idarə və müəssisələrin tövsiyələri, işçilərin əmək təhlükəsizliyi və sağlamlığını qorumaq üçün, müasir texnologiyalar mübadiləsi nəticəsində əldə edilmiş təlimatlar və bu təlimatların hazırlanmasında istifadə olunan normativ və hüquqi sənədlərin adları göstərilməlidir. Belə ki, 2019-cu ilin dekabr ayında Çinin Hubey əyalətinin Uhan şəhərində endemik olaraq başlamış COVİD-19 kod ad ilə adlandırılmış yoluxucu bir xəstəlik çox keçmədən 09 fevral 2020-ci il tarixdən epidemik və 11 mart 2020-ci il tarixdə isə öz yayılma ariyalına (miqyasına) görə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemik bir miqyas aldığı rəsmən elan edilməklə dünya ölkələrinə bu yoluxucu və amansız xəstəliklə mübarizə aparmaq üçün çağırış edildi. Azərbaycan Respublikası Dünyəvi bir dövlət olduğu üçün dünyada baş verən proseslərə və Azərbaycan vətəndaşının sağlamlığına yönəlmiş təhlükəyə laqeydlik göstərə bilməzdi. Pandemiyanın elan olunduğu ilk gündən etibarən təsirli tədbirlər görülməsi üçün start verildi və Nazirlər Kabinetinin müvafiq iclası keçirildi. Növbəti tədbir olaraq ölkə prezidentinin müvafiq göstərişi əsasında pandemiya ilə mübarizə aparmaq və mövcud imkanların səfərbər edilməsi məqsədi ilə Nazirlər Kabineti yanında funksional Operativ Qərərgah yaradıldı.

Operativ Qərargah qısa müddət ərzində öz işini günün tələbləri səviyyəsində bir neçə istiqamətdə təşkil etməyi bacardı. Belə ki, lazım olan dərman preparatları, tibbi ləvazimatlar və avadanlıqlar ölkəyə gətirildi, tibbi personal səfərbər olundu, qabaqcıl dünya ölkələri təcrübəsinə müraciət olundu və nəhayət ölkədə bəzi gündəlik istifadə olunan tibbi

ləvazimatların istehsalına başlanıldı. Məsələnin çətinliyi ondan ibarət idi ki, bu virus mənşəli yuxarı və aşağı tənəffüs yolları xəstəliyinin müalicəsi ilə bağlı dünya səhiyyə sistemində heç bir təcrübə yox idi. Xəstələr müxtəlif simptomlarla daxil olurdular və bu qeyri müəyyənlik xəstələrə yanaşma üsullarında ciddi çətinliklər yaradırdı. Ümumiyyətlə, bu virus mənşəli yoluxucu xəstəliyin etiologiyası çox az öyrənildiyi üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu xəstəliklə mübarizə aparmaq üçün heç bir "müalicə protokolu" ortaya çıxara bilmədi. Bu nöqteyi nəzərdən ÜST müvəqqəti olaraq xəstəliyin simptomlarını əsas götürərək "simptomatik müalicə üsulu" ilə işə başlamaq haqda rəsmi göstəriş verdi. Bu gün pandemiyanın elan olunmasından 9 ay keçməsinə baxmayaraq xəstəliyin müalicəsi ilə bağlı ÜST tərəfindən heç bir normativ hüquqi sənəd, konkret dərman preparatları və müvafiq "müalicə protokolu" müəyyən olunaraq ortaya qoyulmamışdır. Bütün bunlara baxmayaraq Azərbaycan həkimləri və tibb işçiləri bu çətin, lakin şərəfli bir missiyanı yüksək səviyyədə və layiqincə yerinə yetirirlər.

Bütün bunlarla yanaşı xəstəliklə mübarizənin ən effektiv üsullarından biri də sosial mübarizə üsuludur. Bu üsul hər şeydən öncə əhali arasında xəstəliyin yayılma mexanizmi haqda maarifləndirici tədbirlərdən ibarətdir. Xəstəlik Ümumdünya Səhiyyə Təşkilatının rəsmi açıqlamasına əsasən hava-damcı və kontakt yolu ilə yayılır. Bununla bağlı təşkilat bəzi direktiv tövsiyələr və təlimatlar yaymışdır. Əldə olunan bu tövsiyə və təlimatlara əsasən Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargah bəzi yerli xüsusiyyətləri və amilləri nəzərə alaraq, bir sıra tövsiyələr, təlimatlar, sosial özünütəcrid, məişətdə və iş yerlərində, istehsalat sahələrində, idarə-müəssisələrdə, təhsil müəssisələrində, həmçinin qapalı məkanlarda, ictimai nəqliyyat vasitələrində, metroda, ticarət və iaşə obyektlərində davranış qaydaları haqda xüsusi təlimatlar və davranış qaydaları ha-

zırlayaraq mövcud qanunlara əlavə və dəyişikliklər olunmasına nail olmuşdur.

Beləliklə, dövlət yaranmış fors-major vəziyyətində ölkə əhalisinin məişət və əmək (iş) şəraitində sağlamlığının qorunması üçün hüquqi və inzibati məsuliyyətlə tənzimlənən bir normativ baza yaratdı. İdarə və müəssisələrdə onların fəaliyyət növündən və mülkiyyət formasından asılı olmayaraq "Əmək Mühafizəsi Xidməti" işçiləri və digər aidiyyəti işçilərin iştirakı ilə Nazirlər Kabineti yanında fəaliyyət göstərən "Operativ Qərargah"ın açıqladığı tövsiyələrə istinad edərək hər bir idarə və müəssisənin ayrı-ayrı strukturlarında mövcud şərait və şərtlər nəzərə alınmaqla Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikasının əsas fəaliyyət istiqamətlərindən biri olan "İstehsalat Sanitariya və Gigiyenası" norma və qaydalarına olunmuş əlavələr və dəyişiklikləri nəzərə almaqla mövcud təlimatlarda müvafiq əlavələr və dəyişikliklər olunmalıdır. Yeni təlimatlar idarə və müəssisə rəhbərləri tərəfindən təsdiq olunmalı və Həmkarlar İttifaqları ilə razılaşdırılmalıdır. Xüsusi dərs saatı ayırmaqla kollektivin bütün üzvləri üçün növbədənkənar təlimat adı ilə yeni tərtib edilmiş təlimatlar keçirilməli və işçilərin "Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası" üzrə "iş yerində" aparılan təlimatlar jurnalında tərəflərin imzaları ilə rəsmiləşdirilməlidir.

"Covid-19"la mübarizə ilə bağlı daxili sanitar-epidemioloji və gigiyenik qaydaları bütün idarə və müəssisələrin girişlərində, lift meydançalarında, dəhlizlərdə və xollarda görünən yerlərdə asılmalıdır.

Aşağıda nümunə verilmişdir:

# Azərbaycan Milli Elmlər Akademiyası

______________________________________________

*müəssisə, təşkilatın rəhbəri*

**Təsdiq edirəm:**

______________________

*İmza*

## “Covid-19”la bağlı daxili sanitar-epidemioloji qaydalar

1. Koronavirus (“Covid-19”) infeksiyası ilə yoluxma riski yüksək olduğu üçün, işçilər inzibati binaya maskasız buraxılmasın;
2. İşçiləri termometriya etmək, hərarəti olanlar virus infeksiyasına şübhəli olduğundan onları işə buraxmamaq, müayinələrdən keçməsi üçün müvafiq tibb mərkəzlərinə göndərmək;
3. Yoluxmanın əllər vasitəsilə keçməsinin qarşısını almaq məqsədilə dezinfeksiyaedici məhlullardan (spirt və digər dezinfeksiyaedici məhlullar) istifadə etmək;
4. Yaxın məsafədən yoluxma ehtimalının yüksək olduğunu nəzərə alaraq liftdən 2 nəfərdən artıq şəxsin istifadəsini məhdudlaşdırmaq;
5. Əl ilə görüşməmək;
6. Sanitar qovşaqları daimi olaraq sabunla, digər dezinfeksiyaedici maddələrlə, birdəfəlik salfetlərlə, əlləri qurutmaq üçün isti hava ventilyatorları ilə təmin etmək;
7. Dəhlizlərdə və iş otaqlarında sosial məsafəni (1,5-2 metr) gözləmək;
8. Binanın vaxtaşırı dezinfeksiya olunmasını təmin etmək;
9. Növbəli iş rejiminə keçmək;
10. İş otaqlarını hər gün havalandırmaq;
11. Təmizlik işləri aparılarkən əlcəkdən istifadə etmək, təmizlik işləri bitdikdən sonra əlləri və əlcəkləri dezinfeksiyaedici məhlulları ilə (spirt, hidrogen peroksid) dezinfeksiya etmək.

**Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikasına dair elektrik avadanlıqlarına xidmət göstərən elektrik mantyoru üçün nümunəvi**

# TƏLİMAT

## I. Ümumi tələblər

1. Elektrik mantyoru işinə yaşı 18-dən az olmayan, tibbi müayinədən keçmiş müvafiq vəsiqəsi (diplomu) olan, elektrik işlərinin görülməsinə hüquq verən ixtisas qrupu olan şəxslər cəlb oluna bilər. Onlar müvafiq təlimat keçməli, işlərin təhlükəsiz aparılması üsullarına öyrədildikdən sonra onların bilikləri yoxlanılmalı və onlara müvafiq vəsiqə verilməlidir.

2. Elektrik mantyoru zərərçəkənə ilkin tibbi yardımın (həkimə qədər) göstərilməsinin qayda və üsullarını, gərginliyə düşən insanın azad olunması üsullarını bilməli, eləcə də yanğın təhlükəsizliyi qaydalarını bilməli və onlara əməl etməlidir.

3. İşə buraxılan işçilər təyin edilmiş xüsusi geyimdə işləməyə, fərdi mühafizə vasitələrindən və xilasedici vasitələrdən istifadə etməyə borcludurlar.

4. Hündürlükdə işlədikləri zaman xüsusi quraşdırma kəmərindən istifadə etməlidirlər.

5. Elektrik qurğularının texniki istismarı qaydalarının tələblərinə uyğun olaraq elektrik qurğularına xidmət edən işçilərə təhlükəsizlik texnikası şərtlərinə görə ixtisas qrupu verilməlidir.

6. İşçilər elektrik qurğularında iş görən zaman mütləq buraxılış naryadı (naryad-dopusu) olmalıdır.

## II. İşə başlamazdan əvvəl

1. Gərginliyi 1000 volta qədər olan qurğularda, ancaq gərginlik tam və ya qismən götürüldükdən sonra işləmək olar.

2. Təhlükəsizliyi təmin etmək üçün texniki və təşkilati tədbirlər yerinə yetirilməlidir.

3. İş sahəsində elektrik qurğusunda cərəyan açılmalı, cərəyanın öz-özünə və təsadüfən qoşulmasına yol verməmək üçün lazımi tədbirlər görülməli, eləcə də müvafiq plakatlar asılmalıdır:

**Qoşmaq olmaz – Adamlar işləyir!**

4. Gəzdirilə bilən yerlə birləşdirmə vasitəsi qoyulmalıdır.

5. Çəpərləmə işləri aparılmalıdır.

## III. İş vaxtı

1. İzolyasiyasının zədələnməsi nəticəsində gərginlik altında ola bilən elektrik ötürücülü mexanizmlərin metal hissələri, elektrik qaynaq transformatorları (aparatları), mütləq yerlə əlaqələndirilməlidir (torpaqlanmalıdır).

2. Elektrik avadanlığının qoşulması və açılması üçün onun özünün kommutasiya aparatı olmalıdır. Bir neçə elektrik işlədicisinin bir aparat ilə qoşulub-açılması qadağandır.

3. Gərginliyi 1000 volta qədər olan elektrik qurğularında, gərginliyin olmasını yoxlamaq üçün voltmetrdən və ya gərginlik göstəricisindən istifadə olunmalıdır.

4. Mantyor alətinin əl tutanı dayaqla təmin olunmalı və özü də mütləq dielektrik (materialdan) olmalıdır.

5. Cərəyan verilişi dayandırılan zaman elektrik avadanlıqlarının öz-özünə qoşulmasının qarşısını almaq üçün

rubilniki (açarın dəstəyi) mütləq çıxarmaq lazımdır.

6. Elektrik naqillərinin uclarını heç vaxt açıq saxlamaq olmaz.

7. Əllə işlədilən elektrik alətlərində işləyən zaman rezin (dielektrik) əlcək, rezin xalça istifadə etmək lazımdır.

8. Elektrik qurğularında yanğın baş verdiyi zaman dərhal cərəyan kəsilməli və bundan sonra yanğın söndürülməlidir.

9. Elektrik işıqlandırıcı lampalarının burulub salınması və çıxarılmasına, yalnız gərginlik götürüldükdən sonra icazə verilir.

## IV. İş qurtardıqdan sonra

1. Elektrik naqillərinin açıq qalan uclarının öz yerlərinə bərkidilməsi, izolyasiya işlərini tamamlamaq və görülmüş bütün işləri yenidən gözdən keçirmək.

2. İş yerini təmizləmək, alətləri yığışdırıb onları öz yerinə qoymaq lazımdır.

**Dülgər üçün əməyin mühafizəsi üzrə**

# TƏLİMAT

## I. Ümumi tələblər

Dülgər işlərinə yaşı 18-dən az olmayan, tibbi müayinədən keçmiş, xüsusi proqram üzrə təhsil almış və uyğun vəsiqəsi olan, müvafiq təlimat keçmiş və bilikləri yoxlanılmış şəxslər qəbul edilir.

Dülgər elektrik təhlükəsizliyi üzrə II qrupa malik olmalıdır.

Dənizdə işləmək üçün işə qəbul olunmuş dülgər üzməyi bacarmağı haqda arayış təqdim etməlidir. Dülgər zərər çəkmişlərə ilk tibbi yardımın (həkimə qədər) göstərilməsi üsullarını, eləcə də yanğın təhlükəsizliyi qaydalarını bilməli və onlara ciddi əməl etməlidir. İşə buraxılmış işçilər təyin olunmuş xüsusi geyimdə işləməyə, fərdi mühafizə vasitələrindən və xilasedici vasitələrdən istifadə etməyə borcludurlar.

## II. İşə başlamazdan əvvəl

1. Dəzgahda işləyən zaman dəzgahı diqqətlə nəzərdən keçirmək, qoruyucu çəpərlərin sazlığına əmin olmaq, dəzgahı boşuna işlədərək yoxlamaq və izləmək lazımdır ki, mişarın valının stolun üzərində yerləşən hissəsi qapaqla örtülmüş olsun.

2. Alətin vəziyyətini yoxlamalıdır. Əl alətlərinin (balta, çəkic, rəndə, mişar və.s) taxta dəstəkləri hamar və çatsız olmalıdır. Çəkic və baltanın dəstəyi kəsikdə oval şəkildə olmalıdır.

3. Kəsici alətlər iti olmalıdır. Mişarın dişləri çarpazlanaraq itilənməlidir.

4. Qoruyucu eynəyi taxdıqdan sonra dəzgahı işə salmaq lazımdır.

## III. İş vaxtı

1. Dəzgahda işə başlamazdan əvvəl bütün qoruyucu vasitələrin olmasına əmin olmaq lazımdır.

2. Kəsici disk lazımi sürət aldıqdan sonra materialı kəsməyə başlamaq lazımdır.

3. Taxta-ağac materiallarını kəsməyə başlamazdan öncə onda mismar, şrup, skob, məftil və digər yad metal elementlərin olmadığını yoxlamaq lazımdır.

4. Kəsici alətin qırılmaması və zərbəyə düşməməsi üçün işləniləcək taxta-ağac materialı tədricən intensiv olaraq mişara tərəf yönəldilməlidir.

5. İşçi hündürlükdə işləyirsə, o, mütləq qoruyucu kəmər taxmalı və binanın etibarlı hissəsinə özünü bağlamalıdır.

6. Alətləri yuxarıdan tullamaq olmaz, onları ancaq təhlükəsiz üsullarla aşağı endirmək lazımdır. Nərdivan və pilləkənlərdən çox ehtiyatla istifadə etmək lazımdır.

7. Örtüklərin olmadığı halda örtük üzərində hərəkət etmək üçün təqribən 70-80 sm enində keçid döşəməsi düzəltmək lazımdır.

8. Elektrik xətlərinin yaxınlığında işləyən zaman avadanlığın hərəkət edən hissələrinin çəpərlənməsi tələb olunmalı və ya avadanlıq dayandırılaraq cərəyan söndürülməlidir.

## IV. İş qurtardıqdan sonra

1. Dəzgahda iş qurtardıqdan sonra dəzgahı dayandırmaq, elektrik qida açarını söndürmək lazımdır. Sonra dəzgahı taxta ağac yonqarlarından təmizləmək, ətrafda olan material tullantılarını toplayıb kənara atmaq lazımdır.

2. İş aparılmış sahələrdən material qalıqlarını bir yerə toplayıb kənara daşımaq, iş alətlərini toplayıb sxlanılması üçün anbara təhvil vermək lazımdır.

## Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikasına dair bütün təlimatların, norma və qaydaların yoxlanılması və yenidən baxılması qaydaları

Təhlükə riski yüksək olan sahələrdə işləyən işçilər üçün tərtib edilmiş bütün təlimatlara ən azı 3 ildə bir dəfədən gec olmayaraq yenidən baxılmalıdır.

Aşağıdakı hallarda bütün normativ sənədlərə, qaydalara və təlimatlara yenidən baxılmalıdır:

1. Azərbaycan Respublikasının Dövlət Orqanları tərəfindən təsdiq edilmiş normativ sənədlərə, dövlət standartlarına və qanunvericilik aktlarına yenidən baxılarkən;
2. Direktiv orqanların göstərişi əsasında;
3. Yeni texnikanın və texnologiyanın tətbiqi zamanı;
4. İstehsalat travmalarının, qəzaların, baş vermiş bədbəxt hadisələrin təhqiq edilməsinin nəticələrinə əsasən.

- Təlimatların vaxtlı-vaxtında yoxlanılması, onlara yenidən baxılmasına, həm təşkilatların rəhbərləri, həm də təlimatların hazırlanması ilə məşğul olan bölmələr cavabdehdirlər.
- Əgər bu təlimatların qüvvədə olduğu müddətdə həmin istehsalat sahələrində işləyən işçilərin iş şəraitində hər hansı dəyişikliklər baş verməzsə, bu halda həmin təlimatın müddətinin uzadılması barədə müvafiq mərkəzi orqanlar tərəfindən xüsusi əmr verilir və həmin əmr təlimatın üzərində qeyd olunur.
- Konkret olaraq ayrı-ayrı idarə və müəssisələrdə göstərilən müddətdə iş şəraiti dəyişməz qaldığı halda müəssisənin əmri ilə işçilər üçün tərtib olunmuş təlimatın müddəti uzadılır və bu barədə təlimatın üz vərəqində "Yenidən baxılmışdır" sözləri olan möhür vurulur, tarixi və məsul şəxsin imzası yazılır.
- Texnoloji prosesin, iş şəraitinin dəyişilməsi, həmçinin texnikanın, texnoloji avadanlıqların, aparatların və alət-

lərin istehsalata tətbiqi zamanı və digər hallarda işçilər üçün tərtib olunmuş təlimatlara yenidən baxılmalıdır.

- Yenidən baxılmış təlimatların təsdiq edilməsi və razılaşdırılması barədə imzaların qeydiyyatı bu metodiki təlimatda nəzərdə tutulmuş qaydada həyata keçirilir. İdarə və müəssisə rəhbərləri bütün işçiləri və maraqlı olan bölmə rəhbərlərini müvafiq təlimatlarla təmin etməlidir.
- Müəssisənin bölmələrinə ayrı-ayrı peşələr üzrə təlimatlar əməyin mühafizəsi xidməti işçiləri tərəfindən xüsusi jurnalda qeydiyyat aparıldıqdan sonra təqdim edilir.
- İdarə və müəssisə işçiləri üçün tərtib edilmiş və hazırda qüvvədə olan bütün təlimatlar və rəhbərlik tərəfindən təsdiq edilmiş əlavələr kompleks şəkildə əməyin mühafizəsi bölməsinin rəhbərliyində saxlanılmalıdır.
- Hər bir sahə üzrə peşə və işlər üçün tərtib olunmuş təlimatlar bilavasitə bu sahənin rəhbərlərində, şöbə müdirlərində, laboratoriya müdirlərində, usta və iş icraçılarında saxlanılmalıdır.
- Sahə işçilərinə ilkin (iş yerində) təlimat keçirilərkən peşələrə aid olan təlimatlarla tanış olmaq üçün işçilərin şəxsi təhlükəsizlik vərəqinə imza etdirməklə onlara təlimat verilir və yaxud həmin təlimatlar iş yerlərində, görünən yerlərdə divardan asılır, həmçinin işçilərin istənilən vaxt tanış ola bilmələri üçün münasib olan yerlərdə saxlanılmalıdır.
- Təlimatların saxlanıldığı yer elə seçilməlidir ki, işçilər oraya istənilən vaxt maneəsiz daxil ola bilsinlər.

Yuxarıda göstərilən Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası Norma və Qaydalarına işçilər tərəfindən necə riayət olunmasına və yaradılmış iş şəraitinə müntəzəm olaraq sex, qurğu rəisləri, laboratoriya müdirləri, baş mütəxəssislər, birlik və idarə rəisləri və Həmkarlar İttifaqları Komitələrinin əmək mühafizəsi üzrə “Texniki Müfəttiş”lərin də iştirakı təmin olunmaqla nəzarət olunur.

# Əmək Mühafizəsi Norma və Qaydalarına əməl olunmasına nəzarət və işəgötürənlərin məsuliyyəti

**Əmək mühafizəsi üzrə qaydalara və müvafiq normativ hüquqi aktlara əməl edilməsinə dövlət nəzarəti**

1. Əmək mühafizəsi normalarının, qaydalarının və normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsinə və əmək qanunvericiliyinə əməl olunmasına Dövlət Nəzarətini həyata keçirən orqan nəzarət edir. Bu vəzifə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında "Dövlət Əmək Müfəttişliyi"nə tapşırılmışdır.

2. Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın və onun vəzifəli şəxslərinin öz səlahiyyətləri daxilində qəbul etdikləri qərarlar hökmən icra olunmalıdır. Bu qərarlardan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

**Əmək mühafizəsi üzrə qanunvericiliyə əməl edilməsinə ictimai nəzarət.**

1. Əmək mühafizəsi üzrə qanunvericiliyə əməl olunmasına ictimai nəzarəti əmək kollektivlərinin müvəkkil etdiyi şəxslər və həmkarlar ittifaqları təşkilatlarının nümayəndələri həyata keçirir.

2. Əmək mühafizəsi üzrə əmək kollektivinin müvəkkil etdiyi şəxsin iş yerlərində əməyin mühafizəsi vəziyyətini maneəsiz yoxlamaq, aşkara çıxarılmış nöqsanların aradan qaldırılmasını vəzifəli şəxslərdən tələb etmək, həmçinin təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi barədə işəgötürən qarşısında məsələ qaldırmaq hüququ vardır.

3. Əməyin mühafizəsi üzrə müvəkkilin öz vəzifələrini yerinə yetirmək üçün işəgötürən ona hər həftə orta əmək haqqı ödəməklə iş vaxtında azı iki saat vaxt ayırır.

**Əmək Mühafizəsi qaydalarına əməl edilməsinə nəzarət sahəsində həmkarlar ittifaqlarının hüquqları.**

1. Həmkarlar ittifaqları "Həmkarlar İttifaqları Haq-

qında Qanun"a əsasən nəzərdə tutulmuş hüquqları çərçivəsində əməyin mühafizəsi qaydalarına və müvafiq normativ hüquqi aktlara işəgötürən tərəfindən əməl edilməsinə nəzarətin həyata keçirilməsində iştirak edirlər.

2. Həmkarlar ittifaqları əməyin mühafizəsi üzrə normativ aktların hazırlanmasında və müəyyən olunmuş qaydada razılaşdırılmasında iştirak edirlər, onlarla razılaşdırılmamış aktların qüvvəyə minməsinə qarşı müvafiq dövlət orqanları vasitəsi ilə etiraz etmək hüquqları vardır.

3. Həmkarlar ittifaqlarının nümayəndələri iş və istehsalatla bağlı bütün məsələlərin həllində, həmçinin istehsalatda baş vermiş qəzaların araşdırılmasında yaxından iştirak edir.

4. Həmkarlar ittifaqları insan sağlamlığına zərər verən texnologiyaların, maşınların və materialların tətbiqini, həmçinin əmək mühafizəsi qanunlarına zidd olan işlərin işəgötürən tərəfindən dayandırılması barədə əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan qarşısında məsələ qaldıra bilər.

5. Həmkarlar ittifaqları bu məsələ ilə, həmçinin digər normativ hüquqi aktlarla müəyyən edilmiş əməyin mühafizəsi norma və qaydalarına nəzarəti onların nəzdində fəaliyyət göstərən müvafiq "Əmək müfəttişliyi" vasitəsi ilə həyata keçirir. Bu müfəttişliyin hüquqları və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

İşəgötürənlər Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası Norma və Qaydalarının pozulması nəticəsində işçilərin səhhətinə vurulan (dəymiş) zərərə görə və ya onun həlak olması ilə əlaqədar maddi məsuliyyət daşıyır.

İstehsalat qəzaları və yaxud peşə xəstəlikləri nəticəsində zərər çəkən şəxslərə dəymiş zərərə görə verilən təzminatların məbləğləri qanunvericiliklə müəyyən edilmiş qaydada indeksləşdirilməklə ödənilməlidir.

Bütün bu məsələlər barədə Azərbaycan Respublikası

Əmək Məcəlləsinin 36-cı fəslinin 235, 236, 237, 238 və 239-cu maddələrində ətraflı məlumat verilmiş və 239-cu maddəsinin üçüncü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında 09 yanvar 2003-cü il tarixli 3 saylı müvafiq Qərarı ilə təsbit olunmuşdur.

## Dərman qutuları və ondan istifadə olunması qaydaları

Hər bir obyekt, sahə, sex, laboratoriya, qurğu və bölmələrdə dərman qutuları (aptek qutusu) olmalı və bu qutularda müəyyən qruplara aid dərman preparatları saxlanılmalıdır. Bədbəxt hadisələr, istehsalat travmaları, zəhərlənmələr, texniki yanıqlar, həşərat sancmaları və digər gözlənilməz hadisələr baş verdiyi zaman zərərçəkənlərə ilkin (həkimə qədər) tibbi yardımın göstərilməsi ən əhəmiyyətli faktorlardan biridir.

Bu çantaların içərisində olan dərman preparatlarından istifadə qaydaları yazılaraq onun içərisində saxlanılmalıdır:

Tibbi yardım çantasında yardım üçün nəzərdə tutulan sarğı materialları və dərman preparatlarının nümunəvi Siyahısı:

1. Fərdi sarğı paketi – 5 ədəd;
2. Eni 5 sm olan steril bint – 3 ədəd;
3. Eni 10 sm olan steril bint – 3 ədəd;
4. Eni 14x16 sm olan steril salfet – 20 ədəd;
5. Hiqroskopik pambıq – 200 tampon;
6. 10%-li yod məhlulu – 30 qr;
7. 5%-li yod məhlulu – 30 qr;
8. Qan saxlayıcı jqut (rezin) – 1 ədəd;
9. Süni nəfəs üçün vasitə - 1 ədəd;
10. 3%-li hidrogen-peroksid məhlulu – 100 mq;
11. Borat turşusu (1 stəkan su + 1 çay qaşığı) – 80 qr;

12. Yanıq əleyhinə məlhəm – 200 qr;
13. Naşatır spirti – 30 qr;
14. Qırıqların fiksasiyası üçün şinlər – 5 ədəd;
15. Dil tutub saxlayan – 2 ədəd;
16. Ağız genişləndirən – 1 ədəd;
17. Tibbi spirt – 1 ədəd (100 ml);
18. Tibbi maska – 5 ədəd;
19. Tibbi əlcək – 5 cüt;
20. Dezinfektant məhlul – 500 ml və s. vacib olan tibbi ləvazimatlar.

## Kollektiv müqavilələrdə əməyin mühafizəsi üzrə qaydaların və normaların daxil edilməsi və orada nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsi

Kollektiv müqavilə iki maraqlı tərəfin – bir tərəfdən işəgötürənin, digər tərəfdən isə həmkarlar ittifaqları təşkilatı və ya bu olmadığı halda əmək kollektividir.

Kollektiv müqavilələrə bütün başqa məsələlərlə yanaşı əməyin mühafizəsi və əmək təhlükəsizliyi ilə bağlı məsələlər üzrə tərəflərin qarşılıqlı hüquq və vəzifələri daxil edilir.

- İş və istirahət vaxtı əmək və digər məzuniyyətlərin normativ sənədlərə uyğun olaraq verilməsi şərtləri;
- İşçilərə və onların ailə üzvlərinə mədəni-məişət, sosial təminat və güzəştlərin təmin edilməsi;
- Qadınların və həddi-buluğa çatmamış işçilərin əmək və sosial şəraitlərinin yaxşılaşdırılması;
- İşçilərin əmək mühafizəsinin günün tələbləri səviyyəsinə çatdırılması üçün müasir texnologiyalardan istifadə olunmasını təmin etmək üçün konkret tədbirlər;
- İşçilərin tibbi və sosial sığortasının təmin edilməsi şərtləri;
- İşçilərin ekoloji təhlükəsizliyinin və sağlamlığının

qorunması üçün konkret tədbirlər planı;

- Fors-major hallarında (müharibələr, inqilablar, epidemiya və pandemiya) işçilərlə davranış qaydaları, həmçinin onların əmək hüquqları, məcburi işdən qalma səbəblərinə uyğun olaraq əmək haqlarının ödənilməsi şərtləri.

Kollektiv müqavilənin şərtlərinə uyğun olaraq nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə görə tərəflər inzibati və cinayət məsuliyyəti daşıyırlar.

Mülkiyyət formasından və təsərrüfat fəaliyyətindən asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində yerləşən bütün idarə və müəssisə rəhbərləri Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəyyən etdiyi müddətdə və formada əməyin mühafizəsi, əmək şəraiti və onların qüvvədə olan normalara uyğunlaşdırılması üçün görülən tədbirlərin nəticələri haqqında statistik hesabatlar verməyə borcludurlar.

# III FƏSİL

## ƏMƏYİN MÜHAFİZƏSİNƏ DAİR NORMATİV – HÜQUQİ AKTLAR

### Azərbaycan Respublikasının Konstitusiyası (Çıxarış)

**Maddə 35. Əmək hüququ**

I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

II. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

III. Heç kəs zorla işlədilə bilməz.

IV. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

V. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

VI. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

VII. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

VIII. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.

**Maddə 37. İstirahət hüququ**

I. Hər kəsin istirahət hüququ vardır. II. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.

# Azərbaycan Respublikasının Əmək Məcəlləsi (Çıxarış)

## IX BÖLMƏ ƏMƏYİN MÜHAFİZƏSİ

### Otuz üçüncü fəsil
### Əməyin mühafizəsi normaları, qaydaları və prinsipləri

**Maddə 207.** Əməyin mühafizəsi normalarını və qaydalarını müəyyən edən qanunvericilik

1. İşçilərin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ vardır.

2. Əməyin mühafizəsi normaları və qaydaları bu Məcəllə ilə, səlahiyyətləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanlarının qəbul etdiyi normativ hüquqi aktlarla, habelə Azərbaycan Respublikasının qoşulduğu və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir.

3. Əməyin mühafizəsi üzrə normativ hüquqi aktların tələbləri, əməyin mühafizəsi normaları, standartları, qaydaları əmək münasibətlərinin tərəfləri və digər fiziki və hüquqi şəxslər üçün məcburidir.

**Maddə 208.** Əməyin mühafizəsi normaları və qaydaları tətbiq edilən iş yerləri.

Bu Məcəllə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş əməyin mühafizəsi normaları və qaydaları hökmən:

işçilərin;

istehsalat təcrübəsi keçən tələbə və şagirdlərin;

müəssisələrdə işə cəlb edilən hərbi qulluqçuların;

məhkəmə hökmlərinin icrası yerlərində işləyən məhkumların;

təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına, habelə hərbi və fövqəladə vəziyyət rejimində işlərin görülməsinə cəlb edilən şəxslərin çalışdıqları bütün iş yerlərində tətbiq edilməlidir.

**Maddə 209.** Əməyin mühafizəsinin əsas prinsipləri

Dövlət hakimiyyəti orqanları, mülkiyyətçilər, işəgötürənlər və işçilər tərəfindən əməyin mühafizəsinin təmin olunması əsasən aşağıdakı prinsiplərlə həyata keçirilir:

dövlət hakimiyyəti orqanlarının, mülkiyyətçilərin, işəgötürənlərin və işçilərin əmək şəraitinin və əməyin mühafizəsinin yaxşılaşdırılmasına, istehsal qəzalarının, xəsarətlərinin, zədələrinin və peşə xəstəliklərinin qarşısının alınmasına yönəldilmiş fəaliyyət birliyi;

işçinin həyatının və sağlamlığının müəssisənin istehsal fəaliyyətinin nəticələrindən üstün tutulması;

əməyin mühafizəsi sahəsində fəaliyyətin iqtisadi və sosial siyasətin digər istiqamətləri ilə, habelə ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətlə əlaqələndirilməsi;

mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr üçün əməyin mühafizəsi sahəsində vahid tələblərin müəyyən edilməsi;

əməyin mühafizəsi tələblərinin bütün müəssisələrdə yerinə yetirilməsinə müstəqil və səmərəli nəzarətin həyata keçirilməsi;

əməyin mühafizəsi sahəsində ümumbəşəri elmi-texniki tərəqqidən, qabaqcıl təcrübədən geniş istifadə edən, habelə təhlükəsiz texnikasının və texnologiyanın səmərəli mühafizə vasitələrini hazırlayan və tətbiq edən işəgötürənlərin müvafiq qaydada və vəsaitlərlə həvəsləndirilməsi;

müəssisələrdə əməyin yüksək mühafizəsi şəraiti yaradılmasına yönəldilmiş vergi siyasətinin aparılması;

əməyin mühafizəsinin maliyyələşdirilməsində dövlətin iştirakı;

əməyin mühafizəsi normalarının müntəzəm olaraq

təkmilləşdirilməsi;

işçilərin xüsusi geyim və ayaqqabı, digər fərdi mühafizə vasitələri ilə, müalicə-profilaktik yeməklə və digər vasitələrlə pulsuz təmin edilməsi;

təhsil müəssisələrində əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması;

istehsalatda baş vermiş hər bir bədbəxt hadisənin hökmən təhqiq edilməsi, uçota alınması, təhlil edilməsi və bunun əsasında istehsalat xəsarətlərinin, zədələrinin və peşə xəstəliklərinin vəziyyəti barədə işçilərə dürüst məlumatların verilməsi;

istehsalatda bədbəxt hadisələrdən zərər çəkmiş və ya peşə xəstəliklərinə tutulmuş işçilərin mənafelərinin sosial, maddi və mənəvi müdafiəsi;

həmkarlar ittifaqlarının, müəssisələrin və ayrı-ayrı fiziki, hüquqi şəxslərin əməyin mühafizəsini təmin etməyə yönəldilmiş fəaliyyətinə hərtərəfli yardım olunması; əməyin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq münasibətlərinin genişləndirilməsi.

**Maddə 210.** Əməyin mühafizəsi məsələlərinin həllində ictimai birliklərin iştirakı

İşəgötürənlər, işçilər, habelə ayrı-ayrı fiziki şəxslər əməyin mühafizəsi problemlərini həll etmək üçün birləşərək ictimai birliklər haqqında qanunvericiliyə müvafiq olaraq fəaliyyət göstərən ictimai birliklər yarada bilərlər. Dövlət hakimiyyəti orqanları, habelə işəgötürənlər bu ictimai birliklərə hərtərəfli kömək göstərməli və əməyin mühafizəsinin təmin edilməsi barədə normativ hüquqi aktları qəbul edərkən onların təkliflərini və tövsiyələrini nəzərə almalıdır.

## Otuz dördüncü fəsil
## Əməyin mühafizəsinin hüquqi, təşkilati-texniki və maliyyə təminatı

**Maddə 211.** Əməyin mühafizəsinin normativ hüquqi tənzimlənməsi

1. Əməyin mühafizəsi qaydalarının hər yerdə eyni cür yerinə yetirilməsini, bu Məcəllə ilə müəyyən edilmiş hallarda əmək şəraitinin xüsusiyyətlərinin, əlavə məzuniyyət hüququnun və digər normaların tətbiqini təmin etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı:

ağır əmək şəraitli, insan orqanizmi üçün təhlükəli və zərərli olan istehsalatların, iş yerlərinin;

işlərin yerin altında görülən yeraltı istehsalatların, şaxtaların, tunellərin, qurğuların və digər iş yerlərinin;

işçinin yüksək həssaslılığı, zehni və fiziki gərginliyi tələb olunan avadanlıqların, qurğuların və iş yerlərinin;

qadınların, yaşı 18-dən az olan işçilərin əməyindən istifadə olunması qadağan edilən istehsalatların və iş yerlərinin;

əmtəələrin istehsalı, işlərin (xidmətlərin) görülməsi zamanı istifadəsi qadağan olunan kimyəvi, radioaktiv və digər yüksək təhlükə mənbəli maddələrin;

işçinin peşə xəstəliyinə tutulmağı ehtimalı yüksək olan iş yerlərinin;

yoluxucu xəstəliklərin baş verməsinin yüksək riski ilə əlaqədar və profilaktik peyvəndlərin məcburi aparılması tələb olunan işlərin;

işçilərin istehsalatda bədbəxt hadisələrdən icbari şəxsi sığorta edilməli olan həyat üçün yüksək təhlükə mənbəli istehsal və qeyriistehsal sahələrinin respublika üzrə vahid, əhatəli siyahılarını və onların tətbiqi qaydalarını təsdiq edir.

2. Bu maddənin birinci hissəsində sadalanan siyahılar

kütləvi tirajlarla nəşr etdirilməli və iqtisadiyyatın bütün sahələri üzrə işəgötürənlərin, həmkarlar ittifaqları təşkilatlarının istifadəsinə verilməlidir. İşəgötürənlər bütün imkanları və məqbul üsulları ilə işçilərin həmin siyahılarla istənilən vaxt tanış olması və istifadəsi üçün zəruri tədbirlər görməyə borcludurlar.

**Maddə 212.** Əməyin mühafizəsinin dövlət tərəfindən tənzimlənməsi

1. Əməyin mühafizəsinə dair vahid dövlət siyasəti müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

2. Müvafiq icra hakimiyyəti orqanı:

əməyin mühafizəsi sahəsində vahid dövlət siyasətini hazırlayır və həyata keçirir, əmək şəraitini yaxşılaşdırmaq və əməyin mühafizəsini təmin etmək sahəsində müvafiq icra hakimiyyəti orqanlarının, işəgötürənlərin vəzifələrini müəyyənləşdirir, sağlam və təhlükəsiz əmək şəraitini təmin etmək sahəsində onların fəaliyyətini əlaqələndirir və ona nəzarət edir;

həmkarlar ittifaqları və işəgötürənlərin nümayəndəli orqanları ilə məsləhətləşməklə əmək şəraitinin və əməyin mühafizəsinin yaxşılaşdırılmasına dair proqramları təsdiq edir, onların yerinə yetirilməsini təşkil və təmin edir;

əməyin mühafizəsi vasitələrinin istehsalı barəsində müəssisələrə dövlət sifarişini müəyyən edir, bu vasitələrin hazırlanması və istehsalı üzrə müəssisələr yaradılmasına dair qərarlar qəbul edir;

əməyin mühafizəsi sahəsində elmi tədqiqat işini təşkil edir və əlaqələndirir, müəyyən edilmiş qaydada təsdiq olunmuş milli proqramları həyata keçirir, bu işlərin maliyyələşdirilməsi qaydasını və şərtlərini müəyyən edir;

əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanmasını təşkil edir;

əməyin mühafizəsi üzrə respublikada vahid dövlət statistika hesabatının aparılması qaydasını müəyyən edir.

**Maddə 213.** Əməyin mühafizəsi sahəsində icra hakimiyyəti orqanlarının səlahiyyətləri

Müvafiq icra hakimiyyəti orqanları, habelə dövlət konsernləri, şirkətləri, assosiasiyaları və müəssisələrin birlikləri öz səlahiyyətləri daxilində:

həmkarlar ittifaqları təşkilatlarının, işəgötürənlərin nümayəndəli orqanlarının iştirakı ilə əməyin mühafizəsi sahəsində dövlət siyasətinin müvafiq iş yerlərində həyata keçirilməsinin əsas istiqamətlərini müəyyən edir və bu barədə nəzərdə tutulan tədbirləri həyata keçirirlər;

əməyin mühafizəsi üzrə sahə standartlarını, normalarını, qaydalarını, normativ hüquqi aktlarını hazırlayır və müəyyən olunmuş qaydada təsdiq edilməsini təmin edirlər;

müəssisələrin rəhbər işçilərinin, mütəxəssislərinin əməyin mühafizəsi normaları və qaydaları üzrə təlimini keçirir və onların biliklərini yoxlayırlar;

tabeliklərində olan müəssisələrdə əməyin mühafizəsi qayda və normalarının yerinə yetirilməsinə nəzarəti həyata keçirirlər;

zəruri hallarda müvafiq sahə üzrə əmək təhlükəsizliyini təmin edən cihazların, qurğuların və digər qoruyucu vasitələrin hazırlanmasını təşkil edirlər.

**Maddə 214.** Əməyin mühafizəsi sahəsində bələdiyyə orqanlarının səlahiyyətləri

Bələdiyyə orqanları:

əməyin mühafizəsi sahəsində dövlət siyasətinin tabeliklərində olan ərazidə həyata keçirilməsini təmin edirlər;

əməyin mühafizəsi üzrə sahələrarası yerli əhəmiyyətli proqramlar hazırlayır və onların yerinə yetirilməsini təmin edirlər;

regional problemlərin həlli və əməyin mühafizəsinin təmin edilməsində mülkiyyətçilərə yardım göstərilməsi üçün onların pay iştirakı və digər vəsaiti hesabına əməyin mühafizəsi üçün qanunvericiliklə müəyyən edilmiş qayda-

da məqsədli fondlar yaradır və bu fondların vəsaitinin təyinatı üzrə xərclənməsini təmin edirlar.

**Maddə 215.** Əməyin mühafizəsi sahəsində mülkiyyətçinin və işəgötürənlərin vəzifələri

Müəssisənin mülkiyyətçisi və işəgötürəni işçilərin iş yerlərində əməyin mühafizəsi normalarının və qaydalarının yerinə yetirilməsinə bilavasitə cavabdehdirlər və aşağıdakı tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər:

əməyin mühafizəsi üzrə standartların, normaların və qaydaların bütün tələblərinə əməl edilməsini;

binaların, qurğuların, texnoloji proseslərin və avadanlığın təhlükəsizliyinə riayət edilməsini;

bilavasitə iş yerlərinin sağlam sanitariya-gigiyena şəraitinin və əməyin mühafizəsinin qüvvədə olan normativlərə uyğunlaşdırılmasını;

işçilərə lazımi sanitariya-məişət və müalicə-profilaktik xidmətinin təşkilini;

əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə pulsuz müalicəvi profilaktiki yeməklər, süd və ona bərabər tutulan digər məhsulların verilməsini;

normal əmək və istirahət rejiminə riayət edilməsini;

işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin verilməsini;

işçilərin əməyin mühafizəsi normaları və qaydaları üzrə təhsilinin, təlimatlandırılmasının, biliklərinin yoxlanılmasının təşkil edilməsini və əməyin mühafizəsinin təbliğini;

kollektiv müqaviləyə əməyin mühafizəsi üzrə qaydaları daxil etməyi və onlarda nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsini;

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi müddətdə və formada əməyin mühafizəsi, əmək şəraiti və onların qüvvədə olan normalara uyğunlaşdırılması üçün

görülən tədbirlərin nəticələri haqqında statistik hesabatın verilməsini.

**Maddə 216.** Əməyin mühafizəsi üzrə işçilərin vəzifələri

Əməyin mühafizəsi üzrə işçilərin vəzifələrinə aşağıdakılar daxildir:

əməyin mühafizəsi üzrə müvafiq normativ aktlarda nəzərdə tutulmuş əməyin təhlükəsizliyi, gigiyenası və yanğına qarşı mühafizə tələblərini öyrənmək, mənimsəmək və onlara əməl etmək;

əmək funksiyasını özünü və başqa işçiləri təhlükəyə məruz qoymayacağı təqdirdə icra etmək, şəxsi buraxılışı olmadan qurğularda, dəzgahlarda, partlayış və həyat üçün təhlükəli digər mənbələrdə iş görməmək;

verilmiş xüsusi geyimdə və ayaqqabıda işləmək, texnoloji prosesdə, əməyin mühafizəsi üzrə normalarda, qaydalarda və təlimatlarda nəzərdə tutulmuş fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etmək;

əməyin mühafizəsi qaydalarının bütün pozuntuları haqqında, həmçinin baş vermiş qəzalar və bədbəxt hadisələr haqqında işəgötürənin nümayəndələrinə dərhal məlumat vermək;

müntəzəm olaraq əməyin mühafizəsi normaları və qaydaları barədə biliklərini artırmaq;

əməyin mühafizəsi məsələləri ilə əlaqədar işəgötürənin, iş yeri üzrə rəhbərinin, mütəxəssislərin tapşırıqlarına, məsləhətlərinə, tövsiyələrinə əməl etmək.

**Maddə 217.** İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması qaydaları

1. İşəgötürən istehsalatda baş verən bədbəxt hadisələrin ağırlıq dərəcəsindən asılı olmayaraq hadisənin təhqiqatının aparılması üçün dərhal həmin hadisə baş verən günü əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti həyata keçirən orqana məlumat verməyə borcludur.

2. Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan daxil olmuş məlumat əsasında qanunvericiliklə müəyyən edilmiş qaydada komissiya yaradır və baş vermiş bədbəxt hadisənin təhqiqatının aparılmasını təşkil edir.

3. Bədbəxt hadisənin təhqiqatı başa çatdıqdan sonra işəgötürən tərəfindən bir gündən gec olmayaraq qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq akt tərtib edilməli və onun bir nüsxəsi mütləq zərərçəkən işçiyə təqdim olunmalıdır.

4. Bədbəxt hadisənin baş vermə faktını gizlədən, aparılan təhqiqat barədə müvafiq akt tərtib etməkdən boyun qaçıran işəgötürən, onun səlahiyyətli vəzifəli şəxsi qanunvericilikdə nəzərdə tutulan qaydada məsuliyyət daşıyır.

5. Bədbəxt hadisələrin təhqiqinin, uçotunun aparılması bu maddədə nəzərdə tutulmuş qaydalar əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativ hüquqi aktla tənzimlənir.

**Maddə 218.** Müvafiq obyektlərin layihələşdirilməsi, tikintisi və istismarı zamanı əməyin mühafizəsi tələblərinin təmin edilməsi

1. Qüvvədə olan əməyin mühafizəsi standartlarının, qaydalarının və normalarının, təhlükəsizlik texnikasının tələblərinə uyğun gəlməyən istehsalat binalarının və qurğularının layihələşdirilməsinə, tikintisinə və yenidən qurulmasına, istehsal vasitələrinin hazırlanmasına və buraxılmasına, texnologiyaların tətbiqinə yol verilmir.

2. Müəssisələrin və istehsal vasitələrinin layihələri dövlət ekspertizasından keçirilməli, istehsal vasitələrinin sınaq nümunələri isə əməyin mühafizəsi və təhlükəsizlik texnikası normalarının tələblərinə uyğunluğunun yoxlanması üçün dövlət sınaqlarından çıxarılmalıdır.

3. Müvafiq icra hakimiyyəti orqanlarının tələbləri ilə sifarişçi və ya icraçı layihənin (nümunənin) əməyin mühafi-

zəsi və təhlükəsizlik texnikası normalarının tələblərinə uyğunluğunu müəyyən etmək məqsədi ilə müvafiq təşkilatları və mütəxəssisləri cəlb etməklə öz hesabına müstəqil ekspertiza keçirilməsini təşkil etməlidirlər.

4. İnsanın sağlamlığına təsirini müəyyənləşdirmək məqsədi ilə texnoloji, yanğın-texniki, sanitariya-gigiyena, tibbi-bioloji ekspertizadan və digər nəzarət növlərindən keçirilməmiş zərərli maddələrin, xammalın, materialların tətbiqi qadağandır.

5. Hər hansı yeni və ya yenidən qurulmuş müəssisənin, obyektin, istehsal vasitəsinin müəyyən edilmiş qaydada əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan tərəfindən verilən sertifikat-pasportu olmadan istismara buraxılması qadağandır.

6. Yeni tikilmiş və ya yenidən qurulmuş istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın razılığı olmadan istismara verilməsi qadağandır.

7. Əməyin təhlükəsizliyi tələblərinə uyğun gəlməyən və işçilərin sağlamlığı, yaxud həyatı üçün təhlükə törədən müəssisələrin işi və ya istehsal vasitələrinin istismarı, onlar əməyin təhlükəsizliyi tələblərinə uyğunlaşdırılanadək qanunvericiliklə müəyyən edilmiş qaydada əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan tərəfindən dayandırılmalıdır. Belə hallarda işçilərin əmək haqqı bu Məcəllənin 169-cu maddəsi ilə müəyyən edilmiş qaydada ödənilir.

**Maddə 219.** Əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanması və işçilərin təlimi

1. Dövlət müvafiq ixtisas məktəblərində ölkədə mövcud istehsalat xüsusiyyətlərini nəzərə almaqla əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanmasını təmin edir.

2. İşəgötürənlər həmkarlar ittifaqları təşkilatlarının iştirakı ilə əməyin mühafizəsi üzrə işçilərin təlimi və ixtisa-

sartırma sistemini təşkil etməli və qanunvericiliyə müvafiq həyata keçirməlidirlər.

3. İşəgötürənlər və müəssisələrin rəhbər işçiləri 3 ildə bir dəfədən az olmayaraq əməyin mühafizəsi üzrə vaxtaşırı ixtisasartırma kurslarında təlim keçməli və bu sahədə onların bilikləri yoxlanılmalıdır.

4. İşçilərin təliminin və ixtisasartırmanın bütün formalarında əməyin mühafizəsi üzrə təlim nəzərdə tutulmalıdır. İşəgötürən işə qəbul edilən və başqa işə keçirilən işçilərə əməyin mühafizəsi üzrə təlimatlar verməli, onlara təhlükəsiz iş üsullarından istifadə etməyin və bədbəxt hadisələrdən zərərçəkənlərə ilk tibbi yardım göstərilməsi qaydalarının öyrədilməsini təşkil etməlidir.

5. Zərərli, ağır istehsalatlardakı iş yerlərinə, peşələrə (vəzifələrə) və yüksək təhlükə mənbəyi olan maşın, mexanizmlərdə, avadanlıqlarda işləmək üçün işə götürülən işçilərin qabaqcadan əməyin mühafizəsi üzrə təlimatlandırılması keçirilmədən əmək funksiyasının icrasına başlamasına yol verilmir. İşəgötürən bu təlimatlandırmaların xüsusi jurnallarda qeydiyyatını və onların uçotunu aparmağa borcludur.

**Maddə 220.** Əməyin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi

1. Məqsəd və təyinatından asılı olaraq əməyin mühafizəsi dövlət büdcəsindən və müəssəsənin gəliri hesabına maliyyələşdirilir.

2. Dövlət büdcəsində və yerli büdcələrdə əməyin mühafizəsi üçün ayrıca sətirlə ayrılmış büdcə təxsisatından əməyin mühafizəsi üzrə elmi tədqiqat işlərinin maliyyələşdirilməsi, məqsədli dövlət və regional proqramlarının hazırlanması və yerinə yetirilməsi üçün istifadə olunur.

3. İşəgötürən və ya müəssisənin mülkiyyətçisi hər il əmək şəraitindən və əməyin təhlükəsizliyi vəziyyətindən, zədələnmələrin və xəstələnmələrin səviyyəsindən asılı ola-

raq əməyin mühafizəsi üzrə tədbirlərin keçirilməsi üçün lazımi maliyyə vəsaiti və material ayırır. Bu vəsaitlərin başqa məqsədlərə sərf edilməsi qadağandır.

4. Əməyin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi həcmi və mənbəyi kollektiv müqavilədə müəyyən edilir, həm də illik xərclərin miqdarı işçilərin əməyinin ödənilməsinə xərclənən vəsaitin məbləğinin iki faizindən az olmamalıdır.

5. (Çıxarılıb)

**Maddə 221.** Əməyin mühafizəsi fondu

1. Dövlət və müəssisələr səviyyəsində əməyin mühafizəsi fondu yaradıla bilər. Dövlət Əməyin Mühafizəsi Fondu müvafiq icra hakimiyyəti tərəfindən təsis edilir.

2. Dövlət Əməyin Mühafizəsi Fondu:

dövlət büdcəsindən ayırmalar;

mənfəətindən ayırmalar;

əməyin mühafizəsi normalarını və qaydalarını pozan inzibati qaydada cəzalanmış vəzifəli şəxslərin ödədikləri cərimələrin qanunvericiliklə müəyyən edilmiş hissəsi;

müəssisələrin, vətəndaşların könüllü ödəmələri və başqa ödəmələr hesabına təşkil edilir.

3. Müəssisə üzrə fond işəgötürən tərəfindən əməyin mühafizəsi və texniki təhlükəsizlik tədbirlərinə ayırdığı vəsaitin hesabına yaradılır.

4. Dövlət Əməyin Mühafizəsi Fondunun idarə olunması və onun vəsaitlərindən istifadə edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamədə nəzərdə tutulan qaydada həyata keçirilir.

5. Müəssisədə əməyin mühafizəsi fondunun vəsaiti yalnız işçilərin əmək şəraitinin və təhlükəsizliyinin normativ tələblərə çatdırılması və ya müəssisədə mövcud olan əməyin mühafizəsi səviyyəsinin yüksəldilməsi tədbirlərində istifadə edilə bilər.

**Maddə 222.** Sağlam və təhlükəsiz əməyin mühafizəsi

şəraitinin təmin edilməsi

1. İşəgötürən sağlam və təhlükəsiz əmək şəraitinə, təhlükəli və zərərli istehsalat amillərinə nəzarəti təşkil edir və bu sahədə baş vermiş dəyişiklik barədə işçilərə müntəzəm olaraq və vaxtında məlumat verir.

2. İşəgötürən əmək şəraitinin yaxşılaşdırılmasına, əməyin mühafizəsinin təmin edilməsinə və işçilərin sağlamlığının qorunmasına yönəldilmiş perspektiv və illik tədbirlər planı hazırlayır və həyata keçirir.

3. İşəgötürənlə işçilər arasında sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməsi üzrə qarşılıqlı öhdəliklər kollektiv müqavilədə, əmək müqaviləsində nəzərdə tutulur.

4. Əmək şəraiti zərərli və təhlükəli olan istehsalatlarda, həmçinin xüsusi temperatur şəraitində aparılan və ya çirklənmə ilə bağlı işlərdə çalışan işçilərə müəyyən edilmiş normalara müvafiq pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələri, yuyucu və dezinfeksiyaedici maddələr verilir.

5. İşəgötürən həmkarlar ittifaqları təşkilatının iştirakı ilə vaxtaşırı iş yerlərinin əməyin mühafizəsi normalarına və qaydalarına uyğunluğu üzrə attestasiya aparmalıdır. Attestasiyanın nəticələri barədə əmək kollektivinə məlumat verilir. İşəgötürən iş yerləri attestasiyasının nəticələrinə əsasən onları əməyin mühafizəsi üzrə qüvvədə olan normativ aktlara uyğunlaşdırmaq üçün lazımi tədbirlər görməlidir.

6. İşəgötürən işçilərə verilmiş xüsusi geyimin və ayaqqabının, digər fərdi mühafizə vasitələrinin saxlanılmasını, yuyulmasını, qurudulmasını, dezinfeksiyasını, deqazasiyasını, dezaktivizasiyasını və təmirini təmin etməlidir.

7. İşəgötürən qanunvericilikdə nəzərdə tutulmuş istehsalat sahələrini qazlı və duzlu su ilə təchiz etməlidir.

8. İşəgötürən ilin soyuq və isti vaxtlarında açıq havada, yaxud qızdırılmayan qapalı binalarda və isti sexlərdə ça-

lışan işçilərin isinməsi və ya istirahəti üçün otaqlar hazırlamalıdır.

**Maddə 223.** Əməyin mühafizəsi xidmətləri

1. Əməyin mühafizəsi işinin təşkili və əməyin mühafizəsi üzrə qanunvericiliyin tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi üçün iqtisadiyyatın bütün sahələrinin müəssisələrində əməyin mühafizəsi xidmətləri yaradılmalıdır.

2. Əməyin mühafizəsi xidmətinin tərkibinə əmək qanunvericiliyini, əməyin mühafizəsi normalarını mükəmməl bilən mütəxəssislər daxil edilir. Min nəfərdən çox işçinin çalışdığı müəssisələrdə sənayesanitariya laboratoriyası təşkil olunur, habelə əməyin gigiyenası üzrə həkim vəzifəsi təsis edilir.

3. Əməyin mühafizəsi xidmətinin mütəxəssisləri əməyin mühafizəsi qaydalarına və normalarına əməl olunmasına nəzarət etmək, aşkara çıxarılmış pozuntuların aradan qaldırılması barədə vəzifəli şəxslərə icrası məcburi olan göstərişlər vermək, habelə əməyin mühafizəsi haqqında qanunvericiliyi pozan şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə işəgötürənə təqdimatlar vermək hüququna malikdirlər.

4. Əməyin mühafizəsi xidmətinin mütəxəssisləri öz vəzifələrinə aid olmayan işlərin yerinə yetirilməsinə cəlb edilə bilməzlər və vəzifə borclarını düzgün və keyfiyyətli yerinə yetirməməyə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

5. İşəgötürən əməyin mühafizəsi xidmətini yalnız əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın razılığı ilə yenidən təşkil və ya ləğv edə bilər.

## Otuz beşinci fəsil
## İşçinin əməyin mühafizəsi hüququnun həyata keçirilməsi üçün təminatlar

**Maddə 224.** Əmək müqaviləsi bağlanarkən işçinin əməyin mühafizəsi hüququna təminatları

1. Əmək müqaviləsinin bağlanması şərtləri bu Məcəllə ilə müəyyən edilmiş əməyin mühafizəsi normalarının tələblərinə uyğun olmalıdır.

2. Əmək müqaviləsində hökmən işəgötürən tərəfindən işçinin sağlam və təhlükəsiz əmək şəraitinə təminat verilməsi barədə öhdəliyi göstərilməlidir.

3. İşçi peşə xəstəliyinə tutulmağa yüksək təhlükə mənbəyi olan işə qəbul edilərkən belə xəstəliyə tutulmağın ehtimal olunan müddəti barədə işəgötürən onu hökmən xəbərdar etməlidir. Bu halda yalnız həmin müddətlə məhdudlaşan müddətli əmək müqaviləsi bağlanmalı və onun müddəti bitdikdən sonra işçiyə əvvəlki orta əmək haqqı saxlanılmaq şərtilə başqa iş verməlidir.

4. İşçilərin peşə xəstəliyinə tutulması ehtimalı olan istehsalatlar və iş yerləri bu Məcəllənin 211-ci maddəsində göstərilmiş siyahıda nəzərdə tutulmalıdır.

**Maddə 225.** İşçilərin istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən sosial sığortası və şəxsi sığortası

1. İşəgötürən qanunvericilikdə müəyyən edilmiş qaydada və şərtlə işçiləri icbari sosial sığorta etməlidir.

2. Həyat üçün yüksək təhlükə mənbəyi olan işlərdə çalışan işçilər istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən işəgötürən tərəfindən mütləq icbari şəxsi sığorta edilməlidirlər. Şəxsi sığorta edilməli olan işçilərin siyahısı, sığorta haqqının məbləği kollektiv müqavilələrdə, əmək müqavilələrində sığorta təşkilatları ilə bağlanmış müqavilələr əsasında müəyyən edilir.

3. Maşın, mexanizm, qurğu, elektrik avadanlıqları, partlayış və yanğın təhlükəsi və bu qəbildən olan digər yüksək təhlükə mənbələrində işləyən işçilərin işəgötürən tərəfindən istehsalatda bədbəxt hadisələrdən icbari şəxsi sığorta edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən həyat üçün yüksək təhlükə mənbəli istehsal və qeyri-istehsal sahələrinin bu Məcəllənin 211-ci maddəsində nəzərdə tutulan siyahısı əsasında həyata keçirilir.

**Maddə 226.** İcbari tibbi müayinələr

1. Ağır, zərərli və təhlükəli istehsalatlarda işçilərlə əmək müqaviləsi bağlanılarkən onların hökmən ilkin tibbi müayinədən, sonralar isə vaxtaşırı icbari tibbi müayinələrdən keçməsi işəgötürənin hesabına təmin edilməlidir.

2. İşçilər icbari tibbi müayinələrdən keçməkdən boyun qaçırdıqda və ya keçirilmiş müayinələrin nəticələrinə əsasən həkim komissiyalarının verdikləri tövsiyələri yerinə yetirmədikdə, işəgötürən bu Məcəllənin 62-ci maddəsində nəzərdə tutulmuş qaydada onları işdən kənar edə, habelə müvafiq intizam məsuliyyətinə cəlb edə bilər.

**Maddə 227.** Əməyin mühafizəsi şəraiti haqqında işçilərin məlumat almaq hüququ

İşçilər iş yerlərində əməyin mühafizəsi şəraiti, həmin şəraitə uyğun olaraq onlara müəyyən edilmiş normalarla verilməli olan fərdi mühafizə vasitələri, güzəştlər və təminatlar haqqında məlumat tələb etmək hüququna malikdirlər. İşəgötürən bu tələbləri yerinə yetirməyə borcludur.

**Maddə 228.** Qadınların və yaşı 18-dən az olan işçilərin əməyinin mühafizəsinin tənzimlənməsinin xüsusiyyətləri

Qadınların, yaşı 18-dən az olan işçilərin, habelə əmək şəraiti zərərli və ağır olan işçilərin əməyinin mühafizəsi sahəsində münasibətlərin xüsusiyyətləri bu Məcəllə və müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

**Maddə 229.** Əməyin mühafizəsi qaydalarının tələblə-

rinə uyğun olmayan fəaliyyətin qadağan edilməsi

Əməyin təhlükəsizliyi normalarının və qaydalarının tələblərinə və bu Məcəllə ilə müəyyən edilmiş əməyin mühafizəsi prinsiplərinə uyğun olmayan istər işəgötürənin, istərsə də başqa vəzifəli şəxslərin, habelə müəssisələrin və onların struktur bölmələrinin, avadanlıq və qurğuların işi işçilərin sağlamlığı və ya həyatı üçün təhlükə törədərsə, müəyyən edilmiş qaydada səlahiyyətli nəzarət orqanları və ya onların vəzifəli şəxsləri tərəfindən aşkar edilmiş pozuntular aradan qaldırılanadək dayandırılmalıdır.

**Maddə 230.** Təhlükəsiz əmək şəraitinin təmin edilməməsi ilə əlaqədar məcburi boşdayanmaya, yaxud işdən imtina etməyə görə işçilərin təminatları

1. İşçilərin təqsiri olmadan müəssisələrdə və ya bilavasitə iş yerlərində əməyin mühafizəsi qaydalarının pozulması nəticəsində işin dayandırıldığı müddətdə onların iş yeri, vəzifəsi (peşəsi) və orta əmək haqqı saxlanılır.

2. İşəgötürən tərəfindən təhlükəsiz əmək şəraiti təmin edilmədikdə və bununla əlaqədar sağlamlığı və ya həyatı üçün təhlükə olduqda, işçi əmək funksiyasının icrasından imtina və müəyyən olunmuş qaydada təkbaşına tətil elan edə bilər. Bu halda işçi hər hansı məsuliyyət daşımır və həmin əmək mübahisəsi müəyyən olunmuş qaydada həll edilir.

**Maddə 231.** Daha yüngül işə keçirmə Səhhətinə görə daha yüngül işdə işləməyə ehtiyacı olan işçiləri işəgötürən onların razılığı ilə tibbi rəyə uyğun olaraq daha yüngül müvafiq işə müvəqqəti və ya daimi keçirməyə borcludur.

**Maddə 232.** İşçinin sağlamlığının mühafizəsi məqsədi ilə başqa yüngül işə keçirildiyi və əmək haqqının saxlandığı hallar

1. İşçi sağlamlığının mühafizəsinin təmin olunması məqsədi ilə səhhətinə mənfi təsir göstərməyən yüngül və əvvəlkinə nisbətən aşağı maaşlı işə keçirilə bilər. Bu halda

işçilərin yüngül işə keçirildiyi gündən etibarən bir ay ərzində əvvəlki işi (vəzifəsi) üzrə orta əmək haqqı saxlanılır.

2. Vərəm və digər xroniki ağır xəstəliyə tutulmuş və bu səbəbdən başqa az maaşlı işə müvəqqəti keçirilmiş işçilərə keçirildikləri bütün vaxt ərzində, lakin dörd aydan çox olmayaraq əvvəlki iş yerində aldığı əmək haqqı saxlanılır.

3. İş yerində bədbəxt hadisə nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş və müvafiq həkim məsləhət komissiyası və ya müvafiq icra hakimiyyəti orqanının rəyi əsasında yüngül işə müvəqqəti keçirilmiş işçilərə əvvəlki əmək haqqı ilə yeni iş yerindəki əmək haqqı arasındakı fərq ödənilir. Bu fərq işçinin əmək qabiliyyəti bərpa olunanadək və ya əlillik müəyyən edildiyi vaxtadək ödənilməlidir.

**Maddə 233.** Soyuq və isti havalar şəraitində fasilələr və işin dayandırılması

1. İşçilər aşağı temperatur və şiddətli külək şəraitində açıq havada, habelə ilin soyuq vaxtlarında qızdırılmayan qapalı binalarda işləyərkən onlara qızınmaq üçün fasilələr verilir və ya iş dayandırılır.

2. İşçilər havanın temperaturu azı 45 dərəcə Selsidən çox olan isti və açıq şəraitli iş yerlərində işləyərkən onlara bu maddə ilə müəyyən olunmuş qaydada fasilələr verilir və iş dayandırılır.

3. İşçilərə fasilələr verilməsi və işin dayandırılması üçün əsas hesab edilən havanın temperaturu və küləyin gücü bu Məcəlləyə 2-ci əlavədə nəzərdə tutulmuşdur.

4. Fasilələr iş vaxtına daxil edilir və bu fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilir.

5. İş dayandırıldıqda, boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilir.

**Maddə 234.** Əməyin mühafizəsinin təmin edilməsi üçün iş dayandırıldıqda başqa işə keçirmə

Əməyin mühafizəsinin təmin edilməsi məqsədi ilə bu Məcəllənin 230 və 233-cü maddələrində nəzərdə tutulmuş hallarda iş dayandırıldıqda işçi başqa işə keçirilə bilər. Bu halda işçi azmaaşlı işə keçirilərsə, onun əvvəlki vəzifəsi (peşəsi) üzrə əmək haqqı saxlanılır.

## Texniki Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu

Bu qanun təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının hüquqi, iqtisadi və sosial əsaslarını müəyyənləşdirir, həmin obyektləri istismar edən hüquqi və fiziki şəxslərin bu obyektlərdə baş verə biləcək qəzaların qarşısını almağa və baş vermiş qəzaların nəticələrini aradan qaldırmağa yönələn fəaliyyətini tənzimləyir.

Bu qanunun müddəaları təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində təhlükə potensiallı obyektlərin istismarı ilə məşğul olan bütün hüquqi və fiziki şəxslərə şamil edilir.

***Maddə 1. Əsas anlayışlar***

Bu qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

♣ obyektlərin texniki təhlükəsizliyi (bundan sonra — texniki təhlükəsizlik) vətəndaşların və cəmiyyətin vacib həyati maraqlarının təhlükə potensiallı obyektlərdə baş verə biləcək qəzalardan müdafiəsinin vəziyyəti;

♣ texniki nəzarət — istehsal obyektlərində işlərin aparılması qaydasını müəyyənləşdirən texniki-normativ sənədlərin və təhlükə potensiallı obyektlərdə fəaliyyət üçün verilmiş xüsusi razılığın tələblərinə əməl olunmasına nəzarət;

♣ qəza – təhlükə potensiallı obyektlərdə istifadə olunan tikililərin və ya texniki qurğuların uçulması, nəzarət edilə bilməyən partlayış və ya təhlükəli maddələrin ətraf mühitə yayılması;

♣ hadisə – təhlükə potensiallı obyektlərdə tətbiq olunan texniki qurğuların dayanması, yaxud nasazlığı, texnoloji rejim prosesindən kənara çıxma, eləcə də istehsal obyektində işlərin aparılması qaydalarını müəyyənləşdirən normativ texniki sənədlərin tələblərinin pozulması;

♣ təhlükəsizlik texnikası – avtomatik nəzarət və tənzimləyici cihazlar, qoruyucu qurğular, müşahidə, xəbərvermə, rabitə vasitələri və təhlükəsizliyi təmin edən digər texniki tədbirlər kompleksi;

♣ uyğunluq sertifikatı – avadanlığın, maşın və mexanizmlərin, dövlət standartına və yaxud digər texniki normativ sənədlərin təhlükəsizlik tələblərinə uyğun gəlməsini müəyyən edən rəsmi şəhadətnamə.

***Maddə 2. Təhlükə potensiallı obyektlər***

1. Əhali və ətraf mühit üçün təhlükə yaradan (Əlavə 1-də göstərilən) partlayış-yanğın, radioaktiv və ionlaşdırıcı şüa mənbələrinin, zəhərləyici maddələrin əldə olunması, hazırlanması, emalı, daşınması, istifadə edilməsi və ləğvi ilə məşğul olan istehsal, təchizat, nəqliyyat və sosial təyinatlı obyektlər təhlükə potensiallı obyektlər hesab edilir.

2. Təhlükə potensiallı obyektlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

3. Təhlükə potensiallı obyektlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada dövlət reyestrində qeydiyyatdan keçirilir.

4. *Fövqəladə vəziyyətin qüvvədə olduğu müddət ərzində onun tətbiq edildiyi ərazidə təhlükə potensiallı obyektlərin fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada tam və ya qismən dayandırıla bilər.*

***Maddə 3. Texniki təhlükəsizlik tələbləri***

1. Texniki təhlükəsizlik tələbləri bu qanunla, Azərbaycan Respublikasının digər normativ-hüquqi aktları ilə, habelə texniki-normativ sənədlərlə müəyyənləşdirilən, mövcud qaydada qəbul olunan və texniki təhlükəsizliyi təmin edən

şərtlərdən, qadağalardan, məhdudiyyətlərdən və yerinə yetirilməsi məcburi olan digər tələblərdən ibarətdir.

2. Texniki təhlükəsizlik tələbləri dövlət standartlarına, əməyin mühafizəsi qaydalarına, habelə ekoloji və yanğın təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, sənaye və tikinti, sanitarepidemioloji, əhalinin və ərazinin fövqəladə hallardan müdafiəsi normalarına uyğun olmalıdır.

***Maddə 4. Texniki təhlükəsizlik haqqında qanunvericilik***

1. Texniki təhlükəsizlik haqqında qanunvericilik Azərbaycan Respublikası Konstitusiyasından, bu qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə texniki təhlükəsizlik münasibətlərinin tənzimlənməsi barədə müəyyən olunmuş qaydalar bu qanunda nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

***Maddə 5. Texniki təhlükəsizlik sahəsində dövlət tənzimlənməsi***

Texniki təhlükəsizlik sahəsində dövlət tənzimlənməsini qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

***Maddə 6. Texniki təhlükəsizlik sahəsində fəaliyyət növlərinə xüsusi razılığın verilməsi***

Texniki təhlükəsizlik sahəsində fəaliyyət növlərinə xüsusi razılıq verilməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

***Maddə 7. Təhlükə potensiallı obyektdə istifadə olunan texniki qurğular və avadanlıqlar***

1. Təhlükə potensiallı obyektlərdə istifadə olunan texniki qurğular, maşın və mexanizmlər texniki təhlükəsizlik tələblərinə uyğunluğu baxımından Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada sertifikatlaşdırılır. Təhlükə potensiallı obyektlərdə istifadə olunan

və sertifikatlaşdırılmış texniki qurğuların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur.

2. Təhlükə potensiallı obyektlərdə istifadə olunan texniki qurğuların sertifikatlaşdırılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

3. Sertifikatın verilmə qaydaları qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

4. Təhlükə potensiallı obyektlərdə avadanlıq və texniki qurğulardan istifadənin ümumi qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

5. Təhlükə potensiallı obyektlərdə istifadə olunan avadanlıq və texniki qurğular istismar prosesində müəyyən edilmiş qaydada texniki təhlükəsizlik ekspertizasından keçirilir.

***Maddə 8. Təhlükə potensiallı obyektlərin layihələşdirilməsinə, tikintisinə və istismara qəbul edilməsinə texniki təhlükəsizlik tələbləri***

1. Təhlükə potensiallı obyektin tikintisinə, genişləndirilməsinə, yenidən qurulmasına, texniki cəhətdən yeniləşdirilməsinə, konservasiyasına və ləğv edilməsinə başlanması barədə qərarın qəbul edilməsinin məcburi şərtlərindən biri layihə sənədləri barədə texniki təhlükəsizlik üzrə müsbət ekspertiza rəyinin olmasıdır.

2. Təhlükə potensiallı obyektin tikintisi, genişləndirilməsi, yenidən qurulması, texniki cəhətdən yeniləşdirilməsi, konservasiyası və ləğv edilməsi prosesində layihə sənədlərindən kənara çıxma hallarına yol verilmir. Layihə sənədlərinə edilən dəyişikliklər müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır.

3. Təhlükə potensiallı obyektin tikintisi, genişləndirilməsi, yenidən qurulması, texniki cəhətdən yeniləşdirilməsi, konservasiyası və ləğv edilməsi prosesində layihə sənədlərini işləyib hazırlayan təşkilatlar qanunvericiliklə müəyyən edilmiş qaydada müəlliflik nəzarətini həyata keçirirlər.

4. Təhlükə potensiallı obyektlərin istismara qəbulu Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada aparılır.

Təhlükə potensiallı obyektlərin istismara qəbulu zamanı obyektin layihə sənədlərinə uyğunluğu, hüquqi və fiziki şəxslərin təhlükə potensiallı obyektlərin istismarına, habelə qəzaların lokallaşdırılmasına və nəticələrinin ləğv edilməsinə hazırlıqlarının vəziyyəti yoxlanılır.

***Maddə 9. Təhlükə potensiallı obyektin istismarına dair texniki təhlükəsizlik tələbləri***

Təhlükə potensiallı obyekti istismar edən hüquqi və fiziki şəxslər;

♣ bu qanunun, digər qanunların və normativ hüquqi aktların, eləcə də texniki normativ sənədlərin tələblərinə əməl etməlidir;

♣ təhlükə potensiallı obyektlərdə işçi heyətlərini komplektləşdirərkən onların texniki təhlükəsizlik və ixtisaslaşma tələblərinə, habelə qanunla müəyyənləşdirilmiş digər tələblərə uyğunluğunu və tibbi cəhətdən yararlığını təmin etməlidir;

♣ təhlükə potensiallı obyektdə normativ hüquqi aktlara və işlərin aparılması qaydalarını müəyyənləşdirən normativ texniki sənədlərə malik olmalıdır;

♣ binaların texniki təhlükəsizlik ekspertizasından keçirilməsini təmin etmək, eləcə də təhlükə potensiallı obyektdə istifadə olunan tikili, avadanlıq və texniki qurğuların diaqnostikasını, sınağını və ümumi yoxlanmasını keçirməlidir;

♣ təhlükə potensiallı obyektlərin mühafizəsini təşkil etməli və təhlükəli maddələrin saxlanmasına dair texniki təhlükəsizlik tələblərinə riayət etməlidir;

♣ texniki təhlükəsizlik bəyannaməsi hazırlamaq, təhlükə potensiallı obyektlərin istismarı zamanı dəymiş zərərə görə məsuliyyətin məcburi sığortalanması barədə müqavilə

bağlamalıdır;

♣ təhlükə potensiallı obyektin istismarına dair xüsusi razılığa malik olmalıdır;

♣ partlayıcı və radioaktiv maddələrin, partladıcı materialların və ionlaşdırıcı şüa mənbələrinin uçotunun aparılmasını, onların texniki normativ sənədlərin tələblərinə uyğun qaydada saxlanmasını, işlədilməsini və təhlükəsiz istifadə olunmasını təmin etməlidir;

♣ müvafiq icra hakimiyyəti orqanlarının təlimat, sərəncam və göstərişlərinə əməl etməlidir.

***Maddə 10. Təhlükə potensiallı obyektdə işləyənlərin vəzifələri***

Təhlükə potensiallı obyektdə işləyənlərin vəzifələri aşağıdakılardır:

♣ təhlükə potensiallı obyektlərdə işlərin aparılması, habelə qəza və hadisə şəraitində fəaliyyət qaydalarını müəyyənləşdirən texniki-normativ sənədlərin tələblərinə əməl etmək;

♣ ildə bir dəfədən az olmamaq şərti ilə tibbi müayinədən və attestasiyadan keçmək;

♣ təhlükə potensiallı obyektdə baş verən qəza və hadisə zamanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada işi dayandırmaq, qəza və ya hadisə barədə dərhal rəhbərliyə, yaxud digər vəzifəli şəxsə məlumat vermək.

***Maddə 11. Hüquqi və fiziki şəxslərin qəzaların lokallaşdırılması və nəticələrinin ləğv edilməsinə yönəlmiş fəaliyyətinə tələblər***

Təhlükə potensiallı obyektləri istismar edən hüquqi və fiziki şəxslər obyektlərdə baş verə biləcək qəzaların qarşısını almaq və baş vermiş qəzaların nəticələrini aradan qaldırmaq məqsədilə:

♣ sistemli tədbirlər hazırlayır və həyata keçirir;

♣ işçi həyətinin qəza və hadisələrə hazırlığını vaxtaşırı təkmilləşdirir, onları attestasiyadan keçirir;

♣ baş verə biləcək qəzaları qabaqcadan müəyyənləşdirmək və qarşısını almaq məqsədi ilə sistemli nəzarət təşkil edir;

♣ qəza və hadisə baş verdikdə istismarı dərhal dayandırır;

♣ peşəkar qəza-xilasetmə xidmətləri, yaxud peşəkar qəzaxilasetmə hissələri ilə müqavilələr bağlayır;

♣ qəzaların lokallaşdırılması və nəticələrinin ləğv edilməsi məqsədi ilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq maliyyə vəsaitinin və maddi-texniki vasitələrin ehtiyatını yaradır;

♣ bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından, habelə qəza şəraitində fəaliyyət qaydalarını müəyyənləşdirən texniki-normativ sənədlərdən irəli gələn digər vəzifələri yerinə yetirir.

***Maddə 12. Texniki təhlükəsizlik tələblərinə riayət olunmasına daxili nəzarət***

1. Təhlükə potensiallı obyekti istismar edən hüquqi və fiziki şəxslər texniki təhlükəsizlik tələblərinə riayət olunmasına nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə uyğun təşkil etməli və həyata keçirməlidir.

2. Texniki təhlükəsizlik tələblərinə riayət olunmasına istehsal nəzarətinin təşkili və onun həyata keçirilməsi səlahiyyəti verilmiş işçilər barəsində məlumat müvafiq icra hakimiyyəti orqanına təqdim edilməlidir.

***Maddə 13. Qəza səbəblərinin texniki təhqiqatı***

1. Təhlükə potensiallı obyektdə baş vermiş hər bir qəza faktı üzrə müvafiq icra hakimiyyəti orqanının təşkil etdiyi xüsusi komissiya tərəfindən texniki təhqiqat aparılır.

2. Xüsusi komissiya təhlükə potensiallı obyektin yerləşdiyi yerli özünüidarəetmə orqanlarının, obyektin istis-

marını həyata keçirən hüquqi və fiziki şəxslərin, habelə layihə, elmitədqiqat institutlarının, tikinti-quraşdırma, ekspertiza, texniki təhlükəsizlik, sığorta və sair təşkilatların nümayəndələrini təhqiqat işinə cəlb edə bilər.

3. Təhlükə potensiallı obyekti istismar edən hüquqi və fiziki şəxslər qəza səbəblərinin texniki təhqiqatı üzrə komissiyaya öz səlahiyyətlərini həyata keçirmək üçün müvafiq məlumat və sənədləri təqdim etməlidir.

4. Qəza səbəblərinin texniki təhqiqatının nəticələri barədə akt tərtib edilir. Həmin aktda qazanın səbəbləri və şəraiti, dəyən ziyanın həcmi, texniki təhlükəsizlik tələblərinin pozulması halları, həmçinin qəza nəticələrinin lokallaşdırılması və ləğv edilməsi üzrə görülmüş tədbirlər göstərilir.

5. Qəzanın səbəbləri üzrə texniki təhqiqat xərcləri qəza baş vermiş obyekti istismar edən hüquqi və ya fiziki şəxs tərəfindən maliyyələşdirilir.

***Maddə 14. Texniki təhlükəsizlik ekspertizası***

1. Texniki təhlükəsizlik ekspertizası aşağıdakılara şamil olunur:

♣ təhlükə potensiallı obyektin tikintisi, genişləndirilməsi, yenidən qurulması, texniki cəhətdən yeniləşməsi, konservasiyası və ləğvinə dair layihə sənədlərinə;

♣ təhlükə potensiallı obyektdə istifadə olunan avadanlıq və texniki qurğulara;

♣ təhlükə potensiallı obyektdəki bina və tikililərə;

♣ texniki təhlükəsizlik bəyannaməsi və təhlükə potensiallı obyektin istismarı ilə bağlı olan digər sənədlərə.

2. Texniki təhlükəsizlik ekspertizası obyekti istismar edən hüquqi və ya fiziki şəxsin hesabına bu ekspertizanı aparmağa xüsusi razılığı olan təşkilat tərəfindən həyata keçirilir.

3. Texniki təhlükəsizlik ekspertizasını həyata keçirən təşkilat ekspertizanın nəticəsi barədə rəy verir.

4. Müvafiq icra hakimiyyəti orqanına təqdim edilmiş rəy həmin orqan tərəfindən müəyyən edilmiş qaydada nəzərdən keçirilir və təsdiq edilir.

5. Texniki təhlükəsizlik ekspertizası, digər ekspertizaların həyata keçirilməsi ilə eyni vaxtda həyata keçirilə bilər.

6. Texniki təhlükəsizlik ekspertizasının keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

***Maddə 15. Texniki təhlükəsizlik bəyannaməsi***

1. Texniki təhlükəsizlik bəyannaməsində:

♣ qəza və onunla bağlı təhlükənin hərtərəfli qiymətləndirilməsi;

♣ qəzanın baş verməməsi üçün görülən tədbirlərin kifayətləndirici olub-olmaması barədə təhlil;

♣ hüquqi şəxslərin təhlükə potensiallı obyektlərin istismarına, habelə qəzanın lokallaşdırılması və nəticələrinin ləğv edilməsinə hazırlığının təmin edilməsi;

♣ qəzanın nəticələrini və dəymiş ziyanın miqyasını azaltmağa yönəldilmiş tədbirlərin işlənib hazırlanması öz əksini tapır.

Texniki təhlükəsizlik bəyannaməsində göstərilən məlumatların siyahısı və onların tərtib olunma qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır.

2. Təhlükə potensiallı obyektlərə bu Qanuna Əlavə 2-də göstərilən miqdarda maddələr və ionlaşdırıcı şüa mənbələrinin alınması, istifadə olunması, emalı, saxlanması, nəqli, ləğvi üzrə hər biri ayrıca olmaqla texniki təhlükəsizlik bəyannaməsinin işlənib hazırlanması məcburidir.

3. Təhlükə potensiallı obyekti istismar edən hüquqi və fiziki şəxslər müvafiq icra hakimiyyəti orqanına texniki təhlükəsizliyin vəziyyəti barədə bəyannamə təqdim etməlidirlər.

4. Texniki təhlükəsizlik bəyannaməsi təhlükə potensiallı obyektlərin tikintisi, genişləndirilməsi, yenidən qurul-

ması, texniki cəhətdən yeniləşdirilməsi, konservasiyası və ləğvinə dair layihə sənədləri əsasında hazırlanır və obyekti istismar edən hüquqi və ya fiziki şəxs tərəfindən təsdiq olunur.

Təhlükə potensiallı obyekti istismar edən hüquqi və ya fiziki şəxs bəyannamədə göstərilən məlumatların tam və dəqiq olmasına görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

5. Hüquqi və ya fiziki şəxs təhlükə potensiallı obyektin istismarı ilə bağlı xüsusi razılıq almaq üçün müraciət etdikdə, yaxud bəyannamədə göstərilən məlumatlar və ya texniki təhlükəsizliyə dair tələblər dəyişdikdə texniki təhlükəsizlik bəyannaməsi dəqiqləşdirilir və ya yenidən işlənib hazırlanır.

6. Texniki təhlükəsizlik bəyannaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada müvafiq dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim edilir.

7. Texniki təhlükəsizlik bəyannaməsi qanunvericiliyə uyğun olaraq texniki təhlükəsizlik ekspertizasından keçməlidir.

***Maddə 16. Təhlükə potensiallı obyektləri istismar edən hüquqi və fiziki şəxslərin məsuliyyətinin icbari sığortası***

Təhlükə potensiallı obyektləri istismar edən hüquqi və fiziki şəxslərin həmin obyektlərdə baş verə biləcək qəza nəticəsində digər şəxslərin həyatına, sağlamlığına, yaxud əmlakına və ətraf mühitə dəyən zərərə görə məsuliyyəti icbari qaydada sığortalanır. Sığortanın qaydası və şərtləri qanunla müəyyən edilir.

***Maddə 17. Təhlükə potensiallı obyektlərə dövlət nəzarəti***

1. Təhlükə potensiallı obyektlərə dövlət nəzarəti həmin obyektlərin istismarının texniki təhlükəsizlik tələbləri-

nə uyğunluğunu yoxlamaq məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təşkil olunur və həyata keçirilir.

2. Dövlət nəzarətinin həyata keçirilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri aşağıdakı səlahiyyətlərə malikdirlər:

♣ təhlükə potensiallı obyektlərə sərbəst daxil olmaq;

♣ təhlükə potensiallı obyektlərin istismarı ilə bağlı sənədlərlə tanış olmaq;

♣ təhlükə potensiallı obyektləri istismar edən hüquqi və fiziki şəxslərə müvafiq fəaliyyət növünün həyata keçirilməsi üçün verilmiş xüsusi razılıq şərtlərinin yerinə yetirilməsini yoxlamaq;

♣ təhlükə potensiallı obyektlərdə baş verən qəzaların texniki təhqiqatının aparılmasının düzgünlüyünü, habelə bu təhqiqatlar nəticəsində görülmüş tədbirlərin kifayətləndirici olub-olmamasını araşdırmaq;

♣ yoxlama nəticəsində aşkar olunmuş pozuntuları aradan qaldırmaq üçün hüquqi və fiziki şəxslərə yazılı sərəncam vermək;

♣ texniki təhlükəsizlik sahəsində, o cümlədən obyektdə bina və tikintilərin, təhlükə potensiallı obyektdə tətbiq olunan texniki qurğuların texniki təhlükəsizlik ekspertizasının həyata keçirilməsinin zərurəti barədə öz səlahiyyətləri çərçivəsində göstərişlər vermək;

♣ texniki təhlükəsizlik tələblərinin pozulmasında təqsirkar olan şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada inzibati məsuliyyətə cəlb etmək, həmin şəxslərin cinayət məsuliyyətə cəlb edilmələri üçün toplanmış materialları hüquq-mühafizə orqanlarına göndərmək;

♣ təhlükə potensiallı obyektlərin mütəxəssislərinin və vəzifəli şəxslərinin ixtisaslarının təkmilləşdirilməsini tələb etmək;

♣ hüquqi və fiziki şəxsə verilmiş xüsusi razılıq fəaliyyətinin məhdudlaşdırılması, yaxud dayandırılması, habelə texniki təhlükəsizlik tələbləri kobud şəkildə pozulduqda xüsusi razılığın fəaliyyətinə xitam verilməsi barədə qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

♣ başqa şəxslərin həyatına, sağlamlığına, əmlakına dəyən zərərin ödənilməsi barədə məhkəmədə iddia ilə çıxış etmək;

♣ bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından irəli gələn səlahiyyətləri yerinə yetirmək.

***Maddə 18. Texniki təhlükəsizlik sahəsində mübahisələrin həlli qaydası***

Texniki təhlükəsizlik sahəsində mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll olunur.

***Maddə 19. Texniki təhlükəsizlik sahəsində qanunvericiliyin pozulmasına görə məsuliyyət***

Bu Qanunun pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Heydər ƏLİYEV.**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 2 noyabr 1999-cu il.

№ 733-IQ.

«Azərbaycan» qəzetində dərc edilmişdir (08 fevral 2000-ci il, № 29).

4 mart 2005-ci il tarixli, 856-IIQD nömrəli qanuna əsasən dəyişikliklərlə.

# *Əlavə 1*
# Təhlükə potensiallı istehsal obyektləri

Təhlükə potensiallı istehsal obyektləri kateqoriyasına aiddir:

1. Alınan, istifadə edilən, emal olunan, düzəldilən, saxlanılan, nəql olunan, məhv edilən aşağıda göstərilən təhlükəli maddələr:

1.1. Tez alovlanan maddələr – normal təzyiqdə və hava ilə qarışdıqda tez alovlanma qabiliyyəti alan və normal təzyiqdə qaynama temperaturu 200C və ya aşağı olan qazlar;

1.2. Oksidləşən maddələr – yanmaya kömək edən, tez alovlanma yaradan və (və ya) oksidləşmə-bərpaedici ekzotermik reaksiya nəticəsində, digər maddələrin tez alovlanmasına səbəb olan maddələr;

1.3. Tez alışan maddələr – öz-özünə, eləcə də alışdırma mənbəyindən alışan və sonra müstəqil yanan mayelər, qazlar, tozlar;

1.4. Partlayıcı maddələr – xarici təsir nəticəsində istilik ayrılması və qazların əmələ gəlməsi ilə sürətlə öz-özünə genişlənən kimyəvi çevrilməyə malik olan maddələr;

1.5. Zəhərləyici maddələr – canlı orqanizmlərə təsiri nəticəsində onların məhvinə gətirib çıxaran və aşağıdakı xarakteristikaya malik olan maddələr:

♣ orqanizmə (mədəyə) düşərkən hər kiloqrama 15 milliqramdan, hər kiloqrama 200 milliqramadək (daxil olmaqla) orta ölüm dozası olan;

♣ dəriyə düşərkən hər kiloqrama 50 milliqramdan hər kiloqrama 400 milliqramda qədər (daxil olmaqla) orta ölüm dozası olan;

♣ havada hər litrə 0,5 milliqramdan hər litrə 2 milliqramadək orta ölüm konsentrasiyası olan;

1.6. Yüksək zəhərləyici maddələr – canlı orqanizmlərə təsir edərkən onların məhvinə gətirən və aşağıdakı xüsusiy-

yətləri olan maddələr:

♣ orqanizm (mədə) daxilində qəbul olunarkən hər kiloqrama orta ölüm dozası 15 milliqramdan çox olmayan;

♣ dəriyə təsir edərkən hər kiloqrama orta ölüm dozası 50 milliqramdan çox olmayan;

♣ havada hər litrə orta ölüm konsentrasiyası 0,5 milliqramdan çox olmayan;

1.7. Ətraf mühit üçün təhlükəli maddələr – su mühitində aşağıdakı kəskin zəhərləyici göstəriciləri ilə xarakterizə olunan maddələr:

♣ 96 saat ərzində balığa inqalyasiya təsiri edərkən hər litrdə orta ölüm dozası 10 milliqramdan çox olmayan;

♣ 48 saat ərzində şirin su mikroorqanizmlərə təsiri zamanı hər litrə orta ölüm dozası 10 milliqramdan çox olmayan;

♣ 72 saat ərzində yosunlara təsir edərkən hər litrə orta ingibirasiya konsentrasiyası 10 milliqramdan çox olmayan;

2. Təzyiq altında 0,07 meqapaskaldan artıq və ya suyun qaynama temperaturu 115oC rejimdə işləyən avadanlıqlar;

3. Stasionar şəkildə quraşdırılmış və səyyar yükqaldıran mexanizmlər eskalator, kanat yolları, funikulyorlar və liftlər;

4. Qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin alınması;

5. Dağ-mədən işləri, faydalı qazıntıların zənginləşdirilməsi və yeraltı şəraitdə işlərin aparılması;

6. Neftqazçıxarma sənayesi (magistral neft-qaz boru kəmərlərini daxil etməklə) və geoloji kəşfiyyat işləri;

7. Təhlükəli yüklərin hava, dəniz, dəmir yolları və avtonəqliyyat vasitələri ilə daşınması;

8. Elevatorlu-unüyütmə, qarışıq yem və mineral gübrə sənayesi;

9. Neft-kimya, neft emalı və qaz təchizatı sahələri.

# *Əlavə 2*
# Təhlükə potensiallı istehsal obyektində texniki təhlükəsizlik bəyannaməsinin məcburi işlənib hazırlanmasına əsas verən təhlükəli maddələrin son həddi

*Cədvəl 1*

| Təhlükəli maddənin adı | Təhlükəli maddənin son hədd miqdarı (t) |
|---|---|
| Ammonyak | 500 |
| Ammonium nitrat (tərkibində ammonium nitratdan azot kütləsinin 28 faizdən çox olduğu ammonium-nitrat və ammonium qarışığı, ammonium-nitrat konsentratı kütləsinin 90 faizdən çox olduğu ammonium-nitratın su məhsulu) | 2500 |
| Gübrə formasında ammonium-nitrat [(ammonium-nitrat (ammonium-nitrat əsasında sadə gübrələr, eləcə də tərkibində ammonium-nitratdan azot kütləsinin 28 faizdən çox olduğu mürəkkəb gübrələr (mürəkkəb gübrələrin tərkibində fosfat və (və ya) kalium ilə birlikdə ammonium-nitrat var)] | 10000 |
| Akrilonitril | 200 |
| Xlor | 25 |
| Etilen-oksid | 50 |
| Tərkibində sian olan hidrogen | 20 |
| Tərkibində flor olan hidrogen | 50 |
| Tərkibində sulfat olan hidrogen | 50 |
| Kükürd dioksid | 250 |
| Kükürd trioksid | 75 |
| Alkillər | 50 |
| Fosgen | 0,75 |
| Metilizosianat | 0,15 |

*Cədvəl 2*

| **Təhlükəli maddələrin növləri** | **Təhlükəli maddənin son hədd miqdarı (t)** |
|---|---|
| Tez alovlanan qazlar | 200 |
| Əmtəə-xammal anbarlarında və bazarlarında olan alışan mayelər | 50000 |
| Texnoloji prosesdə istifadə edilən və ya magistral boru kəmərləri ilə nəql olunan alışan maddələr | 200 |
| Zəhərləyici maddələr | 200 |
| Yüksək zəhərləyici maddələr | 20 |
| Oksidləşən maddələr | 200 |
| Partlayıcı maddələr | 50 |
| Radioaktiv maddələr və vasitələr | 50 |
| Ətraf təbii mühit üçün təhlükə törədən maddələr | 200 |

**Qeyd 1.** Cədvəl 1-də göstərilməyən təhlükəli maddələr üçün cədvəl 2 tətbiq edilir.
**Qeyd 2.** Əgər təhlükə potensiallı obyektlər arasında məsafə 500 metrdən azdırsa, təhlükəli maddənin cəmi miqdarı nəzərə alınır.
**Qeyd 3.** Əgər eyni kateqoriyadan olan təhlükəli maddələrin bir neçə növü istifadə olunursa, onda onların hüdud miqdarı cəmi aşağıdakı kimi təyin olunur:
burada,
*m (i)* – tətbiq olunan maddənin miqdarı;
*M (i)* – 1-dən *n*-ə qədər bütün *i* üçün olan maddənin hədd miqdarıdır.

## İctimai binalarda, yaşayış evlərində, təhsil, səhiyyə, sənaye təyinatlı binlarda, idarə və müəssisələrdə təbii və zənginləşdirilmiş qazdan istifadə edənlər üçün

## Təhlükəsizlik Qaydaları

- Otağa daxil olduqda qaz sızmasının olmadığını təyin etməmiş açıq oddan və işıq şəbəkəsindən istifadə etməyin.
- Qaz cihazlarını yandırmazdan əvvəl otağın havasını dəyişin və qaz iyi olmadığını yəqin edin.
- Qazla ehtiyatlı davranın: Qaz cihazlarını işə salarkən əvvəlcə yanan odu odluğa yaxınlaşdırıb, sonra qaz kranını açın.
- Qaz cihazlarını nəzarətsiz qoymayın, kiçik yaşlı uşaqlara, yeniyetmələrə, xəstə və qocalara qaz cihazlarını etibar etməyin.
- Qaz cihazlarından istifadə edib qurtardıqdan sonra qaz borusunun üzərindəki kranı və ya ventili, həmçinin qoruyucu ventili (kranı) diqqətlə bağlayın.
- Qaz iyi hiss etdikdə, dərhal bütün qaz kranlarını (ventili) bağlayın, elektriklə işləyən cihazları yandırıb söndürməyin, təcili otağın havasını dəyişib Mərkəzi qaz Qəza Xidmətinə məlumat verin.
- Abonentlər və ya kənar şəxslər tərəfindən qaz xətlərinin özbaşına çəkilməsi, qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri və əlavə qaz cihazlarının quraşdırılması qəti qadağandır.
- Uzun müddətə, istirahət və bayram günlərində mənzili, iş yerlərini, idarə və müəssisələri tərk etdikdə qaz cihazlarının bütün kranlarını (ventil) bağlamağı unutmayın.
- Yanğın baş verdikdə dərhal qaz xəttinin əsas girişində qoyulmuş qaz kranını bağlayıb, aidiyyəti olaraq qaz və elektrik qəza xidmətlərinə, həmçinin yanğınsöndürücülərə xəbər verin.

- Qaz borularının üzərinə kənar əşyalar, o cümlədən paltar və tezalışan yanar paltarların sərilib qurudulması yolverilməzdir.

- Qaz cihazları olan otaqlarda tezalışan mayelərin yerləşdirilməsi və saxlanılması qadağandır.

- Bütün qaz kəmərləri, qaz kranları (ventil) və qaz cihazları profilaktik xidmətlər üçün əlçatan və görünən yerlərdə quraşdırılmalıdır.

- Qaz sobalarının və qazanxanaların tüstü bacaları, mətbəx və hamam otaqlarının hava yolları qış mövsümününün başlanmasından əvvəl təmizlənməli, təmiz saxlanılmalı və tüstü bacaları müntəzəm yoxlanılmalıdır.

- Uşaq bağçaları, internat məktəbləri, uşaq evləri, xəstəxanalar, idarə və müəssisələrdə qazanxanalardan, qaz sobalarından istifadə edilməsi üçün məsul şəxslər təyin olunmalı, onlar təlimatlandırılmalı və bilikləri yoxlanıldıqdan sonra aidiyyəti olaraq işə buraxılmalıdırlar.

## İstehsalatda, həyatda, tibbdə, yeyinti sənayesində və elmi təcrübələr zamanı istifadə olunan, yüksək təzyiq altında sıxılaraq (50-100-150 kq/sm$^2$) polad qazqolderlərdə (balonlarda) depolanmış qazlar haqqında ən vacib təhlükəsizlik texnikası tədbirləri:

- Hər şeydən öncə bu balonlar (50-100-150 atmosfer; kq/sm$^2$) yüksək təzyiq altında olduqları üçün onların hər an partlama təhlükəsi vardır;

- Belə balonların boğaz nahiyəsində istehsalçı müəssisə tərəfindən yerləşdirilmiş aliminium vərəqdən ibarət pasportu olmalı və bu pasportda həmin balonun (qazqolderin) yararlılıq müddəti, istehsal olunduğu tarix, son sınaq tarixi və bir çox başqa vacib məlumatlar olmalıdır.

- Qazların istehsalı və satışı ilə məşğul olan mərkəzi qaz stansiyalarında bu qaz balonlarına texniki qulluq göstə-

rilməli, xidmət müddəti başa çatmış, yararsız, baş tərəfindəki kranın qoruyucu qapağı olmayan, rezin təhlükəsizlik kəmərləri geyindirilməmiş, üzərində pasportu olmayan və qazın adı, balonun rəngi, balonun yazısı, yazının rəngi və xüsusi rəngli zolağı olmayan balonlara və qazqolderlərə qazların doldurulması qadağandır.

- Bütün tələblərə uyğun gələn doldurulmuş və ya boş balonlar xüsusi avtomaşınlarda və ya uyğunlaşdırılmış nəqliyyat vasitələrində daşınmalı və bu maşınlar xüsusi üçbucaqlı fərqləndirici – xəbərverici bayraqlarla təchiz olunmalıdır.

- Təyinatından asılı olmayaraq belə balonların (qazqolderlər) binalarda, mənzillərdə, iş yerlərində, laboratoriyalarda, elmi və təcrübə müəssisələrində, sənaye müəssisələrində saxlanılmasına yol verilmir.

- Bu kimi balonlar (qazqolderlər) bina və qurğulardan kənar olmaqla üstüörtülü, yan tərəfləri isə başa qədər metal çubuqlarla çəpərlənmiş, qapısı qıfıllı və üzərində müvafiq tablosu olan saxlanc yerlərində saxlanılmalı və oradakı qazların təyinatına uyğun olaraq iş yerlərinə, sahələrə, laboratoriya və sınaq otaqlarına ayrı-ayrılıqda Tikinti Norma və Qaydalarının tələblərinə uyğun olaraq qaz-boru xətləri çəkilməlidir.

- Qapalı otaqlar və qapalı iş yerləri təhlükəsizlik məqsədi ilə avtomatik rejimdə çalışan, xüsusi texniki şərtlərin tələblərinə müvafiq olaraq hazırlanmış layihənin tələblərinə uyğun olaraq quraşdırılmış qaz xəbərverici dedektorlarla təchiz olunmalıdır.

Yuxarıda adları çəkilən sahələrdə istifadə olunan qazların yüksək təzyiq alrında sıxılaraq balonlar üzrə depolanması və üzərində yazılmalı olan fərqləndirici rənglər, yazılar və rəngli zolaqların təsnifatı aşağıdakı cədvəldə verilmişdir.

| Qazın adı | Balonun rəngi | Balonun yazısı | Yazının rəngi | Zolağın rəngi |
|---|---|---|---|---|
| Azot | Qara | Azot | Sarı | Qəhvəyi |
| Ammonyak | Sarı | Ammonyak | Qara | - |
| Arqon (xam) | Qara | Arqon (xam) | Ağ | Ağ |
| Arqon (texniki) | "-" | Arqon (texniki) | Göy | Göy |
| Arqon (təmiz) | Boz | Arqon (təmiz) | Yaşıl | Yaşıl |
| Asetilen | Ağ | Asetilen | Qırmızı | - |
| Butilen | Qırmızı | Butilen | Sarı | Qara |
| Nefteqaz | Boz | Nefteqaz | Qırmızı | - |
| Butan | Qırmızı | Butan | Ağ | - |
| Hidrogen | Tünd-yaşıl | Hidrogen | Qırmızı | - |
| Hava | Qara | Sıxılmış qaz | Ağ | - |
| Helium | Qəhvəyi | Helium | "-" | - |
| Azot-1-oksid | Boz | Azot-1-oksid | Qara | - |
| Oksigen | Mavi | Oksigen | "-" | - |
| Oksigen (tibbi) | "-" | Oksigen (tibbi) | "-" | - |
| Hidrogen sulfid | Ağ | Hidrogen sulfid | Qırmızı | Qırmızı |
| Kükürd anhidrid | Qara | Kükürd anhidrid | Ağ | Sarı |
| Karbon turşusu | "-" | Karbon turşusu | sarı | - |
| Fosgen | Xaki | - | - | Qırmızı |
| Freon 11 | Alüminium rəngi | Freon 11 | Qara | Göy |
| Freon 12 | "-" | Freon 12 | "-" | - |
| Freon 13 | "-" | Freon 13 | "-" | 2 qırmızı |
| Freon 22 | "-" | Freon 22 | "-" | 2 sarı |
| Xlor | Xaki | - | - | Yaşıl |
| Tsiklopropan | Narıncı | Tsiklopropan | Qara | - |

| | | | | |
|---|---|---|---|---|
| Etilen | Bənövşəyi | Etilen | Qırmızı | - |
| Digər yanar qazlar | Qırmızı | Qazın adı | Ağ | - |
| Digər yanmayan qazlar | Qara | Qazın adı | Sarı | - |

**Əsas: Охрана труда в научных учреждениях Академии Наук СССР. Москва: Наука, 1972.**

## Əməyin mühafizəsi və əhalinin sosial müdafiəsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Hökumət Başçıları Şurasının (HBŞ) iclasında Azərbaycan Respublikası tərəfindən imzalanmış

## SAZİŞLƏR

1. Əmək vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar xəsarət almış, peşə xəstəliyinə tutulmuş və yaxud sağlamlığı digər şəkildə pozulmuş işçilərə dəymiş zərərin əvəzinin ödənilməsi hüquqlarının qarşılıqlı tanınması haqqında Saziş – HBŞ (9 sentyabr 1994, Moskva); 20 iyun 1996-cı ildə qəbul olunmuş.

2. Əməyin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş – HBŞ (9 sentyabr 1994, Moskva); 20 iyun 1996-cı ildə qəbul olunmuş.

3. Yaşadıqları dövlətdən kənarda olarkən işçilərin istehsalatda məruz qaldıqları bədbəxt hadisələrin tədqiqatı qaydası haqqında Saziş - HBŞ (9 sentyabr 1994, Moskva); 20 iyun 1996-cı ildə qəbul olunmuş.

4. Qarşılıqlı göndərilən məhsullara əməyin mühafizəsi üzrə razılaşdırılmış norma və tələblərin hazırlanması və onlara riayət edilməsi qaydası haqqında Saziş - HBŞ (12 aprel 1994, Moskva); 20 dekabr 1996-cı ildə qəbul olunmuş.

5. Böyük vətən müharibəsi iştirakçıları və əlilləri, digər dövlətlərin ərazisində gedən hərbi əməliyyatlarda iştirak edənlər, həlak olmuş hərbi qulluqçuların ailələri üçün güzəşt və təminatların qarşılıqlı tanınması haqqında Saziş - HBŞ (15 aprel 1994, Moskva); 16 iyul 1996-cı ildə qəbul olunmuş.

6. Böyük Vətən müharibəsi iştirakçılarına, müharibə illərində arxa cəbhədə çalışan zəhmətkeşlərə və həlak ol-

muş döyüşçülərin dul qadınlarına 1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 50 illiyi ilə əlaqədar olaraq əlavə güzəştlər və maddi yardım haqqında Saziş – HBŞ (9 dekabr 1994, Moskva); 16 iyul 1996-cı ildə qəbul olunmuş.

7. Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının, habelə onlara bərabər tutulan şəxslərin güzəştli gediş-gəliş hüquqlarının qarşılıqlı tanınması haqqında Saziş – HBŞ (1 mart 1993, Moskva); 28 may 1997-ci ildə qəbul olunmuş.

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

**QƏRAR**
**№27**

Bakı şəhəri, 28 fevral 2000-ci il

## İSTEHSALATDA BAŞ VERƏN BƏDBƏXT HADİSƏLƏRİN TƏHQİQİ VƏ UÇOTA ALINMASI QAYDALARININ TƏSDİQ EDİLMƏSİ HAQQINDA

“Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” “Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi uçota alınması Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar müvafiq Fərmana əsasən 1999-cu il iyun ayının1-dən qüvvəyə minir.

**A.Rasi-zadə**
Azərbaycan Respublikasının Baş Naziri

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin 2000-ci il*
*28 fevral tarixli, 27 nömrəli qərarı*
*ilə təsdiq edilmişdir*

# İSTEHSALATDA BAŞ VERƏN BƏDBƏXT HADİSƏLƏRİN TƏHQİQİ VƏ UÇOTA ALINMASI

# Q A Y D A L A R I

Bu Qaydalar "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının icrası olaraq, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 217-ci maddəsinə əsasən Azərbaycan Respublikası ərazisində istehsalatda baş verən bədbəxt hadisələrin təhqiq edilməsinin və uçota alınmasının vahid qaydasını müəyyən edir.

## 1. Ümumi qaydaları

1.1. Bu Qaydalar — qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının müvafiq hakimiyyət orqanlarının, fiziki və hüquqi şəxslərin təsis etdikləri mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublikanın ərazisində yerləşən bütün müəssisələrdə, idarələrdə, təşkilatlarda (bundan sonra — müəssisələr), eləcə də müəssisə yaradılmadan işçilərlə əmək müqaviləsi bağlanmış iş yerlərində, həmçinin onun hüdudlarından kənarda fəaliyyət göstərən Azərbaycan Respublikasının səfirliklərində, konsulluqlarında, beynəlxalq sularda Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, şelf qurğularında və

digər iş yerlərində tətbiq edilir və həmçinin işəgötürənin xammalından (materialından), istehsal vasitələrindən istifadə etməklə əmək funksiyasını evində yerinə yetirən işçilərə şamil olunur.

Bu Qaydalar Azərbaycan Respublikasının xarici dövlətlərlə, beynəlxalq təşkilatlarla bağladığı müqavilədə başqa hal nəzərdə tutulmadıqda, müvafiq xarici dövlətlərin fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların, eləcə də vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təsis etdikləri və qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatına alınıb, fəaliyyət göstərən iş yerlərində heç bir şərt qoyulmadan tətbiq edilir.

Bu Qaydalar dövlət qulluqçularına, habelə prokurorluq, polis və digər hüquq mühafizə orqanlarının qulluqçularına, onların hüquqi statusunu tənzimləyən normativ-hüquqi aktlarla müəyyən olunmuş xüsusiyyətlər nəzərə alınmaqla (əgər göstərilən aktlarla həmin qulluqçuların əmək, sosial və iqtisadi hüquqları bütünlüklə əhatə olunmayıbsa), istehsalat təcrübəsi keçən tələbə və şagirdlərə, müəssisələrdə işə cəlb edilən hərbi qulluqçulara, məhkəmə hökmlərinin icrası yerlərində işləyən məhkumlara, təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına, habelə hərbi və fövqəladə vəziyyət rejimində işlərin görülməsinə cəlb edilən şəxslərə şamil edilir.

Bu Qaydalar aşağıdakı şəxslərə şamil edilmir:

hərbi qulluqçulara (müəssisələrdə işə cəlb edilən hərbi qulluqçular istisna edilməklə);

məhkəmə hakimlərinə;

Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına və bələdiyyələrə seçilmiş şəxslərə;

xarici ölkənin hüquqi şəxsi ilə həmin ölkədə əmək müqaviləsi bağlayıb əmək funksiyasını Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisədə (filialda, nümayəndəlikdə) yerinə yetirən əcnəbilərə;

podrat, tapşırıq, komisyon, müəlliflik və başqa mülki-

hüquqi müqavilələr üzrə işləri yerinə yetirən şəxslərə.

1.2. İşçilərin səhhətinin pozulması aşağıdakı hallarda təhqiq edilməlidir:

əmək vəzifələrini yerinə yetirərkən (o cümlədən ezamiyyət zamanı), həmçinin müdiriyyətin tapşırığı olmadan belə müəssisənin mənafeyi üçün hər hansı fəaliyyət göstərərkən;

müəssisəyə məxsus və müəssisənin müqaviləsi (sifarişi) əsasında kənar təşkilatlardan verilmiş nəqliyyatda işə gedərkən, yaxud işdən qayıdarkən;

müəssisənin ərazisində, yaxud başqa iş yerində iş vaxtı müəyyən edilmiş fasilələr də daxil olmaqla, işçi işə başlamazdan əvvəlki və ya işi qurtarıb müəssisədən çıxan vaxt ərzində;

keçirildiyi yerdən asılı olmayaraq, müəssisə tərəfindən iməclik tədbirləri keçirildiyi müddətdə;

işçi qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada dövlət və ictimai vəzifələrin yerinə yetirilməsinə cəlb edildiyi müddətdə;

istehsal avadanlıqları və obyektlərində qəza zamanı;

növbə istirahətində olan işçilər (bələdçi, refrijator briqadasının işçisi, növbədə olan sürücü, dəniz, çay və hava nəqliyyatlarının ekipaj üzvləri, növbə ekspedisiya üsulu ilə işləyənlər və başqaları) növbə (vaxta) qəsəbəsinin ərazisində olduqları vaxt;

işçilər xidmət obyektlərinin arasında hərəkət etməklə (iş vaxtı ümumi istifadədə olan nəqliyyatda, yaxud piyada gedərkən, həmçinin işəgötürənin (onun vəzifəli şəxslərinin tapşırığını yerinə yetirərkən) fəaliyyət göstərdikləri müddətdə;

işəgötürənin yazılı sərəncamına əsasən, əmək vəzifələrini şəxsi minik maşınında yerinə yetirdiyi vaxt;

əmək vəzifələrini yerinə yetirərkən işçiyə başqa şəxs tərəfindən bədən xəsarətləri yetirildikdə, yaxud o öldürüldükdə;

əmək vəzifələrini yerinə yetirərkən itkin düşmə, zədə-

lənmələr, peşə xəstəlikləri və zəhərlənmələr, istivurma, yanma, donma, suda boğulma, ildırım vurma, fauna və flora növləri ilə təmas nəticəsində zədələnmələr, tibbi rəyə əsasən istehsalatda əmək şəraiti ilə əlaqəli infarkt, insult, həmçinin təbii fəlakətlər (zəlzələ, sürüşmə, daşqın, qasırğa və s.) zamanı.

1.3. İstehsalatda bədbəxt hadisə nəticəsində işçilərə vurulmuş xəsarət — əmək vəzifələrini yerinə yetirərkən işçinin bədən üzvlərinin, toxumalarının zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin pozulması halıdır.

İstehsalda bədbəxt hadisə nəticəsində işçilərə vurulmuş xəsarətlərin (zədələrin) ağırlıq dərəcələrini və yaxud ölümün başvermə səbəblərini müəyyən etmək məqsədi ilə təhqiqat komissiyasının sədri aidiyyəti müalicə-tibb idarəsinə və ya məhkəmə-tibb ekspertizasına bu barədə rəy vermələri üçün rəsmi olaraq müraciət edə bilər.

1.4. İstehsalatda bədbəxt hadisələr təhqiq edilərkən aşağıdakı hallar müəyyən edildikdə, hadisə istehsalatda baş vermiş bədbəxt hadisə kimi rəsmiləşdirilmir və uçota alınmır:

təbii ölüm, özünə qəsd, intihar hadisələri, həmçinin cinayət törədilərkən (təbii ölüm faktı məhkəmə-tibb ekspertizasının rəyi ilə, özünə qəsd, intihar və cinayət faktları isə hüquq mühafizə orqanları tərəfindən təsdiq edilməlidir), şəxsi məqsədləri üçün hər hansı işlə məşğul olarkən, dəniz istehsalat obyektlərində çimərkən, balıq ovlayarkən (əgər bu əmək fəaliyyəti ilə bağlı deyilsə), işçilərin öz təşəbbüsləri ilə nahar fasilələrində və ya işdən sonra idman tədbirləri keçirərkən işçilərin xəsarət alması və ya ölümü;

texniki spirtlərin, aromatik, narkotik və digər bu cür maddələrin istehsalat prosesində istifadəsi ilə bağlı olmayan alkoqol zəhərlənməsi və onunla bağlı ürək dayanması, insult, asfiksiya, hərəkətlərin koordinasiyasının pozulması və fikir dumanlanması səbəblərindən baş vermiş bədbəxt hadisələr.

1.5. İstehsalatda baş vermiş bədbəxt hadisə ilə əlaqədar cinayət işi qaldırılarsa, lakin sonradan cinayət hadisəsi və ya

tərkibi sübuta yetirilmədiyi, yaxud olmadığı səbəbdən xitam verilərsə və ya məhkəmə həmin iş üzrə bəraət hökmü çıxararsa, həmin bədbəxt hadisənin təhqiqatı aparılmalıdır.

İşəgötürən və ya zərərçəkən (onun vəkili və ya marağını qoruyan şəxs) Təhqiqat komissiyasının qərarı ilə razılaşmadıqda, Dövlət Əmək Müfəttişliyi Xidmətinin (DƏMX) rəhbərliyinə və ya məhkəməyə müraciət edə bilər.

1.6. İstehsalatda baş vermiş bədbəxt hadisə haqqında zərərçəkən, yaxud hadisənin şahidləri dərhal işəgötürənə (müəssisənin vəzifəli şəxslərinə) məlumat verməlidir. İşəgötürən (müəssisənin vəzifəli şəxslərinə) zərərçəkənə ilk tibbi yardım göstərilməsini, onun tibbi sanitar hissəsinə və ya digər müalicə idarəsinə çatdırılmasını təşkil etməyə, hadisə baş vermiş iş yerindəki şəraiti və avadanlıqların vəziyyətini hadisənin baş verdiyi anda olduğu kimi saxlamağa (əgər həmin şərait və vəziyyət ətrafdakı işçilərin həyatı və səhhəti üçün təhlükə törətmirsə, qəzaya səbəb olmursa) borcludur.

1.7. İşəgötürən istehsalatda baş verən bədbəxt hadisələrin ağırlıq dərəcəsindən asılı olmayaraq, hadisənin təhqiqatının aparılması üçün dərhal həmin hadisə baş verən günü Dövlət Əmək Müfəttişliyi Xidmətinin yerli bölməsinə (və ya birbaşa Dövlət Əmək Müfəttişliyi Xidmətinin aparatına), Fövqəladə Hallar Nazirliyinə (Bədbəxt hadisə təhlükə potensiallı obyektlərdə qəza nəticəsində baş vermişsə) məlumat verməyə borcludur. Eyni zamanda yuxarı mərkəzi icra hakimiyyəti orqanına və Respublika Həmkarlar İttifaqı Konfederasiyasına (əgər işçilər bu həmkarlar təşkilatının üzvüdürlərsə), məlumat verilməlidir. Məlumat telefon, yaxud teleqrafla bu Qaydalarda göstərilən 3-cü əlavəyə uyğun verilir (əlavə 3).

Tibbi-sanitar hissəsi, səhiyyə məntəqəsi, poliklinika, xəstəxana, təcili yardım və digər tibbi idarələri onlara tibbi yardım üçün müraciət edən istehsalatda xəsarət almış işçilər (o cümlədən ezamiyyətdə olanlar) barədə Dövlət Əmək Müfəttişliyi Xidmətinə məlumat verməlidirlər.

1.8. İstehsalatda bədbəxt hadisələrin təhqiqatının vaxtında aparılmasına müvafiq şəraitin yaradılmasına, İZ (İstehsalat Zədəsi) formalı aktın düzgün tərtib edilməsinə, bədbəxt hadisənin başvermə səbəblərinin aradan qaldırılması üzrə tədbirlərin yerinə yetirməsinə işəgötürənə işəgötürən cavabdehdir.

Bədbəxt hadisələri törədən səbəblərin aradan qaldırılması üzrə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsinə nəzarəti Dövlət Əmək Müfəttişliyi Xidməti həyata keçirir.

1.9. Bədbəxt hadisənin təhqiq edilməsinə əsas işəgötürənin, zərərçəkənin, mətbuat vasitələrinin, hüquq-mühafizə orqanlarının, tibb müəssisələrinin, respublikada fəaliyyət göstərən əməyin mühafizəsinə nəzarət orqanlarının və həmkarlar ittifaqları təşkilatlarının bədbəxt hadisənin baş verməsi haqqında yazılı və yaxud şifahi məlumatı ola bilər. Bu halda məlumat araşdırılır və lazımi hallarda bədbəxt hadisənin təhqiqatının aparılması üçün komissiya yaradılır.

## 2. İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması

2.1. Ağırlıq dərəcəsindən asılı olmayaraq bütün növ xəsarətlər, bir nəfərin həlak olması və qrup halında baş vermiş bədbəxt hadisələrin təhqiqatı Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisinin (və ya onun tapşırığı ilə Dövlət Əmək Müfəttişliyi Xidmətinin yerli bölməsinin) əmri ilə yaradılmış komissiya tərəfindən aparılır.

İki-dörd işçinin ölümü və əlahiddə ağır nəticəli (beş və daha artıq işçinin həlak olduğu) bədbəxt hadisələrin (qəzaların) təhqiqatı Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin əmri ilə yaradılan komissiya tərəfindən aparılır.

2.2. Xəsarətlə nəticələnmiş bədbəxt hadisələrin təhqiqatını aparmaq üçün tərkibi: sədr — Dövlət Əmək Müfəttişli-

yinin vəzifəli şəxslərindən, üzvlər — işəgötürənin və müəssisənin həmkarlar ittifaqı komitəsinin nümayəndələrindən ibarət Təhqiqat komissiyası yaradılır.

Qrup halında xəsarətlə və ya bir nəfər işçinin ölümü ilə nəticələnmiş bədbəxt hadisələrin təhqiqatını aparmaq üçün tərkibi: sədr — Dövlət Əmək Müfəttişliyi Xidmətinin vəzifəli şəxsləri, üzvlər — sahə həmkarlar ittifaqı komitəsinin, müəssisənin və yaxud onun tabeçiliyi üzrə yuxarı orqanının (əgər varsa) nümayəndələrindən ibarət Təhqiqat komissiyası yaradılır.

İki-dörd işçinin ölümü və ya əlahiddə ağır nəticəli bədbəxt hadisələrin (qəzanın) təhqiqatını aparmaq üçün tərkibi: sədr — Dövlət Əmək Müfəttişliyi Xidmətinin vəzifəli şəxslərindən (rəhbər işçilərindən), üzvlər — sahə həmkarlar ittifaqı komitəsinin (Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının), müəssisənin və ya onun tabeçiliyi üzrə yuxarı orqanının (əgər varsa) nümayəndələrindən ibarət Təhqiqat komissiyası yaradılır.

Təhqiqat komissiyasının yaradılmasına əsas bədbəxt hadisə barədə Dövlət Əmək Müfəttişliyi Xidmətinə işəgötürən tərəfindən verilən məlumat ola bilər. Əgər gizlədilmiş bədbəxt hadisə halı dövlət nəzarət orqanları, həmkarlar təşkilatı tərəfindən aşkar edilərsə və yaxud belə məlumat mətbuatdan, radio və televiziya verilişlərindən, digər mənbələrdən daxil olarsa, bədbəxt hadisənin gizlədilmə səbəbləri Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən araşdırılır və lazımi hallarda işəgötürənin iştirakı olmadan bu Qaydalara müvafiq bədbəxt hadisənin təhqiqatının aparılmasını təşkil edir.

Bu Qaydaların 2.1 bəndində göstərilən bədbəxt hadisələr Naxçıvan MR ərazisində yerləşən müəssisələrdə baş verdikdə, Təhqiqat Komissiyası Naxçıvan MR müvafiq orqanları tərəfindən yaradılır, komissiyanın tərkibi isə bu Qaydaların 2.2 bəndinə müvafiq rəsmiləşdirilir.

Xarici dövlətlərin ərazisində fəaliyyət göstərən müəssi-

sələrdə və yaxud dünya okeanında Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə işçilərlə baş vermiş bədbəxt hadisələrin təhqiqatı, həmin müəssisənin (gəminin) rəhbərlərinin əmri ilə tərkibi müəssisə işçilərindən ibarət yaradılmış komissiya tərəfindən təhqiq edilir. Təhqiqatın nəticəsi olaraq tərtib olunmuş akta bu Qaydaların 3.5 bəndində göstərilən sənədlər əlavə edilərək Dövlət Əmək Müfəttişliyi Xidmətinə göndərilir.

Bədbəxt hadisə baş vermiş sahədə əməyin təhlükəsizliyinə bilavasitə cavabdeh şəxs təhqiqat komissiyasına üzv ola bilməz.

Azərbaycan Respublikasının əmək və əməyin mühafizəsi sahəsində tərəfdar çıxdığı Beynəlxalq Sazişə (müqaviləyə) əsasən Azərbaycan Respublikası ərazisində əmək vəzifələrini yerinə yetirərkən xarici ölkə vətəndaşları ilə baş vermiş bədbəxt hadisələrin təhqiqatı bu Sazişdə (müqavilədə) nəzərdə tutulmuş qaydada aparılır.

2.3. İşəgötürən tərəfindən bu Qaydaların 1.7 bəndində nəzərdə tutulmuş orqanlara haqqında məlumat verilməmiş, həmçinin əmək qabiliyyətinin dərhal itirilməsi ilə nəticələnməmiş bədbəxt hadisə baş verdiyi vaxtdan sonra işçi əmək qabiliyyətini itirərsə (ölərsə), zərərçəkənin, yaxud onun mənafeyini təmsil edən şəxsin ərizəsi əsasında, ərizə verilən gündən bir ay müddətində həmin bədbəxt hadisə bu Qaydalara əsasən təhqiq edilir.

2.4. Müəssisədə başqa təşkilat tərəfindən onun tapşırığını yerinə yetirmək və xidməti vəzifələrini icra etmək üçün göndərilmiş işçi ilə baş vermiş bədbəxt hadisə, müəssisənin və zərərçəkənin mənsub olduğu təşkilatın nümayəndəsinin iştirakı ilə təhqiq edilir. İZ formalı aktın 3-cü bəndində işçini göndərən təşkilatın adı göstərilir. Bədbəxt hadisə zərərçəkənin mənsub olduğu təşkilat tərəfindən uçota alınır.

2.5. Təhqiqat komissiyası bədbəxt hadisənin səbəbini və iş yerinin şəraitini təhqiq edir, əməyin mühafizəsi və təh-

lükəsizlik texnikası qaydalarının standartlarının pozulmasına yol vermiş şəxsləri aşkar edir. Hadisənin şahidlərindən və zərərçəkəndən izahatlar alır, bədbəxt hadisənin səbəblərini və onların aradan qaldırılması üzrə tədbirləri göstərməklə lazımi nüsxələrdən ibarət tədqiqat aktı tərtib edir və müəssisə tərəfindən hadisə barədə İZ formalı aktın düzgün olmasına nəzarət edir.

2.6. Bədbəxt hadisənin təhqiqatı başa çatdıqdan sonra işəgötürən tərəfindən bir gündən gec olmayaraq qanunvericiliklə müəyyən edilmiş qaydada İZ formalı akt tərtib edilməli və onun 1 nüsxəsi mütləq zərər çəkən işçiyə təqdim olunmalıdır.

Qaydaların 2.4 bəndində göstərilən halda İZ formalı aktın 1 nüsxəsi zərərçəkənin əmək müqaviləsində olduğu müəssisəyə göndərilir.

İşçinin əmək qabiliyyətinin bir gündən artıq müddətə itirilməsinə və ya tibbi rəy əsasında gündən artıq müddətə başqa işə keçirilməsinə səbəb olmuş bədbəxt hadisə İZ formalı aktla rəsmiləşdirilir (əlavə 1) və istehsalatda bədbəxt hadisələrin qeyd jurnalında qeydə alınır (əlavə 2).

Təhqiqat komissiyası İZ formalı aktın işəgötürən tərəfindən düzgün tərtib olunmadığını müəyyən edərsə, onun yenidən tərtib edilməsini tələb etmək hüququna malikdir.

Bədbəxt hadisənin təhqiqat materialları İZ formalı aktla birlikdə bədbəxt hadisənin qeydə alındığı müəssisədə 45 il müddətində saxlanılmalıdır.

Başqa instansiyalara göndərilmiş İZ formalı aktlar və onların surətləri lazım olmayanadək və onlarda nəzərdə tutulmuş bütün tədbirlər yerinə yetirilənədək saxlanılır.

2.7. Zərərçəkənin əmək qabiliyyətinin müvəqqəti itirilməsi vaxtı qurtaran kimi, hadisə baş vermiş müəssisənin (bölmənin) rəhbəri İZ formalı aktın bədbəxt hadisənin nəticələri haqqında 14-cü bəndini doldurur və bu barədə Dövlət Əmək Müfəttişliyi Xidmətinə məlumat göndərir (əlavə 3).

2.8. İşəgötürən tərəfindən müvəqqəti olaraq işləmək üçün başqa təşkilata göndərilmiş və yaxud əvəzçilik üzrə çalışan işçi ilə baş vermiş bədbəxt hadisənin təhqiqatı, bu işçinin müvəqqəti işlədiyi, yaxud əvəzçilik üzrə çalışdığı təşkilatın və əsas iş yerinin nümayəndələrinin iştirakı ilə aparılır və hadisə baş vermiş müəssisə tərəfindən uçota alınır.

2.9. Müəssisə ilə hərbi birləşmə arasındakı saziş, yaxud müqavilə üzrə obyektlərində işlərə cəlb edilmiş və həmin işləri müəssisənin məsul işçilərinin rəhbərliyi ilə yerinə yetirən hərbi hissənin şəxsi heyəti ilə baş vermiş bədbəxt hadisələrin təhqiqatı, iş gördürən müəssisənin və həmin hissənin komandanlığının nümayəndələrinin iştirakı ilə aparılır. Bədbəxt hadisə müəssisə tərəfindən uçota alınır.

2.10. Müəssisədə müqavilə əsasında əməyə cəlb edilmiş və işi onun məsul işçilərinin rəhbərliyi ilə yerinə yetirən, islah əmək müəssisəsində (İƏM), islah-müalicə müəssisəsində (İMM) və tərbiyə-əmək müəssisəsində (TƏM) saxlanılan şəxlərlə baş vermiş hadisələr müvafiq olaraq İƏM, İMM və TƏM nümayəndələrinin iştirakı ilə təhqiq edilir. Bədbəxt hadisə müəssisə tərəfindən uçota alınır.

İslah əmək müəssisəsinin, islah-müalicə müəssisəsinin və tərbiyə-əmək müəssisəsinin istehsalat sahələrində və yaxud təsərrüfat işlərində baş vermiş bədbəxt hadisə Azərbaycan Respublikasının aidiyyəti Nazirliyinin müəyyən etdiyi qaydada təhqiq edilir və uçota alınır.

2.11. Avtomobil nəqliyyatı müəssisəsi və başqa müəssisə tərəfindən müxtəlif təşkilatlardan cəlb etməklə təşkil edilmiş avtomobil qatarının tərkibində işlərə göndərilən avtomobil sürücüləri ilə baş vermiş bədbəxt hadisənin təhqiqatı, sürücünün daimi iş yerinin nümayəndəsinin iştirakı ilə aparılır və hadisə baş vermiş müəssisə tərəfindən uçota alınır.

2.12. Müəssisənin məsul işçilərinin rəhbərliyi ilə təcrübə keçən və ya iş icra edən ali təhsil, orta ixtisas təhsili, peşə təhsili və ümumi təhsil müəssisələrində təhsil alanları ilə

baş vermiş bədbəxt hadisələrin təhqiqatı təhsil müəssisə nümayəndəsinin iştirakı ilə aparılır və ərazisində hadisə baş vermiş müəssisə tərəfindən uçota alınır.

Rəsmi razılıq əsasında müəssisədə təhsil müəssisələrinin məsul işçilərinin rəhbərliyi ilə təcrübə keçən və ya iş icra edən ali təhsil, orta ixtisas təhsili, peşə təhsili və ümumi təhsil müəssisələrinin təhsil alanları ilə baş vermiş bədbəxt hadisələrin təhqiqatı müəssisənin və təhsil müəssisəsi nümayəndələrinin iştirakı ilə aparılır və təhsil müəssisəsi tərəfindən uçota alınır.

2.13. Təsdiq edilmiş İZ formalı aktın bir nüsxəsi bu Qaydaların 2.8; 2.9; 2.10; 2.11; 2.12 bəndlərində göstərilən hallarda zərərçəkənin əsas iş, xidməti və təhsil yerinə və s. göndərilir.

## 3. Təhqiqat komissiyasının işinin təşkili

3.1. Təhqiqat komissiyası əmək qanunvericiliyinə və bu Qaydaya əsasən bədbəxt hadisənin təhqiqatının aparılması müddətinə, müvəqqəti olaraq yaradılır.

Təhqiqat komissiyası heyətinin ezamiyyə xərcləri hər bir komissiya üzvünün mənsub olduğu təşkilat tərəfindən (verilmiş əmrə əsasən) ödənilir, təhqiqat işinin gedişi dövründə onun aparılması ilə əlaqədar ortaya çıxan digər əlavə xərclər isə hadisə baş vermiş müəssisə və ya onun tabeçiliyi üzrə yuxarı orqanı tərəfindən ödənilir.

Təhqiqat komissiyasının yekun sənədi (akt) komissiyanın bütün üzvləri tərəfindən imzalanır. Akt tərtib edilən zaman komissiyanın hər bir üzvü öz rəyini yazılı şəkildə komissiyanın sədrinə təqdim edir.

Baş vermiş bədbəxt hadisələrin təhqiqatı komissiya tərəfindən 20 gün müddətinə aparılır və xüsusi təhqiqat aktı tərtib edilir (əlavə 4). Zəruri hallarda, Təhqiqat komissiyası sədrinin əsaslandırılmış müraciətinə əsasən bu müddət ko-

missiyanın yaradılması barədə sərəncam (əmr) verən orqan tərəfindən artırıla bilər.

Komissiyanın üzvləri zərərçəkənlərlə və ya onların ailə üzvləri ilə görüşərək, bədbəxt hadisə ilə əlaqədar qüvvədə olan qanunvericiliyə müvafiq, onların hüquqlarını izah etməlidir.

3.2. Təhqiqat komissiyasının tələbi ilə işəgötürən aşağıdakıları təmin etməyə borcludur:

bədbəxt hadisənin təhqiqatında iştirak etmək üçün mütəxəssis-ekspertlər dəvət etmək;

texniki-hesablamalar, laboratoriya təhqiqatları, sınaqlar və başqa aidiyyəti işlərin aparılmasını təşkil etmək;

bədbəxt hadisənin baş verməsinə səbəb olmuş obyektin, bədbəxt hadisənin yerinin fotoşəklini və komissiyanın işinə lazımi digər materialları təqdim etmək;

təhqiqat üçün lazım olan nəqliyyat və rabitə vasitələrini təmin etmək;

bədbəxt hadisənin xüsusi təhqiqat materiallarının çap edilməsini, lazım olan miqdarda çoxaldılmasını təmin etmək.

3.3. Dəvət olunmuş mütəxəssislər tərəfindən texniki hesablamaların, laboratoriya təhqiqatlarının, sınaqların və başqa işlərin aparılması üçün xərcləri hadisənin baş vermiş olduğu müəssisə ödəyir.

3.4. Təhqiqat komissiyasının üzvləri təhqiqatın gedişində müəssisənin, onun struktur bölmələrinin rəhbərlərindən, şahidlərdən və digər şəxslərdən yazılı izahatlar almaq hüququna malikdirlər.

Təhqiqat komissiyasının sədri zərərçəkənin aldığı xəsarətin xarakteri ilə ağırlıq dərəcəsi, ölümünün səbəbləri haqqında müalicə-profilaktika idarəsinin, məhkəmə-tibb ekspertizasının rəyini almaq hüququna malikdir.

Təhqiqat zamanı, zəruri hallarda Təhqiqat komissiyası sədrinin sərəncamı ilə ekspert dəvət olunur və yaxud ekspert komissiyası yaradılır. Ekspert və ya ekspert komissiyası

aparılan ekspertizanın nəticəsi barədə rəsmi rəy verməlidir.

3.5. Təhqiqat aktına aşağıdakı sənədlər əlavə olunmalıdır:

hər bir zərərçəkən üçün İZ formalı aktın surəti;

hadisə yerinin planı, sxemləri (eskizləri), müşahidə protokolları və fotoşəkilləri;

sorğu protokolları;

bədbəxt hadisənin şahidlərinin və digər aidiyyəti şəxslərin, eləcə də dövlət standartlarının, əməyin təhlükəsizliyi standartlarının, əməyin mühafizəsi üzrə qayda və normaların tələblərinə riayət edilməsinə cavabdeh olan vəzifəli şəxslərin izahatları;

ekspert komissiyasının yaradılması barədə sərəncam (qərar, əmr);

zərərçəkənin təlim keçməsi və təlimatlandırılması haqqında sənədlərdən çıxarış;

zərərçəkənin aldığı xəsarətin xarakteri və ağırlıq dərəcəsi, ölümünün səbəbləri haqqında tibbi rəy;

bədbəxt hadisənin səbəbləri haqqında ekspert komissiyasının rəyi (lazım gəldikdə), laboratoriya təhqiqatlarının və başqa təhqiqatların, təcrübələrin, analizlərin və s. nəticələri;

qəza ilə əlaqədar olaraq dəymiş maddi ziyan haqqında arayış;

təhqiqat komissiyasının yaradılması haqqında əmrin (sərəncamın) surəti;

təhlükəsiz əmək şəraitinin təmin edilməsi üzrə tədbirlər və bunun üçün məsul şəxsləri müəyyən edən təlimatlardan, əsasnamələrdən, əmrlərdən, digər aktlardan çıxarışlar və Fövqəladə Hallar Nazirliyinin (FHN) texniki təhqiqat aktının surəti.

Siyahıya Təhqiqat komissiyası üzvlərinin xüsusi rəylərinin surətləri (belə hal olduqda) əlavə olunur.

3.6. Bədbəxt hadisə Dövlətdağmədəntexnəzarət Komitəsinin nəzarəti altında olan obyektdə qəza nəticəsində baş

vermişsə, qəzanın başvermə səbəbləri barədə komitənin tərtib etdiyi akt Təhqiqat komissiyasına təqdim olunur.

3.7. Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən təhqiqat materialları Təhqiqat komissiyası üzvlərinin təmsil etdiyi müəssisə, təşkilat və orqanlara icra və məlumat üçün göndərilir.

## 4. Bədbəxt hadisələr haqqında hesabat və onların başvermə səbəblərinin təhlili

4.1. Təhqiqat komissiyası toplanmış materiallar əsasında bədbəxt hadisənin baş verməsində işəgötürən (onun vəzifəli şəxsləri) və zərərçəkən (zərərçəkənlər) tərəfindən əməyin mühafizəsi və texniki təhlükəsizlik üzrə qanunvericilik aktlarının, qaydaların, vəzifə (peşə) üzrə təlimatların hansı nisbətdə pozulmasını müəyyən edib Təhqiqat aktında göstərməlidir.

4.2. İşəgötürən hər ilin sonunda İZ formalı aktlara əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (DSK) tərəfindən müəyyən edilmiş formalarda istehsalatda bədbəxt hadisələr nəticəsində zərərçəkənlər haqqında hesabat tərtib edir.

4.3. İşəgötürən istehsalatda baş vermiş bədbəxt hadisənin səbəblərinin təhlili, onların sex və digər bölmələrin əmək kollektivlərində müzakirəsini, istehsalatda bədbəxt hadisələrin qarşısının alınması üzrə tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təmin etməyə borcludur.

4.4. Bədbəxt hadisə baş vermiş nazirlik, baş idarə və digər müstəqil iri təşkilat strukturu və müəssisə rəhbərləri bədbəxt hadisənin nəticələrini müzakirə edir və gələcəkdə qarşısının alınması üzrə tədbirlər hazırlayır, yerinə yetirilməsini təmin edir.

4.5. İşəgötürən bədbəxt hadisələrin xüsusi təhqiqat materiallarını öyrənməyə, Təhqiqat komissiyası tərəfindən

təklif edilmiş bədbəxt hadisəyə gətirib çıxarmış səbəblərin aradan qaldırılması haqqında tədbirlərin yerinə yetirilməsinə və əməyin mühafizəsi tələblərinin pozulmasına yol vermiş şəxslərin cəzalandırılması barədə müvafiq əmr (sərəncam) verməyə borcludur.

İşəgötürən Təhqiqat komissiyası tərəfindən müəyyən edilmiş tədbirlərin yerinə yetirilməsi barədə müddət başa çatdıqdan sonra Dövlət Əmək Müfəttişliyi Xidmətinə və həmçinin digər dövlət nəzarəti orqanlarının obyektləri üzrə isə onların yerli orqanlarına məlumat verməlidir.

4.6. Qrup halında və ölümlə nəticələnmiş bədbəxt hadisələr təhqiqat materiallarına əsasən yuxarı tabeçilik orqanlarında, Dövlət Əmək Müfəttişliyi Xidmətində və digər dövlət nəzarəti orqanlarında müzakirə edilməlidir.

4.7. Ağır nəticəli (iki və daha artıq işçinin həlak olması) bədbəxt hadisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (və yaxud onun tapşırığı ilə Dövlət Əmək Müfəttişliyi Xidmətində), Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının (AHİK) və Fövqəladə Hallar Nazirliyinin (bədbəxt hadisə təhlükə potensiallı obyektlərdə baş vermişsə) nümayəndələrinin iştirakı ilə müzakirə olunur, lazım gəldikdə Azərbaycan Respublikası Nazirlər Kabinetinə məlumat verilir.

4.8. Azərbaycan Respublikası üzrə bədbəxt hadisələrin uçotu müəssisələrdə, Dövlət Əmək Müfəttişliyi Xidmətində, Dövlət Statistika Komitəsində aparılır.

Aşağıda "İstehsalatda baş vermiş bədbəxt hadisə haqqında akt", "İstehsalatda baş vermiş bədbəxt hadisələrin uçotu jurnalı", "İstehsalatda baş vermiş bədbəxt hadisə haqqında məlumat" və "İstehsalatda baş vermiş bədbəxt hadisənin təhqiqat aktının tərtib olunmasına dair nümunə" və izahat verilir.

İZ forması

"Təsdiq edirəm"

_______________________________________

_______________________________________

_______________________________________

*(müəssisənin adı, təsdiq edən vəzifəli şəxsin soyadı, adı, imzası, möhür)*

# İSTEHSALATDA BAŞ VERMİŞ BƏDBƏXT HADİSƏ HAQQINDA

# AKT № ______

1. Müəssisənin tabeçiliyi üzrə yuxarı orqanı _______________
2. Müəssisənin adı __________________________________________
2.1. Müəssisənin ünvanı: ____________________________________

______________________________________________________________

*(şəhər, rayon, qəsəbə, kənd, küçə, ev)*

2.1.1. Bədbəxt hadisənin baş verdiyi sex, sahə, yer _________

______________________________________________________________

3. İşçini göndərmiş müəssisə _______________________________

______________________________________________________________

*(adı, ünvanı, tabeçiliyi üzrə yuxarı təsərrüfat orqanı)*

4. Zərərçəkənin soyadı, adı, atasının adı __________________

______________________________________________________________

5. Cinsi (qadın, kişi) ______________________________________
6. Yaşı _____________________________________________________

*(illərin tam sayını göstərməli)*

7. Peşəsi (vəzifəsi) ________________________________________
8. Bədbəxt hadisə baş verərkən yerinə yetirdiyi peşə (vəzifə) üzrə iş stajı ________________________________________

____________________________________________________________

____________________________________________________________

9. Axırıncı dəfə əməyin təhlükəsizliyi üzrə keçirilən təlimatın tarixi ________________________________________

9.1. Giriş təlimatı __________________________________________

9.2. İlkin (təkrar) təlimat____________________________________

9.3. Biliyin yoxlanılması ____________________________________

10. Bədbəxt hadisənin başvermə tarixi və vaxtı ____________

____________________________________________________________

*(gün, ay, il, saat)*

____________________________________________________________

*(işin başlanğıcından sonrakı tam saatların sayı)*

11. Bədbəxt hadisənin təfsilatı ______________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

12. Əmək qanunvericiliyi pozuntusuna yol vermiş şəxslər

____________________________________________________________

*(onlar tərəfindən qanunvericilik və normativ hüquqi sənədlərin pozulan bəndləri göstərilməlidir)*

13. Bədbəxt hadisənin şahidləri ____________________________

____________________________________________________________

Təhqiqat aktı ______________________________tərtib edilmişdir.

*(gün, ay, il)*

İşəgötürənin vəzifəli şəxsi __________________________________

*(vəzifəsi, adı, soyadı, imza)*

Əməyin mühafizəsi xidmətinin rəisi (onun vəzifələrini icra edən mühəndis, mütəxəssis)

____________________________________________________________

*(imza, adı, soyadı)*

Müəssisənin həmkarlar ittifaqı komitəsinin nümayəndəsi

____________________________________________________________

*(imza, adı, soyadı)*

14. Bədbəxt hadisənin nəticələri __________________ müddətə yüngül işə keçirilmişdir.
14.1. Başqa işə keçirilərkən əvvəlki əmək haqqına əlavə ödənişlərin məbləği ______________________ manat təşkil edir.
14.2. Əmək qabiliyyətini itirməsi barədə xəstəlik vərəqəsi, yaxud müalicə idarəsinin arayışı üzrə ______________ diaqnozu ilə _______ tarixdən ______________ tarixədək işdən azad edilmişdir.
14.3. Əmək qabiliyyətini müvəqqəti itirmə müddəti

_______________________________________________________________

*(təqvim günlərinin sayı)*

Əmək qabiliyyətini itirmə vərəqəsi üzrə ____________________ manat müavinət ödənilmişdir.
14.4. Bədbəxt hadisənin son nəticəsi ________________________

_______________________________________________________________

*(zərərçəkən yüngül işə keçirilmişdir, sağalmışdır,*

_______________________________________________________________

*I, II, III qrub əlillik müəyyən edilmişdir, ölmüşdür)*

15. Xarab olmuş avadanlıq və alətin dəyəri _________________

_______________________________________________________________

15.1. Dağıdılmış binalar və qurğuların dəyəri

_______________________________________________________________

*(manat)*

15.2. Ümumi ziyan (manat) _________________________________

*(15, 15.1 sətrlərinin cəmi)*

işəgötürənin vəzifəli şəxsi __________________________________

*(imza, adı, soyadı)*

Baş mühasib _________________________________________________

*(imza, adı, soyadı)*

***2 nömrəli əlavə***

# İstehsalatda bədbəxt hadisələrin uçot journalı

______________________________

*(müəssisənin adi)*

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |

1. Sıra nömrələri
2. Bədbəxt hadisənin tarixi
3. Zərərçəkənin soyadı, adı, atasının adı, doğulduğu il, iş stajı
4. Peşəsi (vəzifəsi)
5. Bədbəxt hadisənin baş vermiş olduğu yer (sex, sahə, obyekt)
6. Bədbəxt hadisənin şəraiti və səbəblərinin qısa izahı.
7. İZ formalı aktın nömrəsi, tərtib edildiyi tarix.
8. Bədbəxt hadisənin nəticələri.
9. Görülmüş tədbirlər.

# İstehsalatda baş vermiş bədbəxt hadisə haqqında

# MƏLUMAT

Müəssisənin və onun tabe olduğu yuxarı orqanın adı
_______________________________________________
Hadisənin baş verdiyi tarix, vaxt ____________________
*(il, ay, gün saat)*
Hadisənin baş verdiyi şərait (hadisə baş verərkən yerinə yetirilən işin və ya istehsalat qəzasının təsviri)
_______________________________________________
_______________________________________________
Bədbəxt hadisənin nəticəsi _______________________
Bədbəxt hadisədən zərərçəkənlərin ümumi sayı ________
_______________________________________________
o cümlədən həlak olanların sayı __________________
Zərərçəkənlərin (həlak olanların) soyadı, adı, atasının adı, yaşı, peşəsi, vəzifəsi __________________________
Məlumatı imzalayan vəzifəli şəxs ________________
_______________________________________________
*(vəzifəsi, soyadı, adı, atasının adı, imza, tarix, saat)*

# İstehsalatda baş vermiş bədbəxt hadisənin təhqiqat aktının tərtib olunmasına dair izahat

_______________________________________________
*(müəssisənin tabeçiliyi üzrə yuxarı orqanın adı,*
_______________________________________________
*zərərçəkənin iş yeri, peşəsi, vəzifəsi, soyadı, atasının adı)*

“___”__________ il tarixdə, saat ____ baş vermiş ________

______________________________________________________________
*(xəsarətin növü və ya nəticəsi)*

nəticələnmiş bədbəxt hadisənin (bədbəxt hadisə ilə nəticələnmiş qəzanın)

## TƏHQİQAT AKTI

______________________________________________________________
*(təhqiqat komissiyasının yaradılması barədə əmr (sərəncam))*
___________________________________________ ilə təyin edilmiş.
*(vermiş orqanın adı, əmrin (sərəncamın) verilmə tarixi və nömrəsi)*
tərkibində sədr ___________________________________________
*(soyadı, adı, atasının adı, tutduğu vəzifə, iş yeri)*
və üzvlər _______________________________________________
*(soyadları, adları, atalarının adı, tutduqları vəzifə, iş yeri)*
______________________________________________________________
olan komissiya, dəvət olunmuş mütəxəssislərin __________
______________________________________________________________
*(soyadları, adları, atalarının adı, tutduqları vəzifə)*
_________iştirakı ilə ______il "___"____________ tarixdən _____il "____"_______ tarixədək həmin bədbəxt hadisənin təhqiqatını apardı və bu aktı tərtib etdi.

1. *Zərərçəkən (zərərçəkənlər) barədə məlumat*

Soyadı, adı, atasının adı, doğulduğu il, peşəsi, vəzifəsi, ümumi və peşəsi üzrə (o cümlədən həmin müəssisədə) iş stajı, təlim, təlimat keçdiyi və təhlükəsizlik texnikası üzrə biliyinin yoxlanıldığı vaxt, zərərçəkənin ailə vəziyyəti, onun öhdəsində olan ailə üzvləri haqqında məlumat (soyadı, adı, atasının adı, doğulduğu il, zərərçəkənlə qohumluq münasibəti).

2. *Müəssisənin, sahənin, iş yerinin xarakteristikası*

Bədbəxt hadisənin baş vermiş olduğu yerin qısa xarakteristikası verilməli, zərərçəkənə hansı təhlükəli və zərərli istehsal amillərinin təsir edə biləcəyi göstərilməlidir.

Əgər bədbəxt hadisə obyektdə qəza nəticəsində baş vermişsə, akta əlavə olaraq aşağıdakılar daxil edilir:

obyektin xarakteristikası (qazanxana nəzarəti obyektləri və qaldırıcı qurğular üçün — obyektin adı, tipi, onun əsas parametrləri, müəssisə nömrəsi, istehsal edən müəssisə, istehsal edildiyi və quraşdırıldığı il, axırıncı baxış və yoxlama tarixləri, eləcə də təyin edilmiş baxış müddəti);

qəzanın kateqoriyası və xarakteri haqqında məlumat;

qəzanın vurduğu ziyan (manatla), məhsul itkisi (natural ifadə ilə və manatla) haqqında məlumat.

3. *Bədbəxt hadisənin şəraiti*

Bədbəxt hadisədən qabaq nə olduğu, əmək prosesinin necə getdiyi, həmin prosesə kimin rəhbərlik etmiş olduğu göstərilməli, zərərçəkənin (zərərçəkənlərin) və bədbəxt hadisə ilə əlaqədar olan digər şəxslərin hərəkətləri təsvir edilməli, hadisələr ardıcıllıqla ifadə edilməli, zədə yetirmiş olan təhlükəli (zərərli) istehsal amili, maşın, alət yaxud avadanlıq göstərilməlidir. Zərərçəkənin sərxoş vəziyyətdə olub-olmadığı qeyd edilməlidir.

4. *Bədbəxt hadisənin səbəbləri*

Bədbəxt hadisənin əsas texniki və təşkilati səbəbləri göstərilməli, əməyin mühafizəsi üzrə təlimatların, işlərin təhlükəsiz aparılması üzrə təlimat və normaların hansı tələblərinin pozulması (müvafiq maddələrə, paraqraflara, bəndlərə istinad edilməli, eləcə də dövlət standartlarının pozulması konkret ifadə edilməli, hansı təhlükəli və zərərli istehsal amillərinin yol verilən normadan, yaxud səviyyədən artıq olduğu) göstərilməlidir.

5. Bədbəxt hadisənin səbəblərinin aradan qaldırılması üzrə tədbirlər.

Bu bölmədə hadisənin baş verməsinə səbəb olmuş amillərin aradan qaldırılması və gələcəkdə baş verməməsi üzrə tədbirlər göstərilir.

| Sıra №-si | Tədbirlərin adı | İcra müddəti | İcraçı | Qeyd |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

6. Əməyin mühafizəsi üzrə qanunvericilik aktlarının və qaydalarının pozulmasına yol vermiş şəxslər haqqında komissiyanın rəyi

Bu bölmədə bədbəxt hadisəyə (bədbəxt hadisə ilə nəticələnmiş qəzaya) gətirib çıxarmış hərəkətlərinə, yaxud fəaliyyətsizliklərinə görə cavabdeh olan şəxslərin adları çəkilməli, əməyin mühafizəsi üzrə qanunvericilik aktlarının, qaydaların, vəzifə üzrə təlimatların, dövlət nəzarəti orqanlarının təsdiq etmiş olduğu digər normativ sənədlərin onlar tərəfindən hansı dərəcədə pozulması (faiz nisbətində), riayət olunmamış maddələri, paraqrafları, bəndləri göstərilməlidir.

Təhqiqat komissiyasının sədri ______________________________

*(imza, tarix)*

üzvləri ______________________________________________________

*(imzalar, tarix)*

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

## “Azərbaycan Respublikasının ərazisində hava damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə Qaydaları”nın təsdiq edilməsi barədə

Əhalinin həyat və sağlamlığının qorunmasını təmin etmək məqsədilə “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü, 25-ci maddələrinə və “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
Azərbaycan Respublikasının Baş Naziri

Bakı şəhəri, 1 may 2020-ci il,
№ 161

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2020-ci il 1 may tarixli 161 nömrəli
Qərarı ilə təsdiq edilmişdir.

# Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü, 25-ci maddələrinə və "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarına əsasən hazırlanmışdır və hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklərin (bundan sonra – yoluxucu xəstəlik) əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandığı zaman yoluxma riski olan və ya yoluxduğu güman edilən şəxslərin və yoluxucu xəstəlik faktı təsdiq edilmiş şəxslərlə təmasda olan şəxslərin karantin nəzarətinə götürülməsi qaydalarını müəyyən edir.

1.2. Hava-damcı yolu ilə keçən və karantin tədbirləri nəzərdə tutulan yoluxucu xəstəliklərin siyahısını Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələri, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra – Nazirlik) və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (bundan sonra – Agentlik) təklifləri əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti (bundan sonra – Nazirlər Kabineti) müəyyən edir.

1.3. Bu Qaydalar aşağıdakı şəxslərə şamil olunur:

1.3.1. yoluxucu xəstəliklərin yayıldığı xarici ölkələrdən Azərbaycan Respublikasının ərazisinə gələn şəxslərə;

1.3.2. yoluxucu xəstəliyə yoluxma faktı təsdiq edilmiş şəxslərlə təmasda olan şəxslərə.

1.4. Bu Qaydalar Nazirlər Kabinetinin müəyyən etdiyi xüsusi sanitar rejim müddətində tətbiq edilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

2.1.1. karantin müəssisəsi – xəstəxanalar və digər tibb müəssisələri, sanatoriya-kurort müəssisələri, habelə bu məqsədlər üçün uyğunlaşdırılmış mehmanxanalar (hotellər) və mehmanxana tipli digər obyektlər, istirahət müəssisələri, stadionlar, idman zalları, müvəqqəti çadır düşərgələri;

2.1.2. yoluxma riski olan və ya yoluxduğu güman edilən şəxs (bundan sonra – yoluxduğu güman edilən şəxs) – yoluxucu xəstəliklərin yayıldığı ölkələrdən Azərbaycan Respublikasının ərazisinə gələn şəxslər;

2.1.3. təmasda olan şəxs – yoluxucu xəstəliyə yoluxma faktı təsdiq olunmuş şəxslə həmin xəstəliyə yoluxmaya səbəb ola biləcək müddətdə və şəraitdə fiziki təmasda olmuş şəxs;

2.1.4. karantin nəzarəti – yoluxucu xəstəliyə yoluxma faktının erkən aşkar edilməsi və həmin xəstəliyə xas olan əlamətlərin müşahidə olunması məqsədilə yoluxduğu güman edilən və təmasda olan şəxslərin digər şəxslərdən təcrid edilməsi;

2.1.5. karantin yeri – yoluxması güman edilən şəxslərin karantin nəzarətində saxlandıqları karantin müəssisələri və ya onların yaşadıqları, yaxud olduqları yer;

2.1.6. tibbi çeşidləmə müəssisəsi – yoluxucu xəstəliyin

yayılmasının qarşısının alınması, vaxtında zəruri tibbi yardım göstərilməsi və profilaktik tədbirlər görülməsi məqsədilə yoluxduğu güman edilən şəxslərin çeşidlənməsi üçün ayrılmış tibb müəssisələri;

2.1.7. risk qrupunda olan şəxslər – hamilə qadınlar, uşaqlar, yaşı 65-dən yuxarı olan şəxslər, immun sistemi zəif olan şəxslər, habelə yoluxucu xəstəliyi ağırlaşdıran xəstəlikləri olan şəxslər.

## 3. Yoluxduğu güman edilən şəxslərin karantin müəssisəsində yerləşdirilməsi

3.1. Yoluxduğu güman edilən şəxslər bu Qaydaların 3.8-ci bəndində göstərilənlər istisna olmaqla, sərhəd buraxılış məntəqəsindən birbaşa həmin yoluxucu xəstəlik üçün ÜST-nin tövsiyələri nəzərə alınmaqla, hər bir xəstəliyin xüsusiyyətlərindən asılı olaraq Nazirlər Kabinetinin müəyyən etdiyi müddətdə karantin müəssisələrinə yerləşdirilirlər.

3.2. Karantin müəssisəsinə yerləşdirilən şəxs ÜST-nin tövsiyələri nəzərə alınmaqla və Azərbaycan Respublikasında qüvvədə olan sanitariya-gigiyena qaydalarına və normalarına uyğun olaraq laboratoriya müayinəsindən keçirilir. Laboratoriya müayinələrinin keçirilməsi zərurəti, onların sayı və keçirilməsi tezliyi yoluxucu xəstəliyin xüsusiyyətlərindən asılı olaraq müəyyən edilir.

3.3. Yoluxucu xəstəliyin xüsusiyyətindən asılı olaraq, laboratoriya müayinəsinin keçirilməsi tələb olunduqda, yoluxduğu güman edilən şəxslər ən azı 2 (iki) dəfə – karantin müəssisəsinə yerləşdirildikdə və karantin nəzarətinin sonunda laboratoriya müayinəsindən keçirilirlər. İlkin laboratoriya müayinəsinin nəticəsi neqativ olduqda, həmin şəxslər bu Qaydaların 3.1-ci bəndi ilə müəyyən edilmiş müddətin qalan hissəsi ərzində yaşadıqları və ya olduqları yerdə bu Qaydaların 4.5-ci bəndində göstərilənlərə riayət etməklə

karantin nəzarətinə götürülürlər. Karantin nəzarətinin müddəti başa çatdığı vaxt aparılan sonuncu laboratoriya müayinəsinin nəticələri əldə olunana qədər karantin nəzarətinə götürülmüş şəxs karantin müəssisəsində saxlanılır.

3.4. Karantin müəssisəsinə yerləşdirilmiş şəxsə onun hüquq və vəzifələri, yerləşdirildiyi müəssisədəki şərait və ona göstəriləcək xidmətlər, karantin nəzarətinin müddəti və onda yoluxucu xəstəlik aşkar edildiyi halda görüləcək tədbirlər barədə məlumat verilməlidir.

3.5. Karantin müəssisəsinə yerləşdirilmiş şəxs əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda, bu Qaydaların 3.4-cü bəndində göstərilən məlumatlar, habelə onun vətəndaşı olduğu və ya daimi yaşadığı ölkənin Azərbaycan Respublikasındakı səfirliyinin və ya konsulluğunun əlaqə məlumatları, həmin şəxsə onun başa düşdüyü dildə verilməlidir.

3.6. Karantin müəssisəsində yerləşdirilmiş şəxslərin sağlamlıq vəziyyətinə nəzarət ən azı hər 12 (on iki) saatdan bir olmaqla, onlara təhkim edilmiş tibb işçiləri tərəfindən təmin olunur.

3.7. Karantin müəssisəsində yerləşdirilmiş şəxsin sağlamlıq vəziyyətində yoluxucu xəstəliyə xas olan dəyişiklik (temperaturun yüksəlməsi, respirator əlamətlər və s.) müşahidə olunduğu halda, həmin şəxs dərhal digər şəxslərdən təcrid olunmalı və laboratoriya müayinəsindən keçirilməklə tibbi çeşidləmə müəssisəsinə göndərilməlidir. Laboratoriya müayinəsinin nəticəsindən asılı olaraq onun müalicəsi barədə yekun qərar qəbul edilir.

3.8. Yük daşımalarını həyata keçirən nəqliyyat vasitələrinin sürücüləri sərhəd buraxılış məntəqələrindən Azərbaycan Respublikasının ərazisinə daxil olduqları vaxt laboratoriya müayinəsindən keçirilir və müayinənin nəticəsi əldə olunanadək yaşadıqları və ya olduqları yerdə bu Qaydaların 4.5-ci bəndində göstərilənlərə riayət etməklə karantin nəzarətinə götürülürlər.

3.9. Azərbaycan Respublikasının ərazisində tranzitlə hərəkət edən nəqliyyat vasitələrinin sürücüləri sərhəd buraxılış məntəqəsinə daxil olduqları vaxt həmin şəxslərin sağlamlıq vəziyyəti qiymətləndirilir və onların təyinat məntəqəsi istiqamətində nəqliyyat vasitəsini tərk etməmək şərtilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə maneəsiz hərəkəti təmin edilir. Nəqliyyat vasitələri təyinat məntəqəsinə qədər yanacaqla təmin olunur. Yanacaqdoldurma məntəqəsindən yanacaq doldurmaq zərurəti yarandığı təqdirdə, sürücülər qoruyucu tibbi vasitələrdən istifadə etməli və digər şəxslərlə ünsiyyət zamanı yoluxucu xəstəliyin xüsusiyyətindən asılı olaraq, minimal məsafə (ən azı 1 (bir) metr) saxlamalıdırlar. Sürücülərin zəruri ehtiyaclarının ödənilməsi də eyni qaydada təmin olunur.

3.10. Bu Qaydaların 3.9-cu bəndində göstərilən şəxslərin sərhəd buraxılış məntəqəsində sağlamlıq vəziyyətinin qiymətləndirilməsi zamanı onların yoluxucu xəstəliyə yoluxma şübhəsi yarandıqda, həmin şəxslərin gəldikləri ölkənin səlahiyyətli orqanlarına məlumat verilməklə onlar geri qaytarılır. Bu sürücülərdə yoluxucu xəstəliyə yoluxma şübhəsi Azərbaycan Respublikasının ərazisinə daxil olduqdan sonra və ya təyinat ölkəsinə hərəkət zamanı yarandıqda, həmin şəxslər laboratoriya müayinəsindən keçirilməklə tibbi çeşidləmə müəssisəsinə göndərilirlər. Laboratoriya müayinəsinin nəticəsindən asılı olaraq onların müalicəsi barədə yekun qərar qəbul edilir.

## 4. Təmasda olan şəxslərin karantin nəzarətinə götürülməsi

4.1. Təmasda olmuş şəxslərin dairəsi Nazirliyin gigiyena və epidemiologiya mərkəzlərinin mütəxəssisləri tərəfindən 12 (on iki) saat ərzində müəyyən edilir və onlar barədə tibbi müşahidənin aparılması üçün ərazi ambulator-

poliklinika müəssisə-sinə, yaxud tabeliyində sanitariya nəzarətini həyata keçirən tibb müəssisələri olan orqanlara məlumat verilir.

4.2. Bu Qaydaların 4.1-ci bəndində göstərilən şəxslərin dairəsinin müəyyən edilməsinə daxili işlər orqanları da cəlb olunurlar.

4.3. Yoluxucu xəstəliyə yoluxmuş şəxslə təmasda olan şəxslər son təmasdan sonra bu Qaydaların 3.1-ci bəndi ilə müəyyən edilmiş müddətdə yaşadıqları və ya olduqları yerdə karantin nəzarətinə götürülürlər.

4.4. Bu Qaydaların 4.3-cü bəndində göstərilən şəxslər üzərində tibbi müşahidə ərazi ambulator-poliklinika müəssisəsi tərəfindən gündəlik olaraq telefon vasitəsilə həyata keçirilir.

4.5. Yaşadığı və ya olduğu yerdə karantin nəzarətinə götürülmüş şəxs aşağıdakı tələblərə riayət etməlidir:

4.5.1. onunla birgə yaşayan şəxslərin xəstəliyə yoluxma riskini azaltmaq üçün ayrı otaqda qalmalı, bu mümkün olmadıqda, mənzili yaxşı havalandırmalı, həmin şəxslərlə ən az 1 (bir) metr məsafədə olmalı və ünsiyyət zamanı tibbi maskadan istifadə etməlidir;

4.5.2. şəxsi gigiyena vasitələrini və istifadə etdiyi digər əşyaları onunla birgə yaşayan şəxslərdən təcrid etməlidir;

4.5.3. mənzilin (evin) daxilində mümkün qədər az hərəkət etməlidir;

4.5.4. ümumi istifadə yerlərini tez-tez havalandırmalıdır;

4.6. Yaşadıqları və ya olduqları yerdə karantin nəzarətinə götürülmüş şəxslərin laboratoriya müayinəsi bu Qaydaların 3.2-ci bəndinə uyğun olaraq həyata keçirilir. Karantin nəzarətinin müddəti başa çatdığı vaxt aparılan müayinələrin nəticəsi neqativ olduqda, karantin müddəti başa çatmış hesab edilir. Karantin nəzarətinin müddəti başa çatdığı

vaxt aparılan sonuncu laboratoriya müayinəsinin nəticələri əldə olunana qədər karantin nəzarətinə götürülmüş şəxsin yaşadığı və ya olduğu yeri tərk etməsi qadağandır.

4.7. Karantin müddətində təmasda olan şəxsdə yoluxucu xəstəliyin simptomları aşkar edildikdə, həmin şəxs əlavə laboratoriya müayinəsindən keçirilir. Müayinənin nəticəsi pozitiv olduqda, həmin şəxs müalicəyə cəlb olunur.

## 5. Tibb müəssisəsində yoluxucu xəstəliyə yoluxma zamanı görülən tədbirlər

5.1. Tibb müəssisəsində yoluxucu xəstəliyə yoluxma faktı aşkar edildikdə, həmin tibb müəssisəsində işləyən bütün tibb işçiləri laboratoriya müayinəsindən keçirilir və fərdi mühafizə vasitələrindən istifadə qaydalarına ciddi əməl etməklə fəaliyyətlərini davam etdirirlər. Bu Qaydaların 3.1-ci bəndi ilə müəyyən edilmiş müddət keçdikdən sonra tibb işçiləri təkrar müayinədən keçirilirlər.

5.2. Yoluxucu xəstəliyə yoluxmuş tibb işçiləri ilə təmasda olan xəstə laboratoriya müayinəsindən keçirilərək, müalicəsini davam etdirir. Müalicə müddəti bu Qaydaların 3.1-ci bəndi ilə müəyyən edilmiş müddətdən tez başa çatdıqda, həmin şəxs yaşadığı və ya olduğu yerdə karantinə götürülür.

## 6. Karantin müəssisələrinə yerləşdirməyə dair ümumi tələblər

6.1. Karantin müəssisəsinə yerləşdirilmə zamanı aşağıdakı tələblərə riayət olunmalıdır:

6.1.1. hər bir şəxs havalandırılan (ventilyasiya olunan) tək yerli və sanitar qovşağı ilə təmin edilmiş otaqlarda yerləşdirilməli, bu mümkün olmadıqda isə xəstəliyin yoluxdurucu xüsusiyyətləri nəzərə alınaraq çarpayılar arası mi-

nimal məsafə təmin edilməlidir;

6.1.2. karantin müəssisəsində yerləşdirilmiş şəxslərin tibbi maskadan istifadə etməsinə və xəstəliyin yoluxdurucu xüsusiyyətləri nəzərə alınaraq minimal məsafənin saxlamasına nəzarət edilməlidir;

6.1.3. karantin müəssisəsində yerləşdirilmiş şəxslərə xidmət göstərən tibb işçiləri və digər işçilər tərəfindən yoluxma riskini istisna edən sanitariya-gigiyena qaydalarına və normalarına riayət edilməlidir;

6.1.4. karantin müəssisələrinə yerləşdirilmiş şəxslərin əşyaları, o cümlədən fərdi gigiyena vasitələri, geyimləri, yataq ləvazimatları digərlərinin əşyalarından təcrid edilməli və ayrıca yuyulmalıdır;

6.1.5. karantin müəssisəsinin ərazisi mütəmadi olaraq, sanitar qovşaqları isə gün ərzində 1 (bir) dəfədən az olmayaraq xüsusi məhlullarla dezinfeksiya edilməlidir.

## 7. Yekun müddəalar

7.1. Xəstəliyin yoluxdurucu xüsusiyyətlərindən asılı olaraq, Nazirliyin və Agentliyin təklifləri əsasında karantin müəssisələrində xəstəliyin yayılmasının qarşısını almaq məqsədilə əlavə tədbirlər görülə bilər.

7.2. Karantin nəzarətinə götürülmüş şəxslərin karantin yerini tərk etməsi və kənar şəxslərin onları ziyarət etməsi ("Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial xidmət göstərilməsi halları istisna olmaqla) qadağandır.

7.3. Karantin müəssisəsində yerləşdirilmiş risk qrupunda olan şəxslərdə yoluxucu xəstəliyin ağırlaşma riskinin yüksək olması nəzərə alınaraq, həmin şəxslər mütləq təkyerli otaqlarda yerləşdirilməli və onların müəssisədə olan digər şəxslərlə təması məhdudlaşdırılmalıdır.

7.4. Karantinə götürülmüş şəxslərə "Psixoloji yardım

haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji yardım göstərilir.

7.5. Karantin müəssisəsinə yerləşdirilmiş şəxslərin ailə üzvləri ilə əlaqə saxlaması (ziyarət edilməsi istisna olmaqla) üçün şərait yaradılır.

7.6. Karantin rejimini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

## Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının ərazisində yeni növ koronavirus (COVID-19) infeksiyasının insanlar arasında kütləvi yayılmasının qarşısının alınması məqsədilə aşağıda qeyd edilən hallarda sosial məsafəni gözləmək (insanlar arası məsafə 1,5-2 metr) şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə edilməlidir:

1.1. şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişindaşımada istifadə olunan nəqliyyat vasitələrində (avtobus, taksi, metro, dəmiryolu və s.);

1.2. bazarlarda, qapalı ictimai iaşə, ticarət və xidmət obyektlərində (həmin obyektlərdə göstərilən xidmət növündən asılı olaraq tənəffüs yollarını qoruyan fərdi vasitələrin çıxarılmasının zəruri olduğu hallar istisna olmaqla);

1.3. dövlət orqanlarının (qurumlarının) binalarında vətəndaşların qəbulu və vətəndaşlara xidmət üçün nəzərdə

tutulan sahələrdə;

1.4. fiziki və hüquqi şəxslərə məxsus binaların müştərilərə xidmət göstərilməsi üçün istifadə edilən sahələrində;

1.5. açıq sahəli ofislərdə və istehsalat yerlərində;

1.6. tarix və mədəniyyət abidələri hesab edilən qapalı məkanlarda, ibadət yerlərində, elm və səhiyyə müəssisələrində, sosial, mədəniyyət və digər bu kimi qapalı obyektlərdə;

1.7. ictimai nəqliyyat dayanacaqlarında, bilet kassalarının, bankomatların (ATM) və ödəniş terminallarının, ticarət, iş və xidmət obyektlərinin qarşısında növbədə;

1.8. insanların toplaşdığı və yaxın təmasda olduğu açıq havadakı ictimai yerlərdə onlar arasında sosial məsafənin qorunmasının mümkün olmadığı digər hallarda.

2. Tənəffüs yollarını qoruyan fərdi vasitələrin istifadəsi yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı digər qoruyucu tədbirləri (gigiyena, sosial məsafə və s.) əvəz etmir və həmin qoruyucu tədbirlərin görülməsi davam etdirilməlidir.

3. Bu Qərarın 1-ci hissəsinin tələblərinin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Əli ƏSƏDOV**
Azərbaycan Respublikasının Baş Naziri

Bakı şəhəri, 29 may 2020-ci il
№ 189

# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ

“04” “iyun” 2020-ci il № 11/637

Mərkəzi icra hakimiyyəti orqanlarının
və dövlətə məxsus hüquqi şəxslərin
rəhbərlərinə (siyahı üzrə)

Yeni növ koronavirus (COVİD-19) infeksiyasının dövlət qurumlarının əməkdaşları arasında yayılmasının qarşısının alınması və bununla əlaqədar müvafiq sanitariya-epidemioloji tədbirlərin gücləndirilməsi məqsədilə aşağıdakılar sizə tapşırılır:

1. Rəhbərlik etdiyiniz qurumun inzibati binasında (o cümlədən, quruma məxsus digər obyektlərdə) ümumi istifadə olunan sahələrdə (dəhlizlər, liftlər, sənədlərin şöbələr tərəfindən təhvil-təslim alınan struktur bölməsinin xidməti otaqlarında və s.) əməkdaşların sosial məsafə saxlaması (insanlar arası məsafə 1,5-2 metr) şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) mütləq istifadə edilməsi;

2. Rəhbərlik etdiyiniz qurumda daxili sanitariya-epidemioloji qaydaların qısa müddətdə hazırlanıb təsdiq olunması;

3. Təşkilatınızda digər qurumların nümayəndələrinin iştirakı ilə işçi görüş və iclasların yalnız xüsusi zərurət olduqda keçirilməsi, dəvət olunanların sayının minimum həddə saxlanılması, onlara inzibati binada sosial məsafəni gözləmək (insanlar arası məsafə 1,5-2 metr) şərtilə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) mütləq istifadə edilməsi qaydası barədə dəvət edən tərəfindən öncədən məlumat verilməsi;

4. “Xüsusi karantin rejimində tənəffüs yolarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 may tarixli 189 nömrəli Qərarının müddəaları rəhbərlik etdiyiniz təşkilatın kollektivinin diqqətinə bir daha çatdırılmalı, müvafiq tələblərə riayət edilməsinə nəzarət daha da gücləndirilməlidir.

5. Tapşırığın icrasına müvafiq qurum rəhbərləri məsuliyyət daşıyırlar.

**Əli ƏSƏDOV**

# QISA BAŞLIQLARIN İZAHI

**AR** – Azərbaycan Respublikası;

**ƏM** – Əmək Məcəlləsi;

**NK** – Nazirlər Kabineti;

**FHN** – Fövqəladə Hallar Nazirliyi;

**ƏƏSMN** – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

**AHİK** – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

**DSK** – Dövlət Statistika Komitəsi;

**DƏMX** – Dövlət Əmək Müfəttişliyi Xidməti;

**İZ** – İstehsalat Zədəsi;

**İƏM** – İslah Əmək Müəssisəsi;

**İMM** – İslah-Müalicə Müəssisəsi;

**TƏM** – Tərbiyə-Əmək Müəssisəsi;

**ÜST** – Ümumdünya Səhiyyə Təşkilatı;

**TN** – Təhsil Nazirliyi.

# MÜNDƏRİCAT

**ÖN SÖZ** ........ 3

**I FƏSİL.**
**ƏMƏK MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASI** ........ 6
Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası Normaları, Qaydaları, Standartları və Prinsipləri nədir? ........ 9
İş yerlərinin sağlam sanitariya və gigiyena şəraitinin və əməyin mühafizəsinin qüvvədə olan normativlərə uyğunlaşdırılması ........ 11
Normal əmək və istirahət rejiminə riayət olunması qaydaları ........ 13
İşçilərə müəyyən olunmuş müddətdə və lazımi çeşidlərdə pulsuz olaraq xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi və ümumi mühafizə vasitələrinin verilməsi qaydaları ........ 15
İşçilərin əməyin mühafizəsi və təhlükəsizlik texnikası norma və qaydaları üzrə təhsilinin və təlimatlandırılmasının təşkili ........ 16
Fəhlə və qulluqçuların öyrədilməsinin və biliklərinin yoxlanılmasının təşkili ........ 17

**II FƏSİL.**
**ƏMƏK MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASININ ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ** ........ 25
Təhlükəsizlik Texnikası Prinsipləri ........ 25
İstehsalat sanitariyası ........ 26
İşçilərin fərdi mühafizə vasitələri ........ 27
Yanğın təhlükəsizliyinin əsasları ........ 27
Bədbəxt hadisələr və xəstələnmələr zamanı ilkin (həkimə qədər) yardımın üsulları ........ 28
İdarə və müəssisələrin ərazisində, istehsalat və yardımçı binalarda özünü aparma qaydaları ........ 28
İşçilərin daşınma qaydaları ........ 29

Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə təlimatlar və onların keçirilməsi qaydaları ....29
Giriş təlimatının keçirilməsi üçün nümunəvi proqram forması ....30
"İş yerində təlimat"ın keçirilmə qaydaları ....31
İşçilər üçün "İş yerində təlimat"ın hazırlanması qaydaları ....39
Yeni tikilmiş istehsal sahələri, əsaslı və yenidənqurma işlərindən sonra istifadəyə verilmiş sahələrdə çalışan işçilər üçün müvəqqəti təlimatların hazırlanması ....41
Təlimatların tərtibatının forması və əsas məzmunu....41
Ümumi texniki təhlükəsizlik tələbləri ....42
İş öncəsi təhlükəsizlik tələbləri....43
İş vaxtı ərzində təhlükəsizlik tələbləri ....43
Qəza və hadisələr vəziyyətində təhlükəsizlik tələbləri....44
İş vaxtı başa çatdıqda görülməli olan təhlükəsizlik tələbləri....44
Fors-major və ya ehtiyac yarandığı hallarda təlimatlara əlavə bölmələrin daxil edilməsi halları ....45
Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikasına dair elektrik avadanlıqlarına xidmət göstərən elektrik mantyoru üçün nümunəvi təlimat ....49
Dülgər üçün əməyin mühafizəsi üzrə təlimat ....52
Əmək Mühafizəsi və Təhlükəsizlik Texnikasına dair bütün təlimatların, norma və qaydaların yoxlanılması və yenidən baxılması qaydaları ....54
Əmək Mühafizəsi Norma və Qaydalarına əməl olunmasına nəzarət və işəgötürənlərin məsuliyyəti....56
Əmək mühafizəsi üzrə qaydalara və müvafiq normativ hüquqi aktlara əməl edilməsinə dövlət nəzarəti ....56
Əmək mühafizəsi üzrə qanunvericiliyə əməl edilməsinə ictimai nəzarət....56
Əmək mühafizəsi qaydalarına əməl edilməsinə nəzarət sahəsində həmkarlar ittifaqlarının hüquqları....56
Dərman qutuları və ondan istifadə olunması qaydaları ....58
Kollektiv müqavilələrdə əməyin mühafizəsi üzrə qaydaların və normaların daxil edilməsi və orada nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsi ....59

**III FƏSİL.**
**ƏMƏYİN MÜHAFİZƏSİNƏ DAİR NORMATİV – HÜQUQİ AKTLAR**
**(Azərbaycan Respublikasının Konstitusiyası) (Çıxarış)** .......... 61
Azərbaycan Respublikasının Əmək Məcəlləsi (Çıxarış) ................ 62
Texniki Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu ........................................................................ 80
İctimai binalarda, yaşayış evlərində, təhsil, səhiyyə, sənaye təyinatlı binalarda, idarə və müəssisələrdə təbii və zənginləşdirilmiş qazdan istifadə edənlər üçün Təhlükəsizlik Qaydaları ................................................................ 96
Əməyin mühafizəsi və əhalinin sosial müdafiəsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Hökumət Başçıları Şurasının (HBŞ) iclasında Azərbaycan Respublikası tərəfindən imzalanmış sazişlər ......... 101
İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması qaydalarının təsdiq edilməsi haqqında .............. 102
İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması qaydaları .................................................................. 103
"Azərbaycan Respublikasının ərazisində hava damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə Qaydaları"nın təsdiq edilməsi barədə .......................... 126
Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə qaydaları........................................................ 127
Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə.................................... 136
Mərkəzi icra hakimiyyəti orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin rəhbərlərinə (siyahı üzrə) .................. 138

**QISA BAŞLIQLARIN İZAHI** ............................................................... 140

| | |
|---|---|
| Mətbəənin direktoru | – Fuad HÜSEYNOV |
| Texniki redaktor | – Azər RƏSULOV |
| Dizayner | – Kəmalə FƏRHADOVA |
| | – Məhiyəddin SEYİDOV |
| Kompüter yığımı | – Təranə RƏHİMOVA |
| Cildçi | – Gövhər NURULLAYEVA |
| Çapçı | – Oqtay YUSİFOV |

*Kitab* ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

| | |
|---|---|
| afpoliqraf@mail.ru | Tel.: +994 (12) 510 96 74 |
| afpoliqraf@gmail.com | Mob.: +994 (50) 405 96 74 |

Yığılmağa verilmişdir: 15.09.2020
Çapa imzalanmışdır: 30.10.2020
Qarnitura: Cambria
Şərti çap vərəqi: 9
Formatı: 64x90 1/16
Tiraj: 200